Xalqın qəzeti!

# Xalq qəzeti

№ 236 (30930) 5 noyabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## İlham Əliyev və dövlət elm siyasəti



Səhifə ⇨ 3

## 5 noyabr 2020-ci il:
# Zəfər yürüşünün 40-cı günü



**Azərbaycan Prezidenti İlham ƏLİYEV:**

**Cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik.**

**İşğal olunmuş rayonlardan 5-dən 4-ü artıq ya tamamilə, ya da qismən azad edilib. Bu gün biz işğal altında olan digər rayonların işğaldan azad edilməsinin aktiv mərhələsindəyik. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik və artıq əsas prinsiplərin bir hissəsini yerinə yetirmişik. Əfsuslar olsun ki, Ermənistan könüllü şəkildə bunu etmək istəmirdi, ona görə də biz onları bunu etməyə məcbur etməli olduq.**

## İqtisadi tərəqqinin Azərbaycan modeli

*2 aparıcı beynəlxalq agentlik ölkəmizin kredit reytinqini yüksəldib*

**Son illər Azərbaycan Cənubi Qafqaz regionunun iqtisadi güc mərkəzinə çevrilib. Ölkəmizin iqtisadi uğurlarının başlıca səbəbi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası, çevik iqtisadi yanaşmalar, qeyri-neft-qaz iqtisadiyyatının şaxələndirilməsi, əlverişli investisiya mühiti və s. amillərlə bağlıdır. Artıq dünyada güclü iqtisadi potensialı olan nüfuzlu dövlət və etibarlı tərəfdaş kimi tanınan Azərbaycanın təşəbbüsü və iştirakı ilə bir sıra vacib beynəlxalq və regional layihələr reallaşdırılır.**



44 günlük müqəddəs Vətən savaşında tarixi uğura imza ataraq ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan ötən hər ili yüksək iqtisadi uğurlarla başa vurur, qeyri-neft sektorunda mühüm irəliləyişlərə nail olur. Azərbaycan dövlətinin iqtisadi qüdrəti sayəsində işğaldan azad edilmiş ərazilərimiz sürətlə bərpa olunur, ölkəmiz dünyanın prioritet elan etdiyi "yaşıl keçid" platformasının ön sıralarında yer alır. Heç şübhəsiz, bütün bunlar Azərbaycanın yaratdığı milli iqtisadi inkişaf modelinin uğurlarından qaynaqlanır.

**(ardı 9-cu səhifədə)**

## Paşinyanın "xalqla təmas" siyasəti: sadəlik, yoxsa fəndgirlik?

*Radikal revanşistlər bu davranışları seçkiqabağı kampaniyanın tərkib hissəsi sayır*



**Ermənistanın Baş naziri Nikol Paşinyan son aylarda ictimai fəallığını nəzərəçarpacaq dərəcədə artırıb. Onun əvvəlki illərdə də cəmiyyətlə açıq təmasda olması yaxşı məlumdur. Lakin indi bu təmaslar daha planlı, sistemli və intensiv xarakter alıb. Baş nazirin velosipedlə hərəkət etməsi, ictimai nəqliyyatdan yararlanması, bazarlarda və səyyar ticarət məntəqələrində vətəndaşlarla söhbətə qoşulması artıq siyasi jest yox, idarəetmə tərzinin bir parçasına çevrilib.**

**(ardı 6-cı səhifədə)**

## "Vergi güzəşti" "mərhələli güzəşt"lə əvəz olunur



Səhifə ⇨ 9

## Maldarlar ciddi sınaqla üz-üzə



Səhifə ⇨ 14

# Miqrant məsələsi yenə Rusiyada gündəmdədir

**Rusiya postsovet məkanında ən çox mühacir qəbul edən ölkədir. Statistikaya görə, hər il milyonlarla xarici vətəndaş bu ölkəyə işləmək, təhsil almaq və ya müvəqqəti yaşamaq məqsədilə gəlir. Bunun bir neçə səbəbi var. Rusiya MDB (Müstəqil Dövlətlər Birliyi) ölkələri arasında iqtisadi cəhətdən ən güclü və sənayeləşmiş dövlətlərdən biridir. Moskva, Sankt-Peterburq, Yekaterinburq və Krasnodar kimi iri şəhərlərdə əmək bazarı çox genişdir. Mühacirlər üçün xüsusilə tikinti, nəqliyyat, xidmət və ticarət sektorlarında iş tapmaq daha asandır. Rusiya hökuməti bir tərəfdən yerli işçi qüvvəsinin çatışmazlığını, digər tərəfdən də əmək bazarının ehtiyaclarını nəzərə alaraq, ölkəyə miqrasiya axınına şərait yaradır. Bu da, öz növbəsində, iqtisadi artıma kömək edir.**

Etiraf etməliyik ki, Rusiya və keçmiş sovet respublikaları arasında tarixi, mədəni və dil bağları hələ də güclüdür. MDB ölkələrində rus dili geniş yayılıb, bu da mühacirlərin yerli mühitə uyğunlaşmasını asanlaşdırır. Bu səbəbdən Mərkəzi Asiyadan gələnlər, xüsusilə Özbəkistan, Tacikistan və Qırğızıstan vətəndaşları Rusiyada özlərini rahat hiss edirlər. Onlar üçün dil baryeri azdır, sosial inteqrasiya daha sürətli gedir.

**(ardı 6-cı səhifədə)**



# İlham Əliyev. “Zəfər. Tam və Qəti Qələbə” kitabı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “İnkişaf - məqsədimizdir” çoxcildliyinin xüsusi buraxılışı - “Zəfər. Tam və Qəti Qələbə” kitabı çapdan çıxıb.**




Kitabda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsinin ilk dəqiqələrindən Zəfər gününədək möhtəşəm fəaliyyətindən bəhs edilir.

Kitab Azərbaycan Prezidentinin Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi ağır artilleriya silahlarından şiddətli atəşə tutduqdan dərhal sonra - sentyabrın 27-də saat 12:45-də Azərbaycan xalqına müraciəti ilə başlayır. Dövlətimizin başçısı həmin müraciətdə tarixi ədalətin, beynəlxalq hüququn bizim tərəfimizdə olduğunu vurğulayaraq deyib: “Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir”. Müzəffər Ali Baş Komandanın “Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!” fikri isə ordumuzu, əsgər və zabitlərimizi səfərbər etdi, xalqımızı bütövlükdə qələbəyə köklədi.

“Zəfər. Tam və Qəti Qələbə” kitabına Azərbaycan Prezidentinin Vətən müharibəsinin davam etdiyi 44 gündə müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə telefon danışıqlarının mətni, videomüraciətləri, aparıcı xarici media orqanlarına müsahibələri, hər bir yaşayış məntəqəsinin azad olunması haqda müjdələri - tvitləri yer alıb.

Noyabrın 9-da “BBC News”a müsahibə verən Prezident İlham Əliyev bildirib: “Biz bu günə qədər qarşımızda duran bütün vəzifələrə uğurla çatmışıq. Bəyan etdiyim bütün hədəflərə çatmışıq. Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi. Mən şadam ki, bu vəzifənin öhdəsindən də şərəflə gəlirəm və Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına biz torpaqlarımızı qaytarırıq. Azərbaycan xalqının fədakarlığı bir daha onu göstərir ki, biz böyük xalqıq, biz birlik nümayiş etdiririk və bu birlik bizi daha da gücləndirəcək, ölkəmizi daha da qüdrətli ölkəyə çevirəcəkdir”.

Yeni nəşrdə 44 gündə işğaldan azad edilmiş şəhər və kəndlərin, yaşayış məntəqələrinin siyahısı xronoloji ardıcıllıqla təqdim olunub, həmçinin erməni qəsbkarlardan götürülmüş qənimət silah-sursatların adları verilib.

Bu kitabda Ağdamın, Laçının və Kəlbəcərin bir güllə atılmadan, heç bir itki vermədən Azərbaycana qaytarılması zamanı Prezidentin xalqa müraciətləri də yer alıb.

Oxucu yeni nəşrdə, həmçinin 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlaması, 23 saat 43 dəqiqə ərzində separatçıların tərk-silah edilərək ölkədən tamamilə çıxarılması və Azərbaycanın suverenliyinin tam bərpa edilməsi ilə bağlı məlumatlarla da tanış ola bilər. Sentyabrın 20-də Azərbaycan Prezidentinin xalqa müraciəti, eyni zamanda, Azərbaycanın daxili işlərinə qarışan qüvvələrə bir mesaj idi: “Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil - Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar. Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, “dəmir yumruq” yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!”

Həmin müraciətdə qeyd olunduğu kimi, o gün uzaqda deyil. Bu il Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Birləşmiş Ştatlara işgüzar səfər etdi. Bu kitabda Azərbaycan Prezidentinin həmin səfəri zamanı tarixə düşən çıxışı, görüş və danışıqları, eyni zamanda, Azərbaycan, Amerika Birləşmiş Ştatları prezidentlərinin və Ermənistanın Baş nazirinin Birgə Bəyannaməsi öz əksini tapıb.

Nəşrin buraxılışına məsul “Azərnəşr”in baş redaktoru Əlövsət Ağalarovdur.

***AZƏRTAC***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!**

Ölkənizin Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuruq.

Sizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan Hökumətinə və xalqına davamlı inkişaf və rifah arzu edirik.

Qardaş ölkələrimiz və xalqlarımız arasında bütün sahələrdə münasibətləri möhkəmləndirmək və inkişaf etdirmək istəyimizi bir daha bəyan edirik.

Zati-alinizə salamlarımızı və ehtiramımızı çatdırırıq.

**Qardaşınız,**

***Salman bin Əbdüləziz Al SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi,***
***Səudiyyə Ərəbistanının Kralı***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Şanlı Zəfər Gününün beşinci ildönümü münasibətilə Zati-alinizə və qardaş Azərbaycan xalqına Pakistan Hökuməti və xalqı adından, şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Bu gün Zati-alinizin uzaqgörən rəhbərliyi ilə Vətəninin suverenliyini və ərazi bütövlüyünü fədakarlıqla bərpa edən Azərbaycan xalqının əzmkar mübarizəsinin və qətiyyətinin qürurverici təntənəsidir. İşğal olunmuş ərazilərin azad edilməsi Azərbaycanın müasir tarixində ədalətin, dözümlülüyün və milli birliyin rəmzi olan əlamətdar bir nailiyyət kimi qalır.

Bu il Qələbə Gününün qeyd olunması Ermənistanla münasibətlərdə əhəmiyyətli inkişafdan sonra regionda davamlı sülhə doğru müsbət nəticələrin təşviq edilməsi ilə üst-üstə düşdüyündən xüsusi əhəmiyyət daşıyır. Bu tarixi məqam hamı üçün sabitlik, əməkdaşlıq və firavanlıqla təmin olunacaq gələcəyin qurulması üçün yeni ümidlər doğurur.

Pakistan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qətiyyətli və ardıcıl dəstəyini bir daha təsdiqləyir. Əminəm ki, xalqlarımız və dövlətlərimiz arasında dostluq və qardaşlıq əlaqələri qarşıdakı illərdə də möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan xalqına davamlı sülh, tərəqqi və firavanlıq arzularımı çatdırıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Asif Əli ZƏRDARİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**
**Dəyərli qardaşım!**

Ölkənizin şanlı bayramı – Zəfər Günü münasibətilə Sizi – əziz qardaşımı və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Beş il əvvəl doğma Vətəninin əsl fədaisi və sadiq oğlu, görkəmli dövlət və siyasət xadimi olan Sizin kimi müdrik rəhbərin qətiyyəti və cəsarəti sayəsində ölkənizin ərazi bütövlüyü bərpa edilmiş, tarixi ədalət təmin olunmuşdur.

Bu möhtəşəm hadisə təkcə Azərbaycanın gücünü və böyük potensialını bütün dünyaya aydın şəkildə nümayiş etdirmədi, həm də regionda sülh, qarşılıqlı anlaşma və sabitliyin möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı.

Bu məqamda Sizin Cənubi Qafqazda əmin-amanlığın və davamlı inkişafın təmin edilməsi istiqamətində həyata keçirdiyiniz ardıcıl səyləri tam dəstəklədiyimizi bir daha vurğulayıram.

Son illərdə ölkənizə səfərlərim zamanı Qarabağ bölgəsində müasir infrastrukturun qurulmasının, mədəni irs abidələrinin bərpa edilməsinin, bu ərazilərdə yaşayan əhalinin həyat səviyyəsinin yüksəldilməsinin şahidi oluruq və səmimi bir qardaş kimi bu misilsiz nailiyyətlərdən böyük sevinc hissi keçiririk.

Hörmətli İlham Heydər oğlu, Sizinlə bu il Azərbaycanın füsunkar Bakı, Xankəndi və Qəbələ şəhərlərində açıq və məhsuldar görüşlərimiz, habelə səmərəli danışıqlar zamanı əldə olunan mühüm razılaşmaların tam icrasının strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərimizi tamamilə yeni mərhələyə yüksəldəcəyinə əminəm.

Əziz dostum, yaxın gələcəkdə Mərkəzi Asiyanın dövlət başçılarının növbəti Məşvərət Görüşündə iştirak etmək üçün Sizin Özbəkistana səfərinizi səbirsizliklə gözləyirəm.

Ölkənizin həyatındakı bu unudulmaz tarix münasibətilə bir daha səmimi təbriklərimi bildirir, Sizə möhkəm cansağlığı, ailə səadəti, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, rifah və daimi tərəqqi arzulayıram.

**Səmimi hörmətlə,**

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!**

Zati-alinizi ölkənizin Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə təbrik etməkdən və səmimi arzularımı çatdırmaqdan çox məmnunam.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Hökumətinə və xalqına daha çox tərəqqi və firavanlıq diləyirəm.

Zati-alinizə dərin hörmət və ehtiramımı bildirirəm.

***Məhəmməd bin Salman bin Əbdüləziz Al SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir***

## “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Pakistan İslam Respublikasında “ASAN xidmət” təcrübəsinin tətbiqi istiqamətində əməkdaşlığa dair Saziş”in təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il sentyabrın 10-da İslamabad şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Pakistan İslam Respublikasında “ASAN xidmət” təcrübəsinin tətbiqi istiqamətində əməkdaşlığa dair Saziş” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 noyabr 2025-ci il**

## “Məhkəmə Ekspertizası” informasiya sisteminin yaradılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Məhkəmə ekspertizası fəaliyyətində şəffaflığın və operativliyin artırılması ədalət mühakiməsinin həyata keçirilməsi, həmçinin təhqiqat və ibtidai istintaq zamanı obyektiv rəylərin təqdim edilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə müasir texnologiyaların tətbiqi obyektiv, hərtərəfli və ətraflı məhkəmə ekspertizası tədqiqatlarının aparılmasında, yarana biləcək sui-istifadə hallarının qarşısının alınmasında olduqca vacibdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət orqanlarının (qurumlarının) məhkəmə ekspertizası sahəsində fəaliyyətinin elektronlaşdırılması və məhkəmə ekspertizası idarələrinin fəaliyyətinin dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Dövlət orqanlarının (qurumlarının) məhkəmə ekspertizası sahəsində fəaliyyətinin elektronlaşdırılması, ümumi məlumat və bilik bazasının formalaşdırılması və həmin bazadan istifadənin əlçatanlığının təmin edilməsi məqsədilə “Məhkəmə Ekspertizası” informasiya sistemi (bundan sonra – Sistem) yaradılsın.

**2.** Müəyyən edilsin ki:

2.1. Sistemin sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

2.2. Sistemin yaradılması, saxlanılması, fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir;

2.3. Sistem vasitəsilə aşağıdakılar təmin edilir:

2.3.1. məzmununda dövlət sirri təşkil edən məlumat olanlar istisna olmaqla məhkəmə ekspertizasının təyin edilməsi ilə bağlı elektron qaydada göndərilən qərarların (qərardadların) Sistemə qəbulu;

2.3.2. məhkəmə ekspertizasının təyin edilməsi ilə bağlı elektron qaydada göndərilən qərarların (qərardadların) icraata yönəldilməsi barədə müvafiq məlumatların məhkəmə ekspertizasını təyin etmiş orqana (quruma) və ya şəxsə elektron qaydada (elektron poçt, SMS və s.) göndərilməsi;

2.3.3. istifadəçilər, o cümlədən hər bir məhkəmə eksperti üçün Sistemdə şəxsi kabinetin yaradılması;

2.3.4. məhkəmə ekspertizalarının aparılma müddətlərinə riayət olunmasının izlənilməsi və müddətlərin bitməsi ilə bağlı xəbərdaredici məlumatın göndərilməsi;

2.3.5. məhkəmə ekspertizasının təyin edilməsi ilə bağlı elektron qaydada göndərilən qərarlar (qərardadlar) üzrə məhkəmə ekspertizalarının aparılması zamanı verilən vəsatətlərin, ekspert rəylərinin və ekspertizaların aparılmasından imtina ilə bağlı məlumatların təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə məhkəmə ekspertizasını təyin edən orqana (quruma) və ya şəxsə göndərilməsi;

2.3.6. məzmununda dövlət sirri təşkil edən məlumat olan sənədlər istisna olmaqla ekspert rəy və məlumatlarının arxivləşdirilməsi;

2.3.7. məhkəmə ekspertizasının aparılması üçün zəruri olan məlumatların aidiyyəti dövlət informasiya ehtiyatlarından və sistemlərindən əldə edilməsi;

2.3.8. məhkəmə ekspertizası fəaliyyəti ilə bağlı statistik və digər hesabatların hazırlanması;

2.3.9. bəzi məhkəmə ekspertizası növlərinin elektron qaydada keçirilməsi.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. altı ay müddətində:

3.1.1. Sistemin yaradılması ilə əlaqədar normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. “Məhkəmə Ekspertizası” informasiya sistemi haqqında əsasnaməni Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

4.1. Sistemin saxlanılması, ondan səmərəli istifadənin təmin edilməsi və inkişaf etdirilməsi, habelə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə birlikdə məhkəmə ekspertizası sahəsində fəaliyyət istiqamətlərinə uyğun olaraq Sistemin formalaşdırılması və aparılması, həmçinin fəaliyyətinin təşkili üçün zəruri tədbirlər görsün;

4.2. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə “Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestri”, “Məhkəmə Ekspertlərinin Reyestri” və “Məhkəmə ekspertizasının metodik fondu” dövlət informasiya ehtiyatlarının Sistemin altsistemləri kimi təşkilini təmin etsin;

4.3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na uyğun olaraq, Sistemin “Hökumət buludu”nda yerləşdirilməsini təmin etsin;

4.4. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**5.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 noyabr 2025-ci il**

# Azərbaycan–Əlcəzair əməkdaşlığı müzakirəsi



**Noyabrın 4-də xarici işlər naziri Ceyhun Bayramov Əlcəzair Xalq Demokratik Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin dövlət naziri, xarici işlər və xaricdəki milli icma və Afrika məsələləri naziri Əhməd Attaf ilə görüşüb.**

Təkbətək görüşdən sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə nazirlər arasında keçirilən geniş tərkibdəli görüşdə Azərbaycan-Əlcəzair ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində yer alan aktual məsələlər, habelə regional və qlobal inkişaflar, eləcə də Yaxın Şərqdə vəziyyət müzakirə olunub.

İki ölkənin Xarici İşlər nazirlikləri arasında cari ilin aprelində baş tutmuş siyasi məsləhətləşmələrin, xarici işlər nazirləri arasında keçirilmiş görüşlərin Azərbaycan-Əlcəzair əməkdaşlığının hərtərəfli və sistematik şəkildə irəliyə aparılmasında rolundan bəhs olunub.

İqtisadi əməkdaşlıq ölçüsünə toxunularaq, ticarət və investisiyalar, neft-qaz və bərpaolunan enerji sahəsində əməkdaşlıq imkanları nəzərdən keçirilib. Təhsil və mədəniyyət sahələri üzrə mübadilələrin artırılmasının, turizm potensialının geniş şəkildə istifadə olunmasının xalqlarımızın bir-birini daha yaxından tanımasındakı rolundan bəhs olunub.

Sonda Azərbaycan və Əlcəzair hökumətləri arasında Ticarət, İqtisadi, Elmi və Texniki Əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Saziş iki ölkənin nazirləri tərəfindən imzalanıb. Komissiyanın iki ölkə arasında münasibətlərin daha da dərinləşdirilməsi istiqamətində əhəmiyyətli mexanizm olacağı vurğulanıb.

***XQ***

# İlham Əliyev və dövlət elm siyasəti

## *Azərbaycanda yüksəlişin yeni pilləsi*

**Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilən tədbirdə Prezident İlham Əliyevin çıxışı, mahiyyətcə, dövlətin gələcək inkişaf fəlsəfəsi haqqında strateji manifest idi. Prezidentin səsləndirdiyi fikirlər bugünkü dəyişkən beynəlxalq mühitdə Azərbaycanın yeni siyasi və iqtisadi modelinin ideoloji əsaslarını formalaşdırır. Çıxışda açıq şəkildə görünür ki, Azərbaycan artıq "postxammal" dövrünə qədəm qoyur və milli inkişafın təməl dayağı kimi intellektual kapitalın, elmi-texnoloji tərəqqinin və insan amilinin önə çıxarılmasına start verir.**

Prezident İlham Əliyevin "Azərbaycan tamamilə yeni vəziyyətdə yaşayır" fikirləri strateji əhəmiyyətli bəyanatdır. Dövlət başçısının ifadəsi postmüharibə, postpandemiya və qlobal texnoloji transformasiyaların kəsişdiyi bir məqamı təsvir edir – dünyada resursların və gücün paylanma meyilləri köklü şəkildə dəyişir. Əgər postsovet dövrü və 2000-ci illərin başlanğıcında geosiyasi üstünlük daha çox xammal və enerji mənbələri ilə ölçülürdüsə, indi bilik, məlumat və texnologiya əsas rəqabət qabiliyyəti reallığına çevrilib. Bütün bunlar isə Azərbaycanın həm xarici, həm daxili siyasətində yeni adaptasiya strategiyalarını tələb edir.

Öncə reallığı düzgün kontekstləşdirmək lazımdır: yeni reallıq həm imkan, həm də təhdid gətirir. İmkan tərəfi odur ki, Azərbaycanın mövcud maliyyə resursları – enerji gəlirləri – insan kapitalına, innovasiyaya və elmi infrastrukturun gücləndirilməsinə çevrilə bilər. Təhlükə tərəfi isə budur ki, texnoloji sıçrayışları vaxtında ələ keçirə bilməmək ölkəni geri çəkə, geosiyasi asılılığı artıraraq təhlükəsizlik boşluqları yarada bilər. Dövlət səviyyəsində mühüm siyasi qərar: enerji gəlirlərindən ibarət sərvəti qısamüddətli konsolidasiya əvəzinə uzunmüddətli insan və texnologiya kapitalına yönəltmək – bunu Prezidentin açıqlaması açıq şəkildə tələb edir.



Azərbaycan hansı intellektual resursla rəqabətdə önə çıxacaq sualına gəlincə, cavab sadə deyil, amma strateji baxımdan aydındır: bu, multidimensial insan kapitalıdır – yüksəkixtisaslı mühəndislər, tədqiqatçılar, tətbiqi elmlər üzrə startap mədəniyyəti, həmçinin dövlət və özəl sektor arasında bilik ötürülməsini təmin edən institutlar. Yəni rəqabət yalnız universitetlərin sayı ilə deyil, elm-sənaye-dövlət sinerjisinin effektivliyi ilə ölçüləcək. Burada tədqiqat nəticələrinin kommersiyalaşdırılması, intellektual mülkiyyətin qorunması, innovasiya ekosisteminin məhsuldar işləməsi vacibdir. Strateji prioritet olaraq texnoloji inkişafın önə çəkilməsi bir neçə praktik istiqaməti ehtiva etməlidir: kadr hazırlığı, infrastruktur, maliyyələşmə mexanizmləri və tənzimləyici mühit. Prezidentin mesajında məhz bu koordinator roluna çağırış var: dövlət həm vəsait qoymalı, həm də milli prioritetləri elmi proqramlarla sinxronlaşdırmalıdır.

Belə bir transformasiyanın geosiyasi aspekti də diqqətdən qaçmamalıdır. Texnologiya həm daxili inkişafın, həm də xarici siyasətin alətidir: yüksək texnoloji səviyyə ölkənin diplomatik çəki və müqavimət qabiliyyətini artırır, beynəlxalq əməkdaşlıq formatlarını genişləndirir. Eyni zamanda, texnologiya transferləri və beynəlxalq elmi əməkdaşlıqlar Azərbaycana yeni tərəfdaşlıq nöqtələri açır – ticarət bazarlarından fərqli olaraq bilik mübadiləsi davamlı və strateji bağlar yarada bilər.

Nəhayət, siyasətçilər və elm ictimaiyyəti arasında dialoqun dərinləşdirilməsi əsas şərtdir. Elm yalnız akademik məkan deyil, qərarvericilərin mühüm qərarlarına elmi əsaslı məzmun gətirən sahə olmalıdır – təhlükəsizlik siyasətindən tutmuş iqtisadi diversifikasiyaya qədər. Bu isə, öz növbəsində, sual doğurur: Əgər intellektual kapital prioritetdirsə, onun qorunması və inkişafı üçün hansı sosial-iqtisadi mexanizmlər əsas olmalıdır?

İlk növbədə yüksək savadlı kadrların ölkədə qalması üçün akademik karyera, startapların böyüməsi üçün risk kapitalının mövcudluğu, elmi nəticələrin kommersiyalaşdırılması üçün hüquqi qorunma və vergi təşviqləri. İkincisi, inklüziv təhsil siyasəti – yalnız mərkəz universitetlərinə yox, regionlara da elmi infrastrukturun dağılması. Üçüncüsü, beynəlxalq səviyyədə əməkdaşlıq kanallarının açılması və diasporun geri cəlb edilməsi üçün mentorluq və birgə layihə proqramları.

Xülasə olaraq, Prezidentin çağırışı Azərbaycanın strateji transformasiyasının praktiki xəritəsini təqdim edir: enerji gəlirlərindən insan və texnologiya kapitalına səmərəli keçid. Bu keçid uğurlu olacaqsa, ölkə yeni qlobal oyun qaydalarında öz yerini möhkəmlədəcək; əks halda, keçid gecikərsə, iqtisadi və təhlükəsizlik riskləri artacaq. Buna görə də adaptasiya strategiyası sürət, koordinasiya və davamlı investisiya tələb edir – yalnız buna görə Azərbaycan "yeni vəziyyətdə" rəqabətdə lider mövqe qazana bilər.

Prezident İlham Əliyevin "hər bir ölkənin inkişafını, eyni zamanda, təhlükəsizliyini o ölkənin texnoloji imkanları şərtləndirir" fikri, əslində, XXI əsrin geosiyasi reallığını dəqiq ifadə edən konseptual tezisdir. Müasir beynəlxalq münasibətlər sistemində artıq dövlətin ərazi bütövlüyünü tanklar və toplar deyil, informasiya və texnologiya üstünlüyü qoruyur. Kiberhücumlar, süni intellekt əsaslı casusluq sistemləri, data manipulyasiyası və media dezinformasiyası – bunlar müasir "savaşın görünməyən cəbhələri"dir. Məhz bu baxımdan, Prezidentin vurğuladığı texnoloji imkanlar dövlətin yeni müdafiə arxitekturasının strateji dayağı kimi çıxış edir.

Azərbaycan bu reallığı artıq praktiki səviyyədə hiss edib. 44 günlük Vətən müharibəsi göstərdi ki, müasir müharibələrin taleyini süni intellekt, dron texnologiyası, informasiya üstünlüyü və kiberkoordinasiya müəyyən edir. Lakin postmüharibə mərhələsində əsas məsələ bu qələbəni davamlı elmi üstünlüyə çevirməkdir. Texnoloji müharibə birdəfəlik deyil, davamlı bilik yarışıdır. Burada düşünməyə vadar edən əsas sual budur:

– Əgər gələcəyin müharibələri informasiya və texnologiya üzərində aparılacaqsa, Azərbaycan bu mübarizədə öz müdafiə mexanizmini necə qurmalıdır? Sualın cavabı Prezidentin çağırışında gizlənir: "elmin təhlükəsizliklə sintezi". Bu konsepsiya üç istiqamətdən ibarətdir: Birincisi, kiber və rəqəmsal təhlükəsizlik elminin dövlət səviyyəsində institusionallaşdırılması. Elm strateji təhlükəsizlik infrastrukturunun bir parçasına çevrilməlidir. Kiber təhlükəsizlik, süni intellekt, kvant texnologiyaları, informasiya analitikası – bunlar elmi-tədqiqat institutlarının əsas istiqamətləri olmalıdır.

İkincisi, "Bilik istehsalından milli güc istehsalına" keçid.

Prezidentin fikrinin mahiyyətində dayanan əsas tezis budur. İndiki mərhələdə, sadəcə, elmi məqalə və ya tədqiqat deyil, praktik nəticəli texnoloji məhsul vacibdir.

Üçüncüsü isə, elmi idarəetmə və qərar dəstəyi sistemlərinin formalaşdırılması. Dövlət siyasətinin elmi təhlil bazası möhkəmləndirilməlidir. Əgər informasiya epoxasında ən böyük təhlükə manipulyasiyadırsa, ən güclü silah – analitik düşüncə və fakt əsaslı qərardır. Elm bu qərarların "filtri" rolunu oynamalıdır.

XX əsrdə enerji siyasəti dövlətlərarası rəqabətin mərkəzində idisə, XXI əsrdə texnologiya siyasəti yeni hegemonluq mexanizminə çevrilir. Qlobal güclərin davranış trayektoriyası – ABŞ-Çin rəqabəti, Avropanın rəqəmsal suverenlik təşəbbüsləri, Rusiya və Hindistanın texnoloji autarxiya cəhdləri bunu açıq göstərir.

Bu mənzərədə sual yaranır: Azərbaycan regional texnoloji güc balansında öz yerini harada görür? Azərbaycan Cənubi Qafqazın "elmi dayaq nöqtəsi" rolunu oynamalıdır. Əgər keçmişdə müdafiə gücü hərbi təchizatla, silah istehsalı ilə müəyyən edilirdisə, indi milli müdafiə konsepsiyası informasiya, bilik və süni intellekt üstünlüyü üzərində qurulmalıdır. "Zəif ordusu olan ölkə müstəqilliyini itirər" prinsipi artıq "zəif elmi olan ölkə gələcəyini itirər" səviyyəsinə keçib.

Prezident İlham Əliyevin çıxışında diqqət çəkən ən mühüm strateji xətlərdən biri təbii resurslardan əldə edilən gəlirin insan kapitalına yönəldilməsi çağırışıdır. "Təbii sərvətlər tükənən sərvətlərdir... Tükənməz sərvət isə intellektual potensialdır" fikri, əslində, iqtisadi düşüncənin və dövlət siyasətinin mahiyyətini dəyişən yeni fəlsəfi yanaşmadır. Əgər əvvəlki mərhələdə Azərbaycan iqtisadiyyatının əsas dayağı enerji sektoru idisə, bu gün ölkənin dayanıqlı inkişafını təmin edəcək əsas mənbə artıq intellektual enerji, yəni bilik, elm və innovasiyadır.

Burada vacib siyasi sual ortaya çıxır: elmi və təhsili maliyyələşdirmək sadəcə dövlətin sosial öhdəliyidirmi, yoxsa bu, milli gələcəyin sığortasıdır? Bu suala cavab birmənalı şəkildə ikinci istiqamətdədir. Elmə qoyulan sərmayə milli təhlükəsizlik və iqtisadi müstəqilliyin təminat mexanizmidir. Prezidentin "o sərmayəni dövlət qoymalıdır" fikri, bu kontekstdə, elmə münasibətdə prinsipial dönüş nöqtəsidir. Elm dövlətin içində, qərarvermə proseslərinin mərkəzində olmalıdır. Məhz buna görə Prezidentin çıxışı həm də yeni bir idarəetmə mədəniyyətinin manifesti kimi səslənir: dövlət qərarları faktlara deyil, elmi proqnozlara, analitik modellərə və elmi əsaslandırılmış yanaşmalara söykənməlidir.

Xarici siyasətdə risk analizi akademik biliklə inteqrasiya olunmalı, enerji siyasəti elmi innovasiyalarla sinxronlaşdırılmalı, təhsil sistemi elmi istehsalın sosial bazasına çevrilməlidir. Beləliklə, dövlət, elm və cəmiyyət arasında yeni sinerji yaranır. Elm və dövlətin dialoqu bu üçbucağın mərkəzində dayanaraq, qərarların rasional əsaslarla formalaşmasını təmin edir.

Burada əsas, bəlkə də, ən düşündürücü sual belə formalaşır: Azərbaycan gələcəkdə hansı güclə qalib gələcək – neftlə, yoxsa zəka ilə? Cavab artıq siyasi və iqtisadi praktikada da aydın görünür. Azərbaycanın gələcək qələbəsi zəka ilə olacaq, çünki neft tükənəndə düşüncə qalır, resurslar azaldıqda bilik yeni resurs yaradır. Tükənməz yeganə milli sərvət – Azərbaycan insanının intellektidir.

Belə bir fəlsəfə artıq müasir dövlət modelinin mərkəzinə çevrilir. Azərbaycan XXI əsrin qlobal reallıqlarına elmi güc, düşüncə dərinliyi və texnoloji yeniliklərlə daxil olur. Məhz bu, Prezident İlham Əliyevin AMEA-nın yubileyində səsləndirdiyi çıxışın dərin mənasıdır. Bu çıxış Azərbaycanın gələcək taleyi, milli ideologiyası və intellektual qurtuluş strategiyası haqqında manifestdir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

**Ziyalılarla görüşmək həmişə böyük bir bayram təsəvvürü yaradır. Mən həyatım boyu belə düşünmüşəm, belə fikirləşmişəm. Ona görə, bəlkə, görüş sizin üçün də əhəmiyyətlidir, ancaq mənim üçün həddindən artıq dəyərlidir. Çünki uzun müddət belə bir imkandan məhrum olmuşdum. Yalnız qəlbim, ürəyim həmişə Vətəndə, xalqımla və xalqımızın qabaqcıl dəstəsi olan ziyalılarla, onların yaradıcılığı, işləri ilə bağlı olmuşdur. Ancaq indi yan-yanayıq, üz-üzə durmuşuq. Bu mənim üçün böyük hadisədir.**

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***
**21 sentyabr 1993-cü il**



# Heydər Əliyev: Akademiyamız müqəddəs elm ocağıdır

## *Ulu öndər ziyalılarla təmasdan mənəvi güc alırdı*

**Bizim yaşda olan qələm sahibləri üçün ulu öndər Heydər Əliyevin Azərbaycan elminə, onun inkişafına, elm adamlarına diqqət və qayğısı, bu sahədə gördüyü işlər barədə danışmaq, yazmaq, fikir bildirmək o qədər də çətin məsələ deyil. Çünki o böyük dövlət xadiminin cəmiyyət həyatının ən mühüm sahələrindən olan elmə qayğı və diqqəti demək olar ki, daim gözümüzün qabağında olub. Şəxsən mən yüzlərlə azərbaycanlı və əcnəbi elm adamlarının radio, televiziya və qəzetlərdə Heydər Əliyevin bu sahənin inkişafı üçün atdığı addımlara verdiyi yüksək qiymətləndirmənin şahidi olmuşam.**

O, ölkəmizə birinci dəfə rəhbərlik etdiyi dövrdə Kremlin etirazlarına baxmayaraq, Bakıda hərbi məktəblər yaradılmasına nail olmuşdu. Yəni hərb elmini Azərbaycan gəncliyi üçün əlçatan etmişdi. Çəkinmədən deyə bilərik ki, Azərbaycan Ordusunun 2020-ci ilin payızındakı 44 günlük və 2023-cü ilin sentyabrındakı bir günlük döyüşlərdə qazandığı Zəfərdə Ulu öndərin 1969-1982-ci illərdə atdığı addımların da xüsusi rolu olmuşdur.

Heydər Əliyev ölkəmizə birinci dəfə rəhbərlik etdiyi dövrdə Azərbaycanın kosmik sənayesinin təməlini qoymuşdu və həmin sahənin yaradılması, inkişafı üçün hansı səviyyədə elmi nailiyyətlərin tələb olunduğunu söyləməyə ehtiyac yoxdur. Nəticə göz qabağındadır. Bu gün Azərbaycanın müşahidə və rabitə missiyalı kosmik gəmiləri dünyanın aparıcı dövlətlərinin peykləri ilə yanaşı yerətrafı orbitdə uğurla fəaliyyət göstərir.

Tarixçilər yazırlar ki, ki, Heydər Əliyevin ölkəmizə birinci dəfə rəhbərlik etdiyi illərdə respublikamızda 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Bundan başqa, o böyük dövlət xadimi keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər azərbaycanlı gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

Təbii ki, bu qəbildən olan misalların sayı olduqca çoxdur. Ancaq Ümummilli liderin ölkəmizdə siyasi rəhbərliyə qayıdışından sonra da bu sahəni diqqət mərkəzində saxladığını xatırlatmaq zərurəti var. Yeri gəlmişkən, Prezident İlham Əliyev noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında bu məsələyə xüsusilə toxunmuşdur: "Müstəqilliyin ilk illəri çox ağır idi, faciəvi idi. O vaxt məhz Heydər Əliyevin qətiyyəti, iradəsi, xalqa olan bağlılığı bizi böyük bəlalardan qurtara bilmişdir. O da çox böyük göstəricidir ki, onun hakimiyyətə qayıdışından sonra Azərbaycan ziyalıları ilə, Azərbaycan ictimaiyyəti ilə ilk görüşü məhz 1993-cü ildə Milli Elmlər Akademiyasında olmuşdur. Beləliklə, o, bir daha müstəqil Azərbaycanın, yəni yeniləşən Azərbaycanın prioritetlərini açıq şəkildə bəyan etmişdir. Düzdür, o vaxt bizim maliyyə imkanlarımız çox məhdud idi, demək olar ki, yox idi, xəzinə boş idi. Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə idi. Bir milyondan çox qaçqın və məcburi köçkün, torpaqlarımızın işğal altına düşməsi və çox böyük iqtisadi, maliyyə çətinlikləri. Amma buna baxmayaraq, yenə də Akademiyanın işinə, Akademiyanın qorunmasına, alimlərin fəaliyyəti üçün vəsait ayrılırdı".

Ulu öndərin özü isə 1993-cü ilin sentyabrında akademiyadakı görüşdə demişdi: "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Nəyin bahasına olursa-olsun, son qoyacağıq. Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945-ci ildə bu akademiyanı yaradan adamlar, Azərbaycanın böyük alimləri çox böyük şücaət göstərmişlər. Ötən dövrdə bu akademiyanın çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir. Akademiyanın fəaliyyətini tənqid etmək də olar, naqis cəhətlər də var. Ancaq ümumən götürüldükdə, şübhəsiz ki, elmin keçdiyi inkişaf yoluna yüksək qiymət verməli, onu əldə saxlamalı, itirməməliyik. Dağıtmaq asandır, qurmaq, yaratmaq çətindir. 1945-ci ildə Elmlər Akademiyasını yaratmaq, sonra isə onu inkişaf etdirmək, yeni-yeni institutlar təşkil etmək asan iş idimi? Əlbəttə, yox".

O zaman Dövlət Radiosunun Xəbərlər baş redaksiyası üçün rəsmi, siyasi materialları mən hazırlayırdım. Ulu öndərin akademiyadakı çıxışını canlı olaraq, zalda dinləyənlərdən biri də mən idim. Sonralar o böyük dövlət xadiminin alimləri əmin etmək üçün dediyi: "Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycanın elmi inkişaf etməlidir. Universitetlər, ali məktəblər də inkişaf etməlidir" – cümlələrindən müxtəlif yazılarda istifadə etmişdim. Həmin tədbir haqqında söz açarkən xüsusilə qabardılmalı başqa bir məqam isə Ulu öndərin həm akademiyanın, həm də, ümumilkidə, elm ictimaiyyətinin nüfuzunun qorunması barədə çağırışları idi: "Əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə, ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər. Biz isə bu sahəyə hər cür kömək edəcəyik və mədəniyyətimiz, elmimiz, təhsilimiz, o cümlədən ali təhsilimiz, sosial sahənin bütün başqa istiqamətləri inkişaf edəcəkdir".

Ekspertlərin fikrincə, müasir dünya gerçəkliklərinə yaxından bələd olan, texnika və texnologiyanı mənimsəyən kadrlar yetişdirmədən, eləcə də ölkədə həyata keçirilən islahatları elmi baxımdan əsaslandırmadan arzu edilən iqtisadi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyası ölkənin texniki-texnoloji, eləcə də sosial-iqtisadi inkişafının avanqardına çevrilməlidir. Məhz bu reallığı nəzərə alan ulu öndər Heydər Əliyevin "Milli Elmlər Akademiyası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir" fikri də akademiyanın potensialının və texniki bazasının gücləndirilməsinə, ölkədə fundamental elmi tədqiqatların aparılmasına yönəlmişdir.

Onu da yada salaq ki, Heydər Əliyev AMEA-da çalışan müxtəlif ixtisaslı alimlərin birgə proqramlar üzərində qarşılıqlı əməkdaşlıq şəraitində işləməsinin vacibliyini vurğulayır, ölkənin hərtərəfli inkişafını təmin etməyə qadir olan kompleks inkişaf proqramları işləyib hazırlaması olduqca vacib şərt hesab edirdi.

Elə cənab Prezident İlham Əliyevin də alimlər qarşısında vacib şərt kimi irəli sürdüyü məqamlar var. Ona görə də bu sətirləri dövlət başçımızın noyabrın 3-də AMEA-da söylədiyi fikirlərlə tamamlayırıq:

"Azərbaycan tamamilə yeni vəziyyətdə yaşayır və əlbəttə ki, öz addımlarımızı dəyişən dünyada gedən proseslərə həm uyğunlaşdırmalıyıq, həm də ki, bir çox təşəbbüslər irəli sürməliyik... Ona görə bugünkü inkişafla bağlı, inkişafın gələcək istiqamətləri ilə bağlı əlbəttə ki, prioritetlər əvvəlki dövrdən fərqlənir. Bu gün sirr deyil ki, hər bir ölkənin inkişafını, eyni zamanda, təhlükəsizliyini o ölkənin texnoloji imkanları şərtləndirir. Bu gün biz bunu iqtisadi inkişafda görürük, yeni texnologiyaların tətbiqində görürük, yeni müharibələrdə görürük. Ona görə texnoloji inkişaf bizim üçün əsas prioritet olmalıdır və əlbəttə, burada Azərbaycan alimlərinin üzərinə böyük vəzifə düşür. Təbii ki, Azərbaycan dövlətinin üzərinə böyük vəzifə düşür ki, biz bu texnoloji inkişafı bütün sahələrdə tətbiq edək və beləliklə, bizim inkişafımız dayanıqlı olsun".

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

## Konstitusiya Məhkəməsinin heyəti Madrid Konqresində

**Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti "Gələcək nəsillərin insan hüquqları" mövzusunda keçirilmiş VI Konqresdə iştirak etmək üçün İspaniyanın Madrid şəhərində səfərdə olub.**



Tədbirdən əvvəl Azərbaycan Konstitusiya Məhkəməsinin də daxil olduğu Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı Təşkilatının Bürosuna daxil olan bir sıra qrupların iclasları keçirilib.

Konqres çərçivəsində "Təbii ehtiyatların və ətraf mühitin qorunması", "Bəşəriyyətin mədəni irsinin qorunması", "Elmi biliklərə və yeni texnologiyalara əlçatanlıq", "Konstitusiya məhkəmələrinin müstəqilliyi" adlı sessiyalar olub.

Sonra konqresdə səsləndirilən məruzələr üzrə müzakirələr və geniş fikir mübadiləsi aparılıb, yekun iclasda məruzəçilərin milli hesabatları dinlənilib və Madrid Kommünikesi qəbul edilib. Sənəddə sağlam ətraf mühitdə yaşamaq hüququnun mühüm insan hüquqlarından biri olduğu qeyd olunub.

Səfər zamanı Azərbaycan nümayəndə heyəti bir sıra ölkələrin Konstitusiya məhkəmələrinin sədr və hakimləri ilə işgüzar görüşlər keçirib və hüquq məsələlərini müzakirə ediblər.

Qeyd edək ki, Azərbaycan Konstitusiya Məhkəməsi 2009-cu ildən fəaliyyət göstərən Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı Təşkilatına 2011-ci ildən tamhüquqlu üzv seçilib.

*XQ*

## BMT-nin II Dünya Sosial Sammiti

**Qətərin paytaxtı Doha şəhərində BMT-nin İkinci Dünya Sosial Sammiti öz işinə başlayıb. 8 mindən çox iştirakçının qatıldığı sammitdə Azərbaycan Prezidentinin tapşırığı ilə ölkəmizi Baş nazirin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.**




2030 Dayanıqlı İnkişaf Gündəliyinin reallaşdırılmasına, xüsusilə də sosial inkişaf gündəliyinin təşviqinə həsr olunan sammitin ilk günündə "Doha Siyasi Bəyannaməsi" qəbul edilib.

Baş nazirin müavini S.Şərifov Dünya Sosial Sammitinin plenar iclasında çıxış edib. Çıxışda o, Azərbaycanda Kopenhagen Bəyannaməsi üzrə sosial sahədə nəzərdə tutulan öhdəliklərin icrası barədə məlumat verib, sosial inkişaf məsələləri üzrə beynəlxalq əməkdaşlığa yaxından qoşulduğunu, bir çox inkişafda olan ölkələrə təhsil, səhiyyə və humanitar sahədə yardım göstərdiyini bildirib. O, həmçinin bu ölkələrlə sosial və dövlət xidmətlərinin xüsusi yaradılmış mərkəzlər vasitəsilə əhaliyə effektiv göstərilməsində Azərbaycanın uğurlu təcrübəsini bölüşdüyünü, bu istiqamətdə əməkdaşlığın genişləndirilməsinə və həmin ölkələrə yardım göstərilməsini davam etdirməyə hazır olduğunu bəyan edib.

Sonda S.Şərifov Azərbaycanın yenicə qəbul edilmiş Doha Siyasi Bəyannaməsinin və cari ilin iyulunda qəbul edilmiş İnkişaf üçün Maliyyələşdirmə üzrə Sevilya Bəyannaməsindən irəli gələn öhdəliklərin beynəlxalq əməkdaşlıq çərçivəsində icra edilməsinə Azərbaycanın sadiqliyini, ona müvafiq dəstəyin göstərilməsini davam edəcəyini bir daha təsdiqləyib.

Azərbaycan nümayəndə heyəti sammit çərçivəsində keçirilmiş "Aclıq və Yoxsulluğa qarşı Qlobal Alyansı"nın birinci iclasında, "Sosial inkişafın üç sütununun gücləndirilməsi: yoxsulluğun aradan qaldırılması, tam və məhsuldar məşğulluq və hamı üçün layiqli əmək və sosial inteqrasiya" mövzusunda təşkil olunan dəyirmi masada, eləcə də bir sıra ikitərəfli görüşlərdə iştirak edib.

İkinci Dünya Sosial Sammiti noyabrın 6-dək davam edəcək.

*XQ*

## Media təmsilçilərimizin Rumıniya görüşləri



**Rumıniyada səfərdə olan Azərbaycan nümayəndə heyəti noyabrın 4-də Buxarestdəki Tey parkında ulu öndər Heydər Əliyevin büstünü ziyarət edib.**

Qeyd edək ki, Azərbaycan nümayəndə heyətinə Audiovizual Şurasının sədri İsmət Səttarov, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev və Azərbaycanın Rumıniyadakı səfiri Qüdsi Osmanov daxildir.

Xatırladaq ki, Zəfər Günü münasibətilə noyabrın 4-də Buxarestdə Azərbaycanın Rumıniyadakı səfirliyinin təşkilatçılığı ilə rəsmi qəbul keçiriləcək.

*

**Rumıniyaya səfəri çərçivəsində Azərbaycanın nümayəndə heyəti noyabrın 4-də bu ölkənin parlamentinin Deputatlar Palatasında mədəniyyət, incəsənət və media orqanları üzrə komissiyanın sədri Corc Mihail Neamtsu ilə görüşüb.**

Görüşdə iki ölkə arasında mədəni, humanitar və media sahələrində əməkdaşlığın genişləndirilməsi, eləcə də ictimai diplomatiya, ailə dəyərlərinin qorunması və informasiya təhlükəsizliyi istiqamətlərində birgə təşəbbüslərin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Komissiyanın sədri Corc Mihail Neamtsu çıxışında Rumıniya ilə Azərbaycan arasında mədəniyyət və informasiya sahələrində əməkdaşlığın əhəmiyyətini vurğulayıb. O, Azərbaycanla bu istiqamətdə təcrübə və fikir mübadiləsinin hər iki xalqın mədəni əlaqələrinin inkişafına töhfə verəcəyini qeyd edib.

Audiovizual Şuranın sədri İsmət Səttarov deyib ki, audiovizual sahədə əməkdaşlıq xalqlar arasında mədəni, mənəvi və ailə dəyərlərinin təbliği üçün mühüm vasitədir. O vurğulayıb ki, Azərbaycan və Rumıniya bu istiqamətdə televiziya və radio layihələri, sənədli filmlər və maarifləndirici proqramlar vasitəsilə qarşılıqlı əlaqələri daha da dərinləşdirə bilər. Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov media və kommunikasiya sahəsində innovativ inkişaf, yaradıcı sənayelərin gücləndirilməsi və ailə dəyərlərinin cəmiyyətdə təşviqi istiqamətlərində həyata keçirilən islahatlardan danışıb.

Ə.İsmayılov vurğulayıb ki, rəqəmsal media dövründə informasiya təhlükəsizliyi və dezinformasiyaya qarşı mübarizə həm milli, həm də beynəlxalq səviyyədə prioritet istiqamətlərdəndir.

Rumıniya parlamentinin Deputatlar Palatasının Sui-istifadələrin, korrupsiyanın və müraciətlərin araşdırılması üzrə komitəsinin sədri Laura Gerasim rəqəmsal mühitdə qanunsuz fəaliyyətlərin, fırıldaqların, kibercinayətlərin və etik pozuntuların qarşısını almaq istiqamətində ölkəsində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Daha sonra çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev Azərbaycan mediasının beynəlxalq müstəvidə artan nüfuzundan danışıb.

Tərəflər iki ölkənin media və mədəniyyət qurumları arasında birgə mədəni layihələrin, televiziya proqramlarının və ailə dəyərlərinin təbliği istiqamətində sənədli filmlərin hazırlanması, həmçinin Azərbaycan mədəniyyətinin və ailə dəyərlərinin Rumıniyada tanıdılması barədə razılığa gəliblər.

*XQ*

## Dini konfessiyaların Zəfər Günü ilə bağlı bəyanatı



**Noyabrın 4-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təşəbbüsü ilə Zəfər Gününün 5-ci ildönümünə həsr olunmuş məclisdə Azərbaycandakı dini konfessiyaların bəyanatı qəbul edilib.**

Azərbaycandakı Dini Konfessiyaların Məşvərət Şurasının sədri, Şeyxülislam Allahşükür Paşazadənin, Dağ yəhudiləri icmasının rəhbəri Milix Yevdayevin, Rus Pravoslav Kilsəsinin yepiskopu Aleksiyin, Roma Katolik Kilsəsinin yepiskopu Vladimir Feketenin, Avropa yəhudiləri icmasının rəhbəri Aleksandr Şarovskinin, Alban-udi xristian dini icmasının sədri Robert Mobilinin imzaladıqları sənəddə bildirilir:

"Biz Azərbaycandakı dini konfessiyaların rəhbərləri Azərbaycan xalqının yaddaşına, dövlətçilik tarixinə qızıl hərflərlə həkk olunan möhtəşəm gün - Vətən müharibəsində Zəfərin beşinci ildönümü ərəfəsində dünya ictimaiyyətinə müraciət etməkdən şərəf duyuruq. Azərbaycan dövləti müdrik siyasi idarəçilik, liderinin qətiyyəti, Ali Baş Komandanın yenilməz sərkərdəliyi, qəhrəman zabit və əsgərlərdən ibarət şanlı Ordusunun rəşadəti sayəsində bu uğura imza ata, beynəlxalq hüququn ona verdiyi haqqı öz qüvvəsi hesabına reallaşdıra bildi".

Din xadimləri bildirirlər ki, işğal olunmuş Azərbaycan torpaqlarında erməni vandalizminin acı nəticələrinin aradan qaldırılması istiqamətində dövlətin həyata keçirdiyi genişmiqyaslı quruculuq işləri, Allah evlərinin, məbəd və ibadət məkanlarının bərpası, məhv edilmiş mədəni-mənəvi irs abidələrimizin yenidən inşası onları hədsiz sevindirir.

Bəyanatının sonunda deyilir: "Biz, Azərbaycan dindarları Uca Yaradanın lütfü, dövlət başçımızın rəhbərliyi ilə gələcəyimizə ümidlə baxır, Azərbaycan Prezidentinin ölkəmizdə və bölgədə davamlı sülh, əmin-amanlıq və tərəqqini təmin edən müdrik siyasi dəst-xəttini hər zaman dəstəkləyir, Uca Yaradandan xeyir-dualar diləyirik".

*XQ*

## Azərbaycan Mədəniyyət mərkəzlərinin Antalya hesabatı

**Türkiyənin Antalya şəhərində təşkil olunan Azərbaycan Mədəniyyət Elçilərinin I Forumu çərçivəsində Azərbaycan Mədəniyyət mərkəzlərinin hesabat iclası keçirilib. İclasda Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, nazir müavinləri, eləcə də xaricdə fəaliyyət göstərən ölkəmizin mədəniyyət mərkəzlərinin nümayəndələri iştirak ediblər.**



İclasda mədəniyyət mərkəzlərinin son 6 ay ərzində həyata keçirdiyi layihələr, Azərbaycan mədəniyyətinin xaricdə təbliği istiqamətində görülən işlər, əldə olunan nəticələr və qarşıdakı dövr üçün nəzərdə tutulan fəaliyyət planları ətrafında geniş müzakirələr aparılıb.



İştirakçılar müxtəlif ölkələrdə mədəniyyətin təbliği sahəsində qarşılaşdıqları təcrübə və çətinlikləri bölüşərək, gələcək fəaliyyətin keyfiyyətinin artırılmasına yönəlmiş təkliflər səsləndiriblər.

Görüşün əsas məqsədi Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə tanıdılması prosesinə yeni nəfəs gətirmək və bu istiqamətdə fəaliyyət göstərən qurumlar arasında əlaqələrin daha da möhkəmləndirilməsidir.

Qeyd edək ki, Forum Azərbaycanın Mədəniyyət Nazirliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı, həmçinin Azərbaycanın Türkiyədəki Mədəniyyət Mərkəzinin dəstəyi ilə həyata keçirilir.

*XQ*

## Baş prokurorun Abşeron rayonunda vətəndaş qəbulu



**Noyabrın 4-də Baş prokuror Kamran Əliyev Abşeron Rayon Prokurorluğunun inzibati binasında Abşeron, Zəngilan rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 37 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşları ilə görüşüb, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkili ilə bağlı onlara tapşırıqlar verib.

*XQ*

## Qaçqınkomda müraciətlər dinlənilib

**Noyabrın 4-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşlarla görüşüb.**



Vətəndaşların müraciətləri əsasən işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış, köçürülmənin prinsipləri, sorğularda iştirak, məşğulluq, müvəqqəti məskunlaşma yerlərində mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət və digər sosial məsələlərə dair olub.

Görüşdə vətəndaşların müraciətləri dinlənilib və qaldırılan məsələlər müvafiq qaydada araşdırılacağı, qanunvericiliyə uyğun həll ediləcəyi diqqətə çatdırılıb.

*XQ*

# Ermənistan siyasi seçim qarşısında

## *2026-cı il parlament seçkiləri Paşinyanın üçüncü sınağı olacaq*

**Ermənistanın Baş naziri Nikol Paşinyan 2026-cı ildə keçiriləcək parlament seçkilərində iştirak etmək niyyətində olduğunu bildirib. Paşinyan bu barədə sosial şəbəkə hesablarında paylaşım edib.**




Qeyd edək ki, Ermənistanda parlament seçkiləri gələn il iyunun 7-nə təyin olunub. Hakimiyyət düşərgəsini təmsil edən şəxslər növbədənkənar seçkilərin istisna edildiyini bir neçə dəfə bildiriblər. İndiyədək seçkilərdə iştirak etmək niyyətini, həmçinin ölkənin ikinci prezidenti Robert Koçaryan, eləcə də insan hüquqları üzrə keçmiş müvəkkil (ombudsman) Arman Tatoyan, həmçinin həbsdəki oliqarx Samvel Karapetyan da bəyan edib. Maraqlıdır ki, parlamentin sədri Alen Simonyan da gələnilki seçkilərdə iştirak etmək üçün namizədliyini irəli sürüb. O, hakim "Mülki müqavilə" partiyasından namizədliyinin irəli sürüləcəyini bildirib.

Bəs N.Paşinyanın yenidən seçilmək şansları nə qədərdir? Onun zəif və güclü tərəfləri hansılardır? Gələn il hakimiyyəti əlində saxlaya biləcəkmi? Bütövlükdə, "Mülki müqavilə"nin siyasi perspektivi necədir?

İrəvanda fəaliyyət göstərən və Ermənistandakı prosesləri tədqiq edən siyasi ekspertlər bu fikirdədirlər ki, Paşinyanın 2026-cı il seçkilərində iştirak etmək niyyətini açıqlaması ölkə daxilində yeni siyasi dinamikanın başlandığını göstərir. 2018-ci ilin may ayından hakimiyyətdə olan Paşinyan artıq iki seçki prosesindən qalib çıxıb. Söhbət 2018-ci il dekabrın 9-da və 2021-ci il iyunun 20-də keçirilən növbədənkənar parlament seçkilərindən gedir. Onun xüsusilə 2021-ci ildə - İkinci Qarabağ müharibəsindən sonrakı seçkilərdə elektoratın dəstəyini qoruyub saxlamağı bacarması, ardıcıl təzyiqlərə baxmayaraq, hakimiyyətini möhkəmləndirməsi diqqət çəkmişdi. Başqa sözlə desək, Paşinyan və onun partiyası 2021-ci ildə yeni xarici və daxili siyasət həyata keçirmək üçün mandat almışdı. O vaxtdan bəri Nikol dinc inkişaf və köhnə münaqişələrdən asılılığın azaldılması istiqamətində kurs elan etmişdi. Məsələn, o, qarşıdan gələn parlament seçkilərinin əsas sualının Ermənistan xalqının sülh istəyini yenidən təsdiqləyib-təsdiqləməməsi olduğunu vurğulayıb.

Lakin 2026-cı il seçkiləri həm regional, həm də daxili siyasi kontekstə görə fərqli sınaq olacaq. Çünki Paşinyanın rəhbərlik etdiyi "Mülki müqavilə" partiyası son illərdə bir sıra sosial-iqtisadi problemlərlə, təhlükəsizlik çağırışları ilə üz-üzə qalıb. 2023-cü ilin payızındakı antiterror əməliyyatı, orada yaşayan erməni əhalinin Ermənistana köçüb getməsi, sərhəd məsələlərinin həllindəki çətinliklər ictimai etimadın azalmasına səbəb olub. Hakimiyyətin siyasi və diplomatik addımlarının bəzən nəticəsiz qalması Paşinyanın mövqelərinə mənfi təsir göstərir. Hakim partiya və baş nazir eyni zamanda reytinqlərinin əhəmiyyətli dərəcədə azalması və artan ictimai etimadsızlıqla üzləşirlər. Son araşdırmalardan birində respondentlərin təxminən 17 faizi seçkilər növbəti bazar günü keçirilərsə, Paşinyana və ya onun partiyasına səs verəcəklərini bildirib. Bu il martın 30-da yerli özünüidarəetmə orqanlarına keçirilən seçkilərdə Gümrü və Parakarda hakim partiyanın məğlubiyyəti də diqqətdən yayınmamalıdır.

Sosial sahədə də narazılıqlar artır. Əhalinin gəlir səviyyəsinin aşağı olması, qiymət artımları, korrupsiya ilə mübarizənin zəifləməsi barədə ictimai tənqidlər hakim partiyanın reytinqinə mənfi təsir edən amillərdəndir. Əlavə olaraq, kilsə ilə münasibətlərdə yaranmış gərginlik, xüsusilə bütün ermənilərin katolikosu II Qareginlə bağlı hadisələr, hökumətin cəmiyyətin ənənəvi təbəqələri ilə əlaqələrində soyuqluq yaradıb.

***

Qeyd etdiyimiz kimi, Paşinyan seçkilərin bir sınaq olduğu fikrini fəal şəkildə təbliğ edir. "Ermənistan xalqının sülh, yoxsa münaqişəyə qayıtmaq istəyi" fikri "Mülki müqavilə" üçün vacib seçki arqumentinə çevrilir. Sonuncu fikir "dəyişiklik generatoru" kimi qəbul edilir. Paşinyanın Qərblə, xüsusilə Avropa İttifaqı və ABŞ-la münasibətləri dərinləşdirməyə yönəlik siyasəti bir qrup seçici üçün müsbət siqnal sayılır. Bu kurs Ermənistanı Rusiya asılılığından qismən uzaqlaşdırmaq, təhlükəsizlik və iqtisadi əlaqələri diversifikasiya etmək məqsədi daşıyır. Əgər bu istiqamətdə konkret nəticələr əldə olunarsa, "Mülki müqavilə" partiyası seçkilərdə ciddi üstünlük qazana bilər.

Sirr deyil ki, Nikolun əsas məqsədi seçicilərə sabitlik və islahatların davamlılığını vəd etmək olacaq. Onun bir neçə gün öncə verdiyi bəyanat da bunun göstəricisidir. Paşinyan deyib: "Biz müharibəni yox, sülhü seçdik. Biz nifrəti yox, inkişafı seçdik. 2026-cı ildə xalq yenidən kiminlə gələcəyə getmək istədiyini göstərəcək. 2026-cı il seçkiləri Azərbaycanla münasibətlər də daxil olmaqla, yeni sülhsevər kursun təsdiqlənməsi anıdır".

Bununla yanaşı, "Mülki müqavilə" üçün əsas risklərdən biri seçici fəallığının aşağı olmasıdır. 2021-ci ildən fərqli olaraq, cəmiyyətin böyük hissəsində siyasi apatiya müşahidə olunur. Əgər seçici fəallığı 50 faizdən aşağı düşərsə, müxalifətin konsolidasiya cəhdləri daha real nəticə verə bilər.

Seçkilərdə iştirak edəcəyini açıqlayan digər şəxslər – ikinci prezident R.Koçaryan, keçmiş ombudsman A.Tatoyan və iş adamı S.Karapetyanın prosesdə iştirakı siyasi mübarizəni daha gərgin edəcək. Koçaryan ənənəvi revanşist elektorata söykənir və Rusiyayönlü dairələrin dəstəyinə arxalanır. Tatoyan isə sosial ədalət və insan hüquqları mövzusunda daha yumşaq, lakin cəlbedici mesajlar verir. Onun "nə Şərq, nə Qərb" tipli balanslı yanaşması, Paşinyan və Koçaryan kimi qütbləşmiş fiqurlar arasında alternativ kimi görünür. Bununla belə, Tatoyanın da radikal revanşist ruhlu olduğu diqqətdən yayınmamalıdır.

Oliqarx S.Karapetyanın siyasi arenaya qədəm qoyması isə maliyyə və iqtisadi resursların rolu baxımından diqqətəlayiqdir. O, iqtisadi stabillik və sərmayə mühiti ilə bağlı vədləri önə çəkə bilər. Lakin onun hazırda həbsdə olması bu cəhdlərin effektini məhdudlaşdırır. Bu gün köhnə Ermənistan elitasının və müxalifətin bir çoxu köhnəlmiş və ya klan kimi qəbul edilir. Bəzi ekspertlər hesab edirlər ki, gənclər və laqeyd seçki qrupları Paşinyanı yeni qüvvə kimi dəstəkləyə bilərlər.

Parlament sədri A.Simonyanın da namizədliyini irəli sürməsi hakim komandanın daxilində müəyyən rəqabətin yaranmasına işarədir. Bu, Paşinyanın partiya daxilində liderlik mövqeyini qorumaq üçün əlavə siyasi səylər göstərməsinə səbəb ola bilər.

Bütövlükdə, 2026-cı il seçkiləri Ermənistan üçün strateji istiqamətin dəyişdiricisi ola bilər. Paşinyan qalib gələcəyi təqdirdə Qərbə inteqrasiya xəttinin legitimliyi möhkəmləndiriləcək. Koçaryan və ya digər müxalif qüvvələrin hakimiyyətə gəlməsi Rusiya ilə münasibətlərin yenidən istiləşməsinə, eyni zamanda, daxili sabitliyin dəyişməsinə gətirib çıxara bilər. Paşinyanın seçilmə şansı hazırda 50/50 səviyyəsində qiymətləndirilir. Onun uğuru seçkiöncəsi dönəmdə sosial-iqtisadi mühitin yaxşılaşması və təhlükəsizlik məsələlərinin nə dərəcədə idarə olunacağından asılı olacaq. Əgər o, regionda balanslı siyasət yürüdə, sərhəd danışıqlarında müəyyən irəliləyiş əldə edə bilsə, "Mülki müqavilə" yenidən hakimiyyətini qoruyub saxlaya bilər. Paşinyanın 2026-cı il seçkilərində iştirakı Ermənistan siyasətində yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilə bilər. Onun qarşısında həm daxili sosial problemlər, həm də xarici siyasətdəki balans çağırışları dayanır. Bununla belə, Paşinyanın hələ də ciddi seçici bazasına sahib olması və siyasi təcrübəsi onu rəqiblərindən fərqləndirir. Seçkilərin nəticəsi, əslində, Ermənistan cəmiyyətinin hansı istiqaməti – Qərbyönlü yenilənməni, yoxsa keçmiş sistemin bərpasını seçəcəyini göstərəcək.

***Səxavət HƏMİD***
***XQ***

# Sülh mövzusu qeyri-dəqiqliyi sevmir

## *Paşinyan bir yandan "uğur hekayəsi"ndən danışır, o biri yandan ikibaşlı bəyanat verir*



**Ermənistanın Baş naziri Nikol Paşinyanın "Orbeli - 2025" beynəlxalq forumdakı çıxışı həm daxili auditoriyaya, həm də xaricə ünvanlanmış çox vacib mesajlarla zəngin oldu. Yəqin indi erməni mediası baş nazirin bəyan etdiyi mesajları geniş tirajlamaqla və onları şərh etməklə məşğuldur.**

Paşinyanın çıxışında toxunduğu və bizim üçün əhəmiyyət kəsb edən əsas məsələ ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə qayıdışı xülyasından əl çəkməyən daşnak-revanşistlərə cavab olaraq dedikləri idi. "Bacı və qardaşlarının qayıdış gündəliyinin" Ermənistanla Azərbaycan arasında əldə edilmiş sülhə təhlükə yarada biləcəyindən söz açan baş nazirin fikrincə, ermənilərin Qarabağa qayıtması "sülh üçün risk" olardı: "Bu məsələ ümumiyyətlə təhlükəlidir, çünki bu, münaqişənin ilkin stadiyasına, parametrlərinə qayıtmaq deməkdir". Məsələyə praqmatik yanaşma sərgiləyən Paşinyan sülhü yeni doğulmuş uşağa bənzədib və onun qayğıya ehtiyacı olduğunu vurğulayıb: "Biz sülh müqaviləsi imzalamalı, sərhədi delimitasiya etməli, bir-birimizi rahat buraxmalıyıq".

Baş nazirin sülh ritorikasının daha da gücləndiyinin aşkar duyulduğu forumdakı çıxışı cəmiyyətə, daxildəki siyasi rəqiblərinə, xəstə zehniyyətli müxalifətə, eləcə də xaricdəki erməni diasporuna ünvanlanan ismarış sayılmalıdır. Paşinyan birmənalı şəkildə sülh yolundan dönüşün olmadığını onların nəzərinə çatdırmış oldu.

Siyasi baxımdan Ermənistanla Azərbaycan arasında münaqişənin artıq bitdiyini, amma sosial-psixoloji yöndən hələ də davam etdiyini bildirən Paşinyan onun sülhdən danışanda bunun çoxlarına qəribə gəldiyini, hətta yad göründüyünü anlayışla qarşıladığını deməkdən çəkinmədi: "Sülh Ermənistan və Azərbaycan üçün tanış olmayan anlayışdır və yeni mühitdir". Bunun ardınca baş nazir iki ölkə arasında 30 il davam edən münaqişəyə kifayət qədər maraqlı prizmadan yanaşaraq, fikirlərini bu cür formulə edib: "SSRİ dağılandan sonra məhz münaqişə hər iki ölkənin siyasi sistemlərinin, ictimai əhval-ruhiyyəsinin, milli kimliyinin formalaşdığı faktora çevrilib. Münaqişə bizim təfəkkürümüzü, siyasətimizi, xalqlar arasında münasibətləri müəyyənləşdirdi".

Bu həqiqəti qəbul edən Ermənistan baş nazirinin çıxışı dövləti və xalqı üçün çıxış yolunun yalnız sülhdən və qonşuları ilə əməkdaşlıqdan keçdiyini növbəti dəfə etiraf etməsinin təzahürüdür.

### Paşinyanın "uğur hekayəsi"

İrəvanda keçirilən "Orbeli - 2025" beynəlxalq forumdakı çıxışında iki ölkə arasında münasibətlərin tam normallaşması üçün müəyyən vaxt tələb olunacağını bildirib. Onun fikrincə, münaqişəyə siyasi müstəvidə son qoyulması heç də ictimai şüurun dərhal sülhə tərəf dəyişməsi demək deyil. Postmünaqişə mərhələsinə bu prizmadan yanaşmasında Paşinyana haqq qazandırmamaq mümkün deyil. Yeri gəlmişkən, bu məqamda qeyd edək ki, İrəvana səfər etmiş Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçilərinin Ermənistan rəsmiləri ilə görüşündə bu reallığın hər iki tərəfdən anlayışla qarşılanmasının normal sayıldığı da vurğulanmışdı.

Aydın məsələdir ki, iki xalq arasında uzun müddət davam edən düşmənçiliyin aradan qaldırılması üçün müəyyən vaxta, dialoq və qonşuluq münasibətlərinin dərk edilməsinə ehtiyac var. Çıxışında bu həssas məsələyə də toxunan Paşinyanın keçmişə tamamilə yeni düşüncə və təfəkkürlə yanaşmanın vacibliyiliyini nəzərdə tutduğu başadüşülən idi. Baş nazir daha sonra çıxışında tərəfləri sülhə daşıyacaq pozitiv yanaşma xəttini daha da inkişaf etdirərək qeyd edib ki, bu gün Ermənistanla Azərbaycan arasında uğur hekayələri mövcuddur.

Ermənistan baş nazirinin sözlərinə görə, bu uğur hekayələri 2024-cü ildə iki ölkə arasında sərhədin demarkasiyası prosesi ilə başlayıb: "Bu, Ermənistan və Azərbaycan arasında dövlətlərarası münasibətlərin qurulmasında dönüş nöqtəsi oldi. Çünki hər iki ölkə 1991-ci il Alma-Ata Bəyannaməsinin prinsipləri əsasında bir-birinin ərazi bütövlüyünü tanıyır". Ən böyük uğur hekayəsinin isə bu il avqustun 8-də Vaşinqtonda keçirilən və Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanması və dövlətlərarası münasibətlərin qurulması haqqında birgə Bəyannamənin qəbulu ilə yekunlaşan Sülh Sammiti olduğunu deməyi unutmayan Nikol Paşinyan çıxışında hazırda amerikalı tərəfdaşları ilə Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək dəmir yolunun tikintisini müzakirə etdiklərini bildirib.

Bundan sonra "niyə məhz ABŞ-la?" – deyə forum iştirakçılarına xitab edən baş nazir sualı belə cavablandırıb: "Çünki bu, TRIPP (Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu) layihəsinin tərkib hissəsi sayılır". ABŞ-ın tərəfdaş kimi iştirakının artıq bu layihənin nəinki həyata keçiriləcəyinə, həm də çağdaş tariximizdə ölkələrə gəlir, təhlükəsizlik və sabitlik gətirən ən uğurlu layihə olacağına təminat verdiyinə əminliyini bildirən Ermənistan hökumətinin başçısı bu marşrutun bölgədənkənar ölkələr – İran, Rusiya, Gürcüstan, ABŞ, Çin, Türkiyə, Mərkəzi Asiya, eləcə də Avropa İttifaqının üzvləri üçün böyük əhəmiyyət kəsb etdiyini forum iştirakçılarının nəzərə çatdırıb.

Paşinyan daha sonra iki ölkə arasında münasibətlərin normallaşmaya doğru getməsinə dəlalət edən faktı – Qazaxıstandan taxıl yüklənmiş qatarın tezliklə Azərbaycan və Gürcüstan üzərindən Ermənistana gələcəyini açıqlayıb. O, iki ölkə arasında kommunikasiyaların açılmasının reallıq olduğunu ifadə edib və buna görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib. Baş nazir, həmçinin onu da qeyd edib ki, regional kommunikasiyalar işə düşdükdən sonra Rusiya Azərbaycan dəmir yolları vasitəsilə Ermənistana yük daşımalarını həyata keçirə biləcək: "Hazırda Rusiyanın Azərbaycandan keçməklə Ermənistana dəmir yolu daşımalarını təmin edə bilməsi ilə bağlı müzakirələr gedir".

### Sual doğuran açıqlama

Aydın məsələdir ki, Nikol Paşinyan beynəlxalq formatlı forumdakı çıxışında Avropa İttifaqının (Aİ) Ermənistandakı mülki müşahidə missiyasının fəaliyyətinə də toxunmalı idi. Bu xüsusda verdiyi açıqlamada Paşinyan avropalı müşahidəçilərin Azərbaycanla sülh sazişi imzalanana qədər Ermənistanda qalacaqlarını bildirib. O, sözlərinə onu da əlavə edib ki, sülh sazişi imzalanandan sonra missiyanın formatında müəyyən dəyişikliklər baş verəcək: "Bu məsələ ilə bağlı Ermənistan hakimiyyəti avropalı həmkarları ilə daha predmetli müzakirələr aparacaq".

"Daha predmetli müzakirələrin" nədən ibarət olacağına toxunmayan Nikol Paşinyanın Aİ-nin Ermənistanın Azərbaycanla sərhədində patrulluq edən 200-dən çox "binokllu diplomatını" yola salmağa hazırlaşmadığı qənaətinə gəldiyini düşünmək məntiqli sayıla bilər. Baş nazirin buna qədər toxunduğu bütün aspektlərdə sülhə və əməkdaşlığa açıq mövqe sərgiləməsinə baxmayaraq, Aİ missiyasının aqibəti ilə bağlı məsələdə rəsmi Bakıda sual doğuran, ikibağlı ritorika seçməsi, ən azı, müəmmalı görünür. Onun Aİ-nin timsalında Qərbdən müəyyən umacaqlarının olduğu sirr deyil.

Amma bu gözləntilərini sülh gündəliyindən üstün tutulması, sonrakı mərhələdə avropalı missionerlərin yola salınmasını ləngidəcəyi təsəvvürü yaradan açıqlaması ciddi suallar doğurur. Ermənistanın Baş naziri Bakının sülhlə manipulyasiyaya imkan verməyəcəyini yaxşı anlamalı, bu məsələdə konkretlilik və dəqiqlik kimi meyarları unutmamalıdır.

Doğrudur, Paşinyanın "noyabr tezisləri" adlandırıla biləcək "Orbeli - 2025" beynəlxalq forumdakı çıxışını yeddi aydan sonra Ermənistanda keçiriləcək parlament seçkiləri öncəsi ilkin təbliğat kampaniyasının atributu kimi də qəbul etmək olar. Amma auditoriyanın, elektoratın gözündə dividend qazanmağa hesablanmış planları ona heç də sülhün "qırmızı xəttini" keçməsinə haqq vermir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Miqrant məsələsi yenə Rusiyada gündəmdədir

(əvvəli 1-ci səhifədə)

Rusiya ilə bir çox keçmiş sovet ölkələri arasında viza rejimi olmadığından Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin vətəndaşları bu ölkədə çoxluq təşkil edir. Azərbaycan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan vətəndaşları Rusiyaya sərbəst şəkildə səfər edə, müvəqqəti qeydiyyatla işləyə bilirlər. Rusiya Daxili İşlər Nazirliyinin məlumatına görə, 2025-ci ilin əvvəlində ölkədə təxminən 11 milyon xarici vətəndaş qeydə alınıb. Mühacirlərin əksəriyyəti əmək miqrantları, yəni işləmək məqsədilə müvəqqəti yaşayan şəxslərdir.

Məlum olduğu kimi, Rusiyada azərbaycanlılar çoxsaylı mühacir icmalarından biridir. Onlar xüsusilə ticarət, tikinti, logistika və xidmət sektorlarında çalışırlar. Bundan əlavə, Moskva, Sankt-Peterburq, Samara, Tümen, Yekaterinburq, Krasnoyarsk kimi şəhərlərdə azərbaycanlı icmaları mədəni və sosial baxımdan fəal həyat sürür. Lakin son dövrlər sərtləşən qaydalar və artan yoxlamalar onların gündəlik həyatına müəyyən çətinliklər gətirib. 2025-ci ilin əvvəllərindən etibarən Rusiyada mühacirlərlə bağlı bir sıra yeni qaydalar qüvvəyə minib. Bu qaydalar xarici vətəndaşların ölkə ərazisində qalma müddətini, qeydiyyat sistemini və iş icazələrinin verilməsini ciddi nəzarət altına alır. Fevral ayında qəbul edilən qanuna əsasən, artıq qeydiyyatsız yaşayan və ya sənədlərinin müddəti bitən mühacirlər məhkəmə qərarı olmadan ölkədən çıxarıla bilər. Yeni qaydalara görə, Rusiya ərazisində bir il ərzində qalma müddəti maksimum 90 günlə məhdudlaşdırılıb.

Avqust ayında yayılan xəbərlərdə Rusiyadakı miqrantlar üçün rüsumların artacağı deyilirdi. Rusiya Federasiyası İctimai Palatasının qanun layihələrinin ictimai ekspertizası komissiyasının üzvü Yevgeni Maşarov bildirmişdi ki, miqrantların əlavə qeydiyyatı üzrə




eksperimentin iştirakçıları istisna olmaqla, mövcud pulsuz prosedur əvəzinə əcnəbi vətəndaşın və ya vətəndaşlığı olmayan şəxsin olduğu yerdə qeydiyyata alınması üçün 500 rubl tutulacaq (100 rubl–2.0988 AZN). Rusiya Federasiyasında müvəqqəti qalma müddətinin uzadılması, vizanın etibarlılıq müddəti ilə əlaqəli deyilsə, min rubla başa gələcək. İş icazəsinin uzadılması və ya patentin verilməsi indi 4200 rubla başa gələcək. Xarici işçilərin işə götürülməsi və istifadəsi üçün dublikat icazələrin verilməsi və ya onlara dəyişiklik edilməsi üçün 2100 rubl məbləğində rüsum müəyyən edilib. Yaşayış yerində qeydiyyat qiyməti indiki 420-yə qarşı min rubla qədər artacaq.

Başqa bir məsələ Rusiyanın mühacirlərdən siyasi alət kimi istifadə etməsidir. Yəni rəsmi Moskvanın hansı ölkə ilə münasibətlərində soyuqluq yaranırsa, dərhal bu rıçağı işə salır. Elə ötən aylarda Rusiya-Azərbaycan münasibətlərinin gərginləşməsi fonunda bunun şahidi olduq. Bir neçə azərbaycanlının müəyyən ittihamlarla evlərinə basqınlar edildi, ikisi döyülərək öldürüldü. Yekaterinburq şəhərində Rusiya polisinin xüsusi təyinatlı dəstəsinin törətdiyi əməl ağır cinayət faktı idi. Heç bir günahı olmayan azərbaycanlılar polis tərəfindən vəhşicəsinə qətlə yetirildi. Qeyd edək ki, Rusiya Federasiyası beynəlxalq miqrasiya qanunvericiliyinə əsasən, miqrantların hüquqlarını qorumağı öhdəsinə götürüb. Lakin real vəziyyət bu prinsiplərin əksinədir. Miqrantlara qarşı zorakılıq və ayrı-seçkilik hallarının artması, saxlanılan şəxslərin işgəncələrə məruz qalması, onların hüquqlarının təmin olunmaması BMT konvensiyalarına, eləcə də MDB çərçivəsində qəbul edilmiş öhdəliklərə uyğun gəlmir.

Rusiyadakı miqrantlar bəzən yerli əhali tərəfindən milli mənsubiyyətinə görə təhqir edilir. Bir müddət öncə sosial şəbəkələrdə Mərkəzi Asiyadan olan miqrantın rusiyalı tərəfindən təhqir edilməsi videosu yayılmışdı. İnsanlar arasında bu cür münaqişələrin yaranmasında bəzi popilist siyasətçilərin rolu az deyil. Onlar vaxtaşırı "Rusiya ruslar üçündür" şüarı ilə yanğını körükləməyi xoşlayırlar. Belə politoloqların fikrincə, miqrantlar yerli rusların işsiz qalmasının əsas "səbəbkarlarıdır".

Sonda qeyd edək ki, iki ölkə arasında münasibətlərin yaxşılaşması Rusiyada yaşayan azərbaycanlıların vəziyyətinə də müsbət təsir edəcək.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*




**Yeganə HACIYEVA,**
**politoloq**

**Azərbaycan xoşməramlı qonşu, beynəlxalq münasibətlərdə sülh tərəfdarı kimi, heç bir ölkə ilə gərginlikdə maraqlı deyil. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycan heç vaxt müharibəni birinci başlayan tərəf olmayıb. İstər mediada, istər diplomatik platformalarda, istərsə də döyüş meydanında həmişə cavab verən tərəf olmuşuq, bu tip çağırışların təşəbbüskarı olmamışıq.**

Rusiya ilə münasibətlərə gəldikdə, qeyd etmək lazımdır ki, Azərbaycan tərəfi həmişə çalışıb ki, Rusiya ilə münasibətlər xoş və strateji xarakter daşısın. Digər tərəfdən, Rusiyada müəyyən lobbi qruplarının mövcudluğuna baxmayaraq, Moskva da anlayır ki, regionda öz maraqlarını qorumaq üçün Azərbaycanla əməkdaşlığı müsbət məcrada saxlamaq vacibdir. Mühacir məsələsinə gəlincə, qeyd etmək lazımdır ki, Rusiyada 1990-cı illərdən bəri formalaşan bir tendensiya var. Ölkə daxilində sosial və siyasi böhranlar yarananda, hakimiyyət diqqəti yayındırmaq üçün müxtəlif mövzulara əl atır və bunlardan biri də miqrantlardır. 1990-cı, 2000-ci illərdə və indi Rusiya cəmiyyətində baş verən proseslərdən diqqəti yayındırmaq, daxili auditoriyanı manipulyasiya etmək üçün miqrant kartından istifadə olunur. Hakimiyyət bəzən "vətənpərvərlik" və "millətçilik" ritorikasından ictimai rəy formalaşdırmaq vasitəsi kimi dövriyyəyə salır. Bu ritorika gündəmə gətirildikcə, miqrantlara qarşı təzyiqlər və neqativ münasibət paralel şəkildə artır. Halbuki belə yanaşma fundamental insan hüquq və azadlıqlarına açıq şəkildə ziddir. Rusiya özü Baltikyanı ölkələrdə rus icmalarına qarşı ayrı-seçkilik siyasətindən narazılıq ifadə edir, lakin eyni davranış modelini ölkə daxilində digər millətlərə, o cümlədən azərbaycanlı miqrantlara qarşı sərgiləyir.

Narahatedici məqam ondan ibarətdir ki, bu siyasət yalnız qeyri-qanuni miqrantlara deyil, çoxdan Rusiya vətəndaşlığı əldə etmiş şəxslərə də şamil olunur. Azərbaycan mənşəli vətəndaşlar belə hallarda teztez haqsız münasibətlə üzləşirlər. Bununla belə, Rusiya dövlətinin dayanıqlılığında mühüm rol oynayan qüvvələrdən biri məhz Azərbaycana bağlı olan şəxslər və onların rəhbərlik etdiyi diaspor təşkilatlarıdır. Onların fəaliyyəti təkcə mədəni körpü, iki ölkə arasında sosial və iqtisadi əlaqələrin sabitliyini deyil, həm də Rusiya daxilində sosial sabitliyi təmin edən amillərdən biridir. Məhz bu amilə görə Rusiya hakimiyyəti həm mühacir soydaşlarımızla, həm də artıq vətəndaşlıq almış azərbaycanlılarla münasibətləri konstruktiv və xoş məcrada saxlamaq məcburiyyətindədir. İnanırıq ki, yaxın gələcəkdə iki ölkə arasında münasibətlərin normallaşması prosesi bu istiqamətdə müsbət tendensiyanı daha da möhkəmləndirəcək, qarşılıqlı etimadı gücləndirəcək.

# Paşinyanın "xalqla təmas" siyasəti: sadəlik, yoxsa fəndgirlik?

(əvvəli 1-ci səhifədə)

Bu davranış Ermənistan cəmiyyətində ümumilikdə, müsbət qarşılanır. İnsanlar baş nazirin onlara yaxınlaşmasını, gündəlik qayğılarla maraqlanmasını səmimi addım kimi



dəyərləndirirlər. Hər dəfə bu cür səhnələr sosial şəbəkələrdə geniş paylaşılır, hökumət tərəfdarları tərəfindən "xalqla bir yerdə olan lider" obrazı kimi təqdim olunur.

Əvvəlki korrupsioner-oliqarxik hakimiyyətin tör-töküntüləri, indi özünü cəmiyyətə "qalib prezidentlər" kimi sırımağa çalışan Levon Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarkisyan, bütövlükdə, radikal revanşist düşərgə isə bu davranışa fərqli prizmadan baxır. Onlar Paşinyanın aktivliyini 2026-cı il iyunun 7-də keçiriləcək parlament seçkiləri ilə əlaqələndirir, bunun "gizli kampaniya" xarakteri daşıdığını iddia edirlər. Həmin çevrələrə görə, baş nazirin rayonlara səfərləri, küçə gəzintiləri, vətəndaşlarla şəkil çəkdirməsi və ya bazar günü kafedə oturub kofe içməsi, sadəcə, siyasi texnologiyadır. Ancaq obyektiv baxış göstərir ki, bu addımlar təkcə seçki ilə bağlı deyil. Son bir ildə Ermənistan cəmiyyətində sosial gərginliyin artması, iqtisadi problemlərin dərinləşməsi və Qarabağ hadisələrindən sonra yaranmış psixoloji gərginlik hökuməti ictimai münasibətləri yumşaltmaq zərurəti qarşısında qoyub. Paşinyanın son dönəmdəki davranışları da məhz bu psixoloji fonu idarə etməyə yönəlmiş kimi görünür.

Revanşist düşərgənin etirazları, əslində, daha dərin səbəblərlə bağlıdır. Onlar Paşinyanın xalqla birbaşa ünsiyyətinin artmasını öz siyasi təsir imkanlarının azalması kimi qəbul edirlər. Çünki Paşinyan küçələrdə, bazarlarda, avtobus dayanacaqlarında sadə insanlarla təmasda olduqca, cəmiyyətin diqqət mərkəzindəki əsas fiqura çevrilir. Bu mənzərə revanşistlər üçün xoş deyil. Onlar ictimai dəstəyin yenidən baş nazirin ətrafında formalaşmasından ehtiyat edirlər. Ona görə də sosial şəbəkələrdə və bəzi media platformalarında bu səfərləri "şou" kimi təqdim etməyə çalışırlar. Halbuki, erməni ictimai rəyi artıq bu tip arqumentlərə əvvəlki kimi həssas yanaşmır.

Qeyd etmək lazımdır ki, Ermənistanda hakimiyyətin ictimai dəstəyə ehtiyacı heç vaxt bu qədər aydın görünməmişdi. Paşinyan 2018-ci ilin mayında Qarabağ klanını siyasi səhnədən süpürüb ataraq, onları tarixin zibilliyinə göndərərək, başqa sözlə, xalqın etimadı yolu ilə hakimiyyətə gəlmişdi. Lakin sonrakı illərdə baş verən hadisələr – İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı, bu səbəbdən baş verən daxili siyasi gərginlik, iqtisadi durğunluq onun reytinqini müəyyən qədər azaldıb. İndi baş nazirin məqsədi həmin etimadı qismən bərpa etmək, ən azı, sosial narazılığın qarşısını almaqdır. Xalqla birbaşa təmas isə bu baxımdan mühüm vasitədir. Çünki Ermənistan kimi kiçik və emosional cəmiyyətdə liderin şəxsi davranışı, jestləri, insanlara yaxın görünməsi çox vaxt siyasi qərarların effektindən daha güclü təsir bağışlayır. Paşinyanın son aylarda nümayiş etdirdiyi bu davranış tərzi həm də simvolik siyasətin elementlərini daşıyır. Yəni burada məqsəd sadəcə fiziki təmas deyil, psixoloji inandırıcılıqdır. Sadə geyimdə küçəyə çıxan, velosiped sürən və ya avtobusda vətəndaşla söhbət edən baş nazir "bizim kimi" imicini formalaşdırmaqla dövlət-vətəndaş münasibətlərinə yeni ton gətirməyə çalışır. Belə yanaşma əvvəlki rejimlər dövründə Ermənistanda ya praktiki olaraq müşahidə olunmur, ya da nadir hallarda müşahidə olunurdu. Çünki hər üç keçmiş prezident çox zaman xalqla müəyyən məsafədə dayanmağa üstünlük verirdilər. Paşinyan isə əksinə, bu məsafəni qısaltmaqla özünü fərqli təqdim edir.

Maraqlıdır ki, Ermənistan cəmiyyətində də bu prosesə münasibət birmənalı deyil. Bəzi dairələr bunu populizm kimi qəbul etsələr də, əhalinin böyük hissəsi üçün bu, real siyasi təmas formasıdır. Məhz bu səbəbdən Paşinyanın sosial mediada yayımlanan video və fotoları minlərlə baxış toplayır, vətəndaşlar onun "adi insan" davranışını bəyənirlər. Hətta 2019-cu ildə Paşinyan bütün dünya üzrə "Facebook" sosial şəbəkəsindən ən çox istifadə edən liderlərin ilk onluğunda qərarlaşmışdı. Müharibədən sonra Paşinyanın sosial şəbəkədəki aktivliyi xeyli azalmışdı. İndi isə o yenidən sosial şəbəkələrdə, necə deyərlər, sürət toplayır. Bununla belə, qarşıdakı dövrdə bu tendensiyanın davamlı olub-olmayacağı çox şeyi müəyyən edəcək. Əgər Paşinyan bu təmasları sosial dialoqa, ictimai müzakirəyə çevirə bilsə, bu, onun üçün real siyasi dividendlər gətirə bilər. Əks halda, bu davranış sadəcə vizual jest olaraq yadda qalacaq...

Onu da qeyd edək ki, Ermənistan baş nazirinin Rusiya–Ukrayna müharibəsi başladıqdan sonra Parisə köçən məşhur rusiyalı rok ifaçısı Zemfiranın mahnısını dinləyərkən kədərlənməsi sosial şəbəkələrdə böyük rezonans doğurub. Bu epizod bir çoxları tərəfindən sadəcə emosional an kimi dəyərləndirilsə də, əslində, siyasi kontekstdə də diqqətçəkicidir. Çünki Paşinyanın ictimai obrazında rasional siyasətçi ilə duyğusal insanın sərhədləri bəzən bir-birinə qarışır. Zemfiranın mahnısının seçilməsi də təsadüfi görünmür. Rok musiqi adətən azadlıq, fərdiyyət və daxili təlatümlərin ifadəsidir. Paşinyanın bu melodiyaya köklənməsi, müharibə sonrası travmatik cəmiyyətin hisslərini paylaşmaq cəhdi kimi də oxunur. Bəzi müşahidəçilər bunu "siyasi səmimiyyətin jesti" adlandırır, digərləri isə "emosional teatr" kimi görür. Sosial şəbəkələrdə hadisənin memə çevrilməsi isə müasir siyasətin ironik tərəfidir. Cəmiyyət artıq liderlərə həm siyasi, həm də insani prizmadan baxır. Paşinyanın bu duyğusal epizodu bir tərəfdən onun insani simasını önə çıxarır, digər tərəfdən isə emosiyaların siyasi alətə çevrilə biləcəyini göstərir.

Bütövlükdə, Ermənistanın siyasi gündəmi bu gün iki fərqli yanaşmanın toqquşduğu məkandır. Bir tərəfdə xalqla təmasdan enerji alan Paşinyan, digər tərəfdə isə keçmişin revanşını arzulayan köhnə siyasi çevrələr dayanır. Reallıq isə göstərir ki, Ermənistan cəmiyyəti artıq keçmiş ritorikalardan çox, gündəlik həyatla bağlı konkret mesajlara üstünlük verir. Paşinyan da məhz bu sosial sifarişi oxumağa çalışır. Bu proses eyni zamanda ölkədə siyasi mədəniyyətin tədricən dəyişdiyini nümayiş etdirir. Rəhbər şəxslə vətəndaş arasında birbaşa ünsiyyətin formalaşması dövlətin sosial məsuliyyətini artırır. Bu, həm də hakimiyyətin cəmiyyət qarşısında hesabatlı olmasının yeni mərhələsidir. Əgər bu model sabit şəkildə davam edərsə, Ermənistan siyasətində populizmdən çox, dialoqa əsaslanan yeni ünsiyyət forması meydana gələ bilər.

**Politoloq İlyas Hüseynov** bildirdi ki, N.Paşinyanın son aylar cəmiyyətlə təmas-



larını artırması sırf seçkiqabağı strategiya kimi qiymətləndirilməməlidir. Onun sözlərinə görə, bu, həm də siyasi kommunikasiya modelinin dəyişməsi deməkdir: "Ermənistan cəmiyyətində baş verən psixoloji və sosial gərginlik fonunda rəhbər şəxsin sadə davranışı vətəndaşlarda emosional rahatlıq yaradır. Radikal revanşistlərin bu tendensiyadan narazılığı, əslində, onların siyasi təcrid vəziyyətinin göstəricisidir. Çünki bu qrupun təklif edə biləcəyi alternativ ictimai model yoxdur. Paşinyanın hazırkı yanaşması isə, heç olmasa, dialoq görüntüsü yaradır və bu, hazırkı mərhələdə onun üçün ciddi üstünlükdür".

Ekspert qeyd etdi ki, bu davranış tərzi uzunmüddətli strategiyaya çevrilərsə, Ermənistan siyasətində yeni ünsiyyət standartı formalaşa bilər. Əks halda, bu mərhələ sadəcə qısamüddətli populist jest kimi tarixə düşəcək: "Paşinyan üçün əsas məsələ bu təmasları formal jestlərdən çıxarıb real sosial dialoqa çevirməkdir. Əgər bu baş verərsə, hökumət və cəmiyyət arasında illərlə mövcud olmuş psixoloji məsafə azala bilər. Eyni zamanda, bu model digər postsovet ölkələrinə də nümunə ola bilər. Lakin bütün bunlar ardıcıl addımlardan, konkret sosial proqramların reallaşmasından və kommunikasiya mədəniyyətinin institusionallaşmasından asılıdır. Hazırda Ermənistan cəmiyyətinin əsas gözləntisi sözlə əməl arasında uyğunluqdur. Paşinyan bu etimadı qoruyub saxlaya bilsə, onun şərti olaraq "xalqla təmas" modeli adlandıra biləcəyimiz davranışları ölkənin siyasi mədəniyyətində yeni mərhələnin başlanğıcı kimi dəyərləndiriləcək".

***S.HƏMİD***
***XQ***

*Xuntaçıların məhkəməsi*

# Erməni hərbçilərin qanlı əməlləri sübuta yetirilir



**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi noyabrın 4-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq iclasında Ruben Vardanyan növbəti vəsatəti müzakirə olunub və baxılmamış saxlanılıb.

Sonra Ermənistanın təcavüzkar müharibəsi və işğalçılıq siyasəti nəticəsində törədilmiş cinayət zamanı zərər çəkənlər ifadə veriblər. Saqif Mikayılov bildirib ki, Xocalı rayonunun Əsgəran qəsəbəsi istiqamətində xəsarət alıb. Aydın Qəribov ifadəsində qeyd edib ki, Şuşa rayonunun Xəlfəli kəndində o, Ceyhun Şahnamazlı və Tərlan Cabbarov yaralanıblar.

Kənan Əbilov Xankəndi rayonunun adsız yüksəkliyində düşmənin odlu silahlardan açdığı atəşlər nəticəsində sol qolundan güllə yarası aldığını deyib. Yusif Veysov bildirib ki, Xocalı rayonunun Çanaqçı kəndi ərazisində diz qapağından qəlpə yarası xəsarəti alıb. Rahib Məmmədov isə Zəngilan rayonu ərazisində Fərid Mehbalının, Təbriz Rəhimovun həlak olduğunu, özünün, İbrahim Mayıllı, Seymur Həsənli və adlarını hazırda xatırlamadığı daha bir neçə nəfərin yaralandığını deyib.

Toğrul Nəcəfli ifadəsində vurğulayıb ki, Zəngilan rayonu ərazisində düşmənin təxribatı nəticəsində o və daha bir neçə nəfər yaralanıb. Fərid Rüstəmov, Fərid Mehbalı, Təbriz Rəhimov isə həlak olublar. Faiq Cəfərov qeyd edib ki, Laçın rayonu ərazisində özü və bir neçə nəfər yaralanıb, daha bir neçə şəxs isə həlak olub. Emin Məmmədov isə bildirib ki, Laçında Əli Əliyev həlak olub, eyni zamanda o, Tural Ağcabəyov, Qabil Məmmədov və adlarını xatırlamadığı daha bir neçə nəfər müxtəlif bədən xəsarətləri alıblar.

Ramazan Məhəmmədov qeyd edib ki, Xocavənd rayonu ərazisində o və bir neçə nəfər yaralanıb. İfadə verən zərərçəkmiş şəxslər Seyran Eminov, Vüqar Məmmədov, Tural Bağırov, Nərməddin Quliyev, Əli Rüstəmov, Əhməd İbrahimov, Tural İmamquliyev, Saleh İsmayılov, Asif Məmmədov, Ariz Haşımov, Vidadi Xaniyev, Nazir Güləliyev Kəlbəcər rayonu ərazisində düşmənin təxribatı nəticəsində xəsarət aldıqlarını diqqətə çatdırıblar.



Qulu Quliyev, Böyükağa Həsənov, Səxavət Quliyev ifadələrində Laçın rayonu ərazisində, Seymur Həsənli, Asif Məmmədov, Uğur Şükürlü isə Zəngilan rayonu ərazisində düşmən təxribatları nəticəsində yaralandıqlarını bildiriblər.

Daha sonra İbad İsmayılov, İlkin Rəhimov və Elmir Beydullayev Xocavənd rayonu, Ayxan Abdullayev Şuşa şəhərində İsa bulağı, Gündüz Qurbanov Şuşa rayonunun Xəlfəli kəndi, Rəfael Səlimov Ağdam rayonu, Hicran Sultanov isə Ağdərə rayonu ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin təxribatları zamanı yaralandıqlarını vurğulayıblar.

Məhkəmədə cinayət işi materiallarında olan və ibtidai istintaq zamanı toplanmış sənədlər də elan olunub, sübutlar tədqiq edilib.

Məhkəmənin növbəti iclası noyabrın 18-nə təyin olunub.

***XQ***

# Zaxarova nə istəyir?

## *Rusiya XİN sözçüsünün Paşinyana cavabına sözardı*




**Bəzi adamlar var ki, onları başa düşmək, nəyə nail olmaq istədiklərini anlamaq çox çətindir. Beləlləri mühüm dövlət postu tutanda isə vəziyyət daha da qəlizləşir. Bəribaşdan deyək ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovadan söz açacağıq. Daha doğrusu, onun bir fikrindən.**

Əslində, Zaxarovanın indiyədək də ayrı-ayrı hadisə və proseslərə reaksiyasındakı əndərəbadilikləri az görməmişik. Yəni, xanım sözçünün Ermənistanın baş naziri Nikol Paşinyana verdiyi cavabın motivi bir o qədər təəccüblü deyil. Amma...

"Əmma"dan söz açmazdan əvvəl deyək ki, N.Paşinyanın M.Zaxarova tərəfindən reaksiyaya səbəb olmuş fikri bu olub: "Biz deyirik ki, "türk heç vaxt dəyişmir", türklərin də ermənilər haqqında eyni fikri var. Biz "azərbaycanlıya necə etibar etmək olar?"' deyirik, onlar da "ermənyə necə etibar etmək olar?" deyirlər. KQB agentləri tərəfindən formalaşdırılmış dünyagörüşündən azad olmalıyıq".

M.Zaxarovanın öz "Telegram" kanalı vasitəsilə Paşinyana verdiyi cavaba diqqət yetirək. Xanım sözçü yazıb ki, "Osmanlı İmperiyasında "erməni soyqırımı" 1915-ci ildə, KQB-nin yaradılmasından təxminən 40 il əvvəl başlayıb". Elə isə "əmma"ya keçid alaq. Daha doğrusu, "əmma"lara.

Qeyd edək ki, N.Paşinyanın əvvəllər də oxşar fikirləri olub. Məsələn, o, ermənilərin keçmişin mənfi stereotiplərindən yaxa qurtarmalarının vacibliyini dəfələrlə vurğulayıb. Türkləri özlərinə düşmən bilmə də həmin mənfi stereotiplərdəndir. Baş nazir iqtibasdakı fikrini buna görə dilə gətirib. Yəni, o, münasibətlərin normallaşmasının tərəfdarı olduğunu bir daha ortaya qoyub.

Paşinyanın "KQB agentləri" fikri havadan götürülməyib. Nikol demək istəyib ki, keçmiş SSRİ-nin zamanında azərbaycanlılarla ermənilər dinc şəkildə yaşayırdılar. 1988-ci ildə iki xalq arasında yaşananlar məhz "KQB" adlandırılan SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ssenarisi idi. Bəlkə 1988-ci ildə Sumqayıt hadisələrini planlaşdıran, ermənilərin öz əli ilə sadə ermənilərə qarşı qırğınlar törədən, həmin qırğınları azərbaycanlıların üstünə yıxan sovet DTK-sı olmamışdı?

İkincisi, Paşinyanın "KQB agentləri" ifadəsinin şərti olduğunu duymaq çətinlik yaratmır. Baş nazir, ümumən, SSRİ-ni nəzərdə tutur. Məgər Sovetlər Birliyi rəhbərliyində azərbaycanlılarla ermənilər arasında nifaq yaratmaq meyilləri olmayıbmı? Olub. Paşinyan əvvəlki açıqlamalarının birində "erməni soyqırımı" məsələsinin ötən əsrin 50-ci illərindən sonra ortaya atıldığını bildirmişdi. İş ondadır ki, 1952-ci ildə Türkiyə NATO-ya qoşulmuşdu. SSRİ rəhbərliyi isə NATO üzvünün soyqırımı törədən ölkə olduğu ideyasını tirajlamışdı. Burada anlaşılmayacaq heç nə yoxdur.

Üçüncüsü, qondarma "erməni soyqırımı" məsələsi bütövlükdə imperializmin məhsuludur. Daha doğrusu, Qərb və rus imperializminin müştərək məhsulu. Aydındır ki, erməniləri dünyanın müxtəlif bölgələrindən gətirib Cənubi Qafqazda məskunlaşdıran çar Rusiyası olub. Məqsəd türk-müsəlman coğrafiyasını bölmək idi. Bu məqsəd Qərbə də sərf edirdi. Qərbin düşüncə mərkəzləri hesablayırdılar ki, Osmanlıya qarşı "erməni kartı"nı işə salanda bu kartın Qafqaz trayektoriyası da aktivlik qazanacaq. Onlar qənaətlərində yanılmadılar.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Qərb dünyası Osmanlıya qarşı erməni amilindən geninə-boluna "bəhrələndi", beyinləri türk düşmənçiliyi ilə yuyulmuş erməni millətçilərinin əli ilə çoxsaylı terrorlar, qətllər törətdi. Daxildəki vəziyyətin kritik olduğunu görən Osmanlı rəhbərliyi isə cavab tədbirləri gördü. Tədbirlər erməni təbəələrin imperiyanın müxtəlif yerlərinə köçürülmələri oldu ki, sonradan bu, "erməni soyqırımı" adlandırılmağa başlandı. Hər halda, xanım Zaxarova sadaladıqlarımızı bilməmiş olmaz. Hələ o, qondarma soyqırımı məsələsinin müasir Türkiyəyə qarşı siyasi alət olması barədə də məlumatlıdır.

Əlbəttə, məqsədimiz Rusiya XİN sözçüsünün yadına tarixi salmaq deyil. Məqsədimiz xanım Zaxarovanın uydurma tarixi fakt kimi ortaya atmasının yolverilməzliyini vurğulamaqdır. Zaxarova Paşinyanın fikrinə verdiyi reaksiyası ilə əslində, aşkar qızışdırıcı mövqe tutur. Sual olunur: sovet KQB-sindən Zaxarovaya nə düşüb? Nə üçün Rusiya XİN-də məsul vəzifə tutan biri sabiq imperiyadakı qurumun, loru dildə desək, əlini-üzünü yumaqla məşğuldur? Axı Paşinyanın, ümumən, pozitiv fikir bildirdiyi, düşmənçilikdən, nifaqdan uzaq durulmasının vacibliyini diqqətə çatdırdığı məlumdur. Belə çıxır ki, xanım Zaxarova bunu istəmir.

İstər Azərbaycan, istərsə də Ermənistan cəmiyyətində klişeləşmiş fikir var ki, azərbaycanlılarla ermənilərin arasını vuran Rusiya olub. Daha bir fikrə görə, keçmiş Dağlıq Qarabağ münaqişəsi Kremlin kluarlarında hazırlanmış oyundur. Bildirilir ki, Rusiya özünün Cənubi Qafqazdakı varlığını qorumaq üçün münaqişə məntiqinə üstünlük verib. Zaxarova bu deyimlərin doğruluğunu sübuta yetirir. Onun fikirləri münaqişə məntiqini qorumaq, necə deyərlər, dəlinin yadına daş salmaqdır. Yoxsa, adam niyə sovet KQB-sinin müdafiəsinə qalxsın ki? Hər halda, susa, heç bir reaksiya verməyə bilərdi. Görünür, bu, mümkün deyil. Niyə? Ehtimal etmək olar ki, Zaxarovanı münaqişənin başa çatması ilə Rusiyanın Cənubi Qafqazda, ümumən regionda mövcudiyyət rıçağının əldən getməsindən əsəbləşir. Nə edək, nə deyək? Prinsipcə, demək istədiyimizi yazdıq. Güman edirik, əlavə şərhə ehtiyac yoxdur. İnanaq ki, Zaxarova da gələcəkdə əndərəbadi açıqlamalara gərək duymayacaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

*Replika*

# Daşnakların "dalay-dalay"ı

**...Deyirlər ki, aşığın sözü qurtaranda, həm də yorulanda məclisi "dalay-dalay"la yola verməyə çalışır. Türkiyə hökumətinin Ermənistanla danışıqlar üzrə xüsusi nümayəndəsi Sərdar Kılıçın İrəvana budəfəki səfəri revanşist-daşnak törəmələrinin etirazına səbəb olub. İrəvanda daşnakların qızışdırdığı gənclər, hətta məktəb yaşlı uşaqlar bu səfərə qarşı "etiraz mitinqi" keçirməyə cəhd göstəriblər. Onlar "əmin olduqlarını" bildiriblər ki, "Türkiyə Ermənistanla dialoqa hazır deyil. Amma əllərində tutduqları plakatlarda əsas tələbləri bu cür yazılmışdı: "Türkiyə erməni soyqırımını etiraf etməlidir".**




Aksiyanı Sərdar Kılıçın Ermənistan rəsmiləri ilə görüşlərinin başladığı vaxtda davam etdirməyə çalışıblar. Erməni mediasının yazdığı və yayımladığı məlumatlarda deyilir ki, İrəvanda bir qrup gənc Türkiyə xüsusi nümayəndəsinin səfərinə etiraz olaraq aksiya təşkil etməyə cəhd göstəriblər.

Türkiyə ilə Ermənistan arasında normallaşma prosesi çərçivəsində xüsusi nümayəndələr – Türkiyə tərəfdən Ermənistanla normallaşma üzrə hökumətin xüsusi nümayəndəsi Sərdar Kılıç, Ermənistan tərəfdən Milli Assambleyanın sədrinin müavini Ruben Rubinyan arasında İrəvanda baş tutan görüşün detalları hələlik açıqlanmasa da, müzakirə mövzusunun sərhədlərin açılması və kommunikasiyaların bərpası olduğu hər kəsə məlumdur. 30 ildən artıq müddətdə kəsilmiş əlaqələrin, pozulmuş münasibətlərin bərpasını nəzərdə tutan bu təmasları rəsmi İrəvan kimi erməni cəmiyyətinin bir qismi də alqışlayır.

Ermənistan paytaxtında zərərli və avantürist təbliğata uyan bir dəstə gəncin və azyaşlının Türkiyənin xüsusi nümayəndəsinin səfərinə qarşı aksiyaya toplaşması daşnakların sosial bazadan məhrum olmalarının, azyaşlıların ümidinə qaldıqlarının bariz nümunəsidir. Etiraz mitinqinə kütləvilik qazandırmaqdan ötrü məktəblilərdən də istifadə etməyi özlərinə yaraşdıran daşnakların bu tədbiri də əvvəlkilər kimi uğursuzluğa düçar olub. Aksiya iştirakçıları Türkiyə əleyhinə müəyyən şüarlar səsləndirdikdən sonra polis qanunsuz aksiyaya toplaşanlardan dağılmalarını tələb edib. Bundan sonra "milli təəssübkeşlər" başlarını aşağı salıb sakitcə dağılışıblar.

Ötən ay təşkil edilən oxşar aksiyaya Ermənistan parlamentinin vitse-spikeri, Türkiyə ilə münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndə Ruben Rubinyanın istehzalı-ironiyalı reaksiyası belə olmuşdu: "Cənab Minasyan, təsadüfən bilmirsiniz ki, niyə "Daşnaksütyun" hökumət binası qarşısında mənə qarşı etiraz edir, axı mən həmin vaxt parlament iclasını aparırdım? Onlara deyin ki, bir neçə saat gecikiblər və ünvanı da səhv salıblar". Xatırladaq ki, o zaman Türkiyə ilə münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndə Ruben Rubinyan rəsmi Ankaranın elçisi Sərdar Kılıçla Ermənistan–Türkiyə sərhədindəki Marqara keçid məntəqəsində görüşmüşdü.

Bir müddət əvvəl Rubinyanın Erməni Apostol Kilsəsinin "təəssübünü çəkənlərə", saxtakar keşişlərə cavabını xatırlıadıq. Ruben Rubinyan paylaşımında yazmışdı: "Ümid edirəm ki, Ktriç Nersisyan katolikosun iqamətgahını boşaldarkən ordan asdığı rusiyalı iş adamının (Samvel Karapetyan - red.) portretini özü ilə aparmağı unutmayacaq. Oradan isə yeni, müqəddəs katolikosun portretini asacaq. Çünki katolikosun iqamətgahında asılmış rus iş adamının əli cibində təsvir olunsa da, cibi çoxdan boşalıb...".

İndi Ermənistandakı daşnak tör-töküntüsünün hərəkətləri yazımızın əvvəlində xatırlatdığımız aşığın halına düşməsindən xəbər verir. Yəni, "Daşnaksütyun" partiyasının "Miatsum", "böyük Ermənistan", "Qarabağ" mahnılarının melodiyaları sönəndən, sözləri qurtarandan sonra deməyə heç nələri qalmadığından yeniyetmə və uşaqları "aşıq-aşıq" oynamağa, daha doğrusu, "dalay-dalay" uvertürası üzərində rəqs elməyə çağırırlar.

***İ.HƏSƏNQALA***
***XQ***

**Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi ilə bağlı yığıncaqdakı çıxışı Ermənistanda böyük səs-küy doğurub. Əslində, bu, gözlənilən idi. Çünki dövlətimizin başçısının, az qala, hər nitqi hay cəmiyyətində geniş müzakirələrə səbəb olur.**

# Simonyan susmalıdır!

## *Ən azından ona görə ki...*

Bu cəmiyyətin təxribatçıları, konspiroloqları sıraya düzülüb kontekstdən çıxardıqları fikirləri özlərinə uyğun tərzdə tirajlayır, nəyisə əsaslandırmağa çalışırlar. Əsaslandırmaq istədikləri ən başlıca məsələ isə budur: Azərbaycanlılarla ermənilər arasında sülh yarana bilməz. Guya Azərbaycan işğalçıdır.

Əlbəttə, bu sayaq deyimlərin hansı dairələrin sifarişləri olduğu aydındır. Amma hesab etmirik ki, Ermənistan parlamentinin sədri Alen Simonyan bildirdikləri fikirlərlə sifariş yerinə yetirir. Həm də ona görə hesab etmirik ki, erməni spiker dövlətimizin başçısının dilə gətirdikləri məqamlarda təhlükəli nə isə görmədiyini vurğulayıb. Məsələn, o, Prezident İlham Əliyevin yanaşmasının işğalçılıq mahiyyəti daşımadığını, onun çıxışında belə bir motivi hiss etmədiyini deyib. "Əmması" budur ki, təkcə A.Simonyan deyil, habelə Ermənistandakı digər nisbətən pozitiv düşüncə sahiblərinin özləri belə bəzi reallıqları anlamalı, səbəb-nəticə əlaqələri tapmalıdırlar.

Əlqərəz, həmin Simonyanın vaxtilə Ağdama gedib bu əzəli yurd yerimizi "Akna" adlandırması, üstəlik, rayonu özünün vətəni hesab etməsi yaddan çıxmayıb. Çıxa da bilməz, çünki Simonyanın Ağdama "Akna", başqalarının işğal altındakı Laçına "Berdzor", Xocalıya "İvanyan", Kəlbəcərə "Karvaçar", Şuşaya "Şuşi" demələrinə görə iki müharibə baş verib. Üstəlik, baş nazir Nikol Paşinyanın "Qarabağ Ermənistandır, nöqtə" bəyanatı var. O Qarabağ ki, işğal illərində "Artsax" adlandırılmışdı.

Deməli, indi Simonyan Prezident İlham Əliyevin tarixi həqiqət kimi Göyçə gölünü öz adı ilə adlandırmasına təbii yanaşmalıdır. Bir halda ki, o, dövlətimizin başçısının əzəli torpaqlarımıza qayıdışın tanklarda yox, minik avtomobillərində olmasına dair fikrini yadda saxlayır, həqiqəti deməkdən də çəkinməməlidir. Məsələn, Simonyan bildirə bilər ki, erməni varlığı Cənubi Qafqaz ərazisinə XIX əsrdə türk-müsəlman dünyasını bölmək, Cənubi Qafqazda etnik və dini durumu dəyişmək üçün köçürülüblər. Axı Paşinyan özü də dolayısı ilə deyir ki, türklərə, o cümlədən Azərbaycan türklərinə qarşı düşmənçilik münasibətini təlqin edən Rusiya olub.

Türklər köçürülən ermənilər üçün düşmən obrazında təqdim ediliblər və ikincilər qeyri-ixtiyari şəkildə bu ideya ilə "yemləniblər". Bu "yenlənmə" nəticəsində gəlmələr özlərini, yumşaq desək, dinc aparmayıb, işğallar, qətllər, təxribatlar və digər nalayiq əməllər törədiblər. Onların varisi olan Simonyan isə Ağdama "Akna" deyəcək qədər "cəsarət sahibinə" çevrilib. Yeri gəlmişkən, erməni spiker açıqlamalarının birində belə bir fikir işlətməsinin yanlışlığından danışıb və deyib ki, hamının səhvi ola bilər. Nəzərə alaq ki, ümumən erməniliyin tarixi bu kimi səhvlərlə doludur. Əlbəttə, buna səhv demək mümkündürsə.

Bəli, Ermənistan rəhbərliyində təmsil olunanlar, bütövlükdə erməni cəmiyyəti reallığı görməyi bacarmalıdırlar. Biz Azərbaycan cəmiyyəti olaraq vəlvələdən, ya zəlzələdən qonşuluğumuzda Ermənistan adlı dövlərin mövcudluğunu qəbul edirik. Uzun illər də qəbul etdik. Tutalım, Göyçə gölünün "Sevan", Zəngəzurun "Sünik" olması ilə barışdıq. Bunun qarşılığında erməni millətçilərinin digər yurd yerlərimizi ələ keçirdiklərinin şahidinə çevrildik. Hələ azərbaycanlıları Kür çayınadək qovmaq planları quranların sərsəmləmələri də oldu. Yəni ki, Simonyan Prezident İlham Əliyevin fikirlərinə görə tarixdə ilişib qalmağın düzgün olmadığını deməməlidir. O, azərbaycanlıların Altay dağlarında özlərinə vətən axtarmalı olduqlarına dair eyhamlı qələti isə heç etməməlidir.





Onu da bildirək ki, Prezident İlham Əliyev AMEA-nın 80 illiyi ilə bağlı yığıncaqdakı çıxışında azərbaycanlıların Ermənistan ərazisindəki tarixi dədə-baba yurdlarına qayıdışının bu ölkənin rəhbərliyini və cəmiyyətini qorxutmalı olmadığını vurğulamış, bildirmişdi ki, azərbaycanlılar yaşadıqları ölkələrə xidmət edirlər, heç bir separatçı niyyət güdmürlər. Dövlətimizin başçısının fikrinin Gürcüstan kimi təsdiq nümunəsi var.

Gürcüstanda, az qala, yarım milyona yaxın soydaşımız kompakt halda yaşayır. Bu əhali ölkəni özünə vətən bilir, heç bir halda xüsusi vətən axtarışına çıxmır. Amma Qarabağda yaşayan və sayı heç yüz mini haqlamayan ermənin hansı oyunlarda alət olduğunu yaxşı gördük. Əvvəllər də görmüş, həmçinin "vətən sevdalı" erməni millətçiləri tərəfindən yaxın tarixin müxtəlif dövrlərində deportasiyalara məruz qoyulmuşuq. Dövlətimizin başçısının fikirləri bütün bu kimi halların təkrarlanmaması üçün müqavimət aşılayır. Belə də olmalıdır. Simonyan və onun kimilər, ümumən erməni cəmiyyəti də Prezident İlham Əliyevin dilə gətirdiklərinin bundan qaynaqlandığını düşünməlidir.

Bu gün Ermənistanda "Artsax" deyib sərsəmləyənlər varsa, deməli, erməni cəmiyyətinin köhnə stereotiplərdən uzaq durduğunu söyləmək mümkünsüzdür. Simonyanlar nəzərə almalıdırlar ki, azərbaycanlıların Göyçə, Zəngəzur həsrəti heç vaxt müharibə, yaxud qarşıdurma doğurmayıb. Ancaq ortada minlərlə insan həyatına son qoymuş iki Qarabağ müharibəsi var ki, onların hər ikisinin günahı Ermənistanın üzərindədir. Yaxşı olar ki, ölkənin rəhbərliyində, hakim komandasında təmsil olunan şəxslər Azərbaycan Prezidentinin fikrinə reaksiya verərkən, məhz bunu düşünsünlər. Təkcə düşünməsinlər, həmçinin, cavab qismində nə isə deməyə, danışmağa nə dərəcədə haqlarının çatdığının fərqinə varsınlar. Ən yaxşı halda sussunlar.

Amma susmurlar və A.Simonyan Prezident İlham Əliyevin vurğuladıqları məqamlarda Bakı-İrəvan sülh prosesinə zərərlər "axtarışına çıxır". Halbuki, belə yanaşma əsla yolverilməzdir. Çünki Ermənistan rəhbərliyi yekun sülhün əldə olunması, barış sazişinin imzalanması üçün ən vacib şərti yerinə yetirməyib. Söhbət Ermənistan konstitusiyasının ölkənin işğalçı mahiyyət daşıyan, ərazi iddiası məntiqinə köklənmiş Müstəqillik Bəyannaməsinə istinadının aradan qalxmamasından gedir. Bu baş verməyincə, Ermənistanın üzərindən işğalçı damğası götürülməyəcək və ölkənin təmsilçilərinin sülhə yönəlik fikirləri səmimiyyətdən uzaq imitasiyadan başqa bir şey olmayacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***



# Azərbaycan Prezidentinin elmə qayğısı və baxışları

## I MƏQALƏ

### Varislik davam edir

Azərbaycan Prezidenti İlham Əliyevin hər tədbirdə iştirakı bir hadisədir. İndi dövlət başçımızın mötəbər qlobal tədbirlərdə iştirakını məhz xüsusi hadisə kimi qəbul edirlər. Biz bu tezisin əsaslı olduğunu müasir elmi kiteriyalarla sübut etmək məqsədilə "Xalq qəzeti"ndə silsilə məqalələr dərc etmişik. Əlbəttə, onlar "intellektual okean"da bir damladır. Ancaq intellektin hər zərrəsi belə Azərbaycan Liderinin fəaliyyətinin milli, regional və qlobal miqyaslarda doğru dərk edilməsi baxımından vacibdir. Bu fikrin izahı çoxaspektlidir. Ancaq burada üç mühüm saydığımız məqamla kifayətlənək.

Birincisi, Azərbaycanda liderliyə son 300 ildə münasibətin tarixi aspekti. Azərbaycan dövlətçiliyinə hücumların imperialist dairələr tərəfindən sistemli və davamlı hal alması həm də ölkəmizin dövlət xadimlərinə, liderlərin fəaliyyətinin gerçək dəyərlərinə, siyasi şüurumuzun dövlət yarada bilmək qatına, qövm olaraq sosial-psixoloji özəlliklərimizə, idarəetmədə ədalətlilik, nizamlılıq və fəzilətliyimizə, Azərbaycan rəhbərlərinin hünərliliyi, sədaqətliliyi, xalqa bağlılığına, digər çox yüksək keyfiyyətlərimizə qarşı güzəştsiz, xaincəsinə savaşa başlamaq demək idi.

Bunun nəticəsidir ki, yad ideologiyası həmişə Azərbaycan dövlətçiliyini aşağılamağa çalışmış və avtomatik olaraq onun liderləri haqqında qərəzli fikir formalaşdırmağa cəhdlər etmişdir. Azərbaycanın hünərli və sadiq hökmdarlarına qarşı sui-qəsdləri hətta ən yaxınlarının əli ilə etmişlər (məsələn, Nadir şaha qarşı edilənləri xatırlayaq). Bununla, ümumiyyətlə, azərbaycanlıları xəyanətkar kimi göstərməyə çalışmışlar və eyni zamanda siyasi-ideoloji hiyləgərliklərini pərdələmişlər.

Qədim dövlətçilik təcrübəsi olan azərbaycanlı şüuru buna laqeyd qala bilməzdi. Dərindən anlayırdı ki, bütün bunların arxasında düşmən əli var. Bu mövqe tədricən bütövlükdə Azərbaycanda hakimiyyətə gələnlərə qarşı müəyyən laqeydlik və ehtiyatlılıq sindromu yaratdı. Azadlıqsevər azərbaycanlılar (türklər) müstəqil və güclü dövlətdən başqa variantı heç zaman qəbul etməmişlər. Biz yalnız müstəqil yaşaya bilərik, başqa halda "havamız çatmır"!

Buna görə də Azərbaycan cəmiyyətinin öz güclü liderlərinə inamını, dəstəyini və simpatiyasını bərpa etmək tarixi vəzifəmizdir. Ulu öndər dövlətçiliyimizlə bağlı hər məsələdə olduğu kimi, milli liderliyin simaptiyamız olması üçün olduqca təsirli addımlar atdı. Onların sırasında Azərbaycan cəmiyyətinin tarixən intellektual, elmə, mədəniyyətə, təhsilə yüksək qiymət verən və bu əsasda dövlət quran qövm olduğunu qətrə-qətrə, yorulmadan ictimai şüurunuza yeritdi. AMEA-nın milli sərvət olması tezisinin təməlində dayanan ideya və konseptual vizyonun mühüm özəlliklərindən biri bundan ibarətdir!

Deməli, AMEA indiki mərhələdə Azərbaycanda dövlətçilik və liderlik ənənəsi ilə müasirliyin vəhdətində ciddi elmi əsaslarda ədalətli, real konseptual yanaşmaların hazırlanmasında tarixi aparıcı rolunu davam etdirməyə məsuldur. Bu sadə və aydın tezisi dərk etmək üçün AMEA-nın 2022-ci ilin payızından başlayan yeniləşmə kursunun və 2030-cu ilədək strateji inkişaf konsepsiyası və "Yol Xəritəsi"nin məzmunu ilə tanış olmaq kifayətdir!

İkincisi, hazırda dünya miqyasında uğurlu liderliyin fəlsəfi, sosioloji, kulturoloji, politoloji, siyasi nümunəsinin axtarışları intensiv olaraq gedir. Alimləri buna istiqamətləndirən başlıca səbəb müasir dünyanın çox mürəkkəb siyasi, iqtisadi, geosiyasi, geoiqtisadi və təhlükəsizlik anatomayisına malik olmasıdır. Bunun fonunda indiyə qədər hazırlanmış bütün dövlətlərarası, beynəlxalq münasibətlərin kriteriyaları çökmüşdür. Qlobal nizamın yaradılması bütövlükdə bəşəriyyətin varoluşu məsələsi kimi qəbul edilməkdədir.

Əgər dünya miqyasında hər aspektdə münasibətləri tənzimləmənin kollektiv kriteriyaları çökmüşsə, milli dövlətlərin mövcudluğu və inkişafının mərkəzi faktoru nə ola bilər? Məhz bu suala indi alimlər birmənalı cavab verirlər: Liderlər!

Bununla liderlik bütövlükdə müasir uğurlu dövlətçiliyin, müstəqil, fəzilətli cəmiyyət və dövlət quruculuğunun, dünya üzrə sülh, əmin-amanlıq və təhlükəsizliyin əsas təminatçısı statusuna yüksəlmişlər! Lider identikliyi xeyli dərəcədə həm də dövlətin identikliyi kimi qəbul edilir. Buna görədir ki, mütəxəssislər ABŞ-ın Tramp obrazı ilə tanımağa başlamışlar. Onun əlaməti Amerikanın hansı addımı atması ilə Trampın addımlarını faktiki olaraq eyniləşdirimələrində görünür. Eyni qaydada Rusiyaya "Putindən", Türkiyəyə "Ədroğandan", İsrailə "Netanyahu"dan baxırlar.

Bu sırada Azərbaycan Prezidenti xüsusilə müsbət mənada seçilir. Azərbaycana İlham Əliyevin lider identikliyindən baxaraq həmişə belə deyirlər: "möhtəşəm inkişaf"! Əslində bu iki kəlmənin fəlsəfəsi və siyasi-nəzəri izahı çox geniş faktorları nəzərə almağı tələb edir. Azərbaycan alimləri bunu etməlidirlər! Yeniləşən AMEA bu yolda inamla irəliləyir!

Üçüncüsü, Heydər Əliyevin "bir millət, iki dövlət" və "mən fəxr edirəm ki, azərbaycanlıyam" tarixi tezislərinin dərin siyasi, geosiyasi, dövləti və psixoloji məqamlarını sistemli dərk etməyin vaxtı çoxdan çatmışdır. Çünki bu kəlamlar yalnız siyasi hədəfli deyillər, onlar bütövlükdə toplum və müstəqil dövlət kimi varlığımızın indiki tarixi mərhələdə manifesti, fəaliyyət kompasının "strateji istiqamətidir"! Prezident İlham Əliyevin fəaliyyəti bu kəlamların hər anda təsdiqinin və yaşarlılığının simvoludur. AMEA yeniləşmə kursunda məhz bu məqamı ciddi nəzəri sosial-humanitar elmi tədqiqatların mərkəzinə gətirmişdir. Və ölkənin baş elmi təşkilatının rəhbərliyinin bu seçimi etməkdə nə qədər haqlı olduğunu AMEA-nın 80 illiyinə həsr edilmiş tədbir bir daha təsdiq etdi.

### Dövlətin elmə və elmin dövlətə münasibəti

Azərbaycan Prezidentinin AMEA-nın 80 illik yubileyinə həsr edilmiş tədbirdə söylədiyi nitqdə müasir mərhələdə bütövlükdə elmə, intellektə və xüsusi olaraq Azərbaycanda elmi fəaliyyətə yanaşmasında yer almış iki ümumi tezisə baxmaq faydalı olardı.

Prezident İlham Əliyev tarixi nitqinə aşağıdakı fikirlərlə başlamışdır: "Mən sizi Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm, Akademiyaya gələcək fəaliyyətində uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan alimləri bundan sonra da ölkəmizin uğurlu inkişafına öz töhfələrini verəcəklər... Akademiya 80 il ərzində böyük yol keçmişdir, Azərbaycanda elmin inkişafında aparıcı rol oynamışdır... Sirr deyil ki, ulu öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi. Hələ ötən əsrin 70-ci illərində onun rəhbərliyi ilə Akademiyanın fəaliyyəti təkmilləşdi, bir neçə yeni elmi-tədqiqat institutu yaradıldı, elmin inkişafına böyük vəsait ayrılırdı. Faktiki olaraq bu siyasət müstəqillik illərində də davam etdirilirdi. Ulu öndərin təşəbbüsü ilə keçən əsrin 70-ci illərindən başlayaraq yüz minlərlə Azərbaycan gənci o vaxt Sovet İttifaqının aparıcı ali məktəblərinə göndərilmişdir və beləliklə, ölkəmizdə intellektual potensial daha da güclənmişdir. Eyni siyasəti biz müstəqillik illərində də aparırıq. Bu gün də on minlərlə Azərbaycan gənci artıq dünyanın aparıcı ali məktəblərinə ezam olunur. Onların böyük əksəriyyəti oxuyub Vətənə qayıdırlar və beləliklə, ölkəmizin inkişafına öz dəyərli töhfələrini verirlər".

Bu fikirlərin mənalarında ən azı üç vacib məqam mövcuddur.

Birincisi, AMEA-nın fəaliyyətini davam etdirməsi seçim məsələsi deyildir, dövlətçilik baxımından zərurətdir: "Əminəm ki, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan alimləri bundan sonra da ölkəmizin uğurlu inkişafına öz töhfələrini verəcəklər". Dövlət başçısı dərhal bu inamını və AMEA-ya olan güvəncini arqumentləşdirir: "Akademiya 80 il ərzində böyük yol keçmişdir, Azərbaycanda elmin inkişafında aparıcı rol oynamışdır".

İkincisi, Prezidentin ifadə etdiyi AMEA-nın ölkə üçün əhəmiyyəti və ona olan inamının təməlində Ulu öndər Heydər Əliyevdən başlayan elm siyasətinin dayandığını İlham Əliyev dəqiq vurğulayır. Heydər Əliyevin hələ keçən əsrin 70-ci illərindən bu kursun əsasını yaratdığını və onun başlıca hədəfinin ictimai-siyasi quruluşun dəyişməsindən asılı olmağını vurğulamağın ayrıca əhəmiyyəti vardır.

O cümlədən Ulu öndərin dövlətin elmə münasibətinin ifadə edildiyi siyasət qiymətli töhfədir və o, dəyişməyəcək. Yəni dövlət siyasi varisliyin bir mühüm aspekti olan elm siyasətində varisliyə qətiyyətlə əməl edəcək.

Bundan başqa, həmin bağlılıqda AMEA-nın aparıcı funksiyası saxlanacaqdır. Təbii ki, bunun üçün mühüm şərtlərdən biri ölkənin baş elmi təşkilatının geniş yeniləşməyə nail olması gərəkdir.

Nəhayət, üçüncü vacib məqam ilk iki tezisdən avtomatik olaraq məntiqi nəticə kimi alınır: İndi dövlətin elmə münasibəti fonunda elmi təşkilatların və elm adamlarının dövlətə münasibətlərinin məzmunu və məqsədi yeni aktuallıq kəsb edir. Dövlətin dəstəyini görən elmi sfera eyni qaydada dövlətə (söhbət Azərbaycan dövlətindən gedir) münasibətini bu mürəkkəb tarixi mərhələnin tələblərinə və çağırışlarına uyğun müəyyən etməlidir.

Elmi təşkilatın və alimlərin dövlətə münasibəti ilə bağlı davamlı hərəkatı məhz AMEA rəhbərliyi 2022-ci ilin payızından başlatmışdır. Bu, inkarolunmaz həqiqətdir! Bu hərəkatın elmi yaradıcılıq və elmi fəaliyyətin təşkili nümunəsi kimi təmsilçisi AMEA-nın yeniləşmə kursudur.

Bu kursun praktiki reallaşma platforması AMEA-nın strateji inkişaf konsepsiyası və "Yol Xəritəsidir". Onun yaradıcılıq və fəaliyyətinin fundamental ideya qaynağı Prezident İlham Əliyevin müəyyən etdiyi ölkənin strateji inkişaf kursudur. Elmi tədqiqatların motivəedici yaradıcılıq faktoru müstəqil dövlətçiliyin möhkəmlənməsi kontekstində Azərbaycançılıqdır.

Sırf elmi yaradıcılıq motivasiyası (koqnitiv aspekt) isə rəqəmsallıq, süni intellektin tətbiqi və kibertəhlükəsizliklə bağlıdır. Burada koqnitiv aspektin strateji inkişaf kursu kontekstində Azərbaycançılığın məfkurəvi şərtlərinə uyğun fəzilətli cəmiyyət formalaşdırmağa xidmət göstərməsi məsələsi əsas şərtlərdən biridir. Yəni Azərbaycanda elm mütləq surətdə birgəyaşam mədəniyyətimizdə xüsusi yeri olan fəzilətliliklə sıx bağlılıqda inkişaf etdirilməlidir. Azərbaycan elmi güclü texnoloji imkanlarla yanaşı, mənəvi keyfiyyətləri yüksək olan şəxslər yetişdirməlidir!

Elmi təşkilatların və alimlərin dövlətə münasibətinin aktuallığı Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubiley tədbirində ifadə etdiyi bir fikrin işığında daha aydın görünür. Dövlət başçısı demişdir: "Müstəqilliyin ilk illəri çox ağır idi, faciəvi idi. O vaxt məhz Heydər Əliyevin qətiyyəti, iradəsi, xalqa olan bağlılığı bizi böyük bəlalardan qurtara bilmişdir. O da çox böyük göstəricidir ki, onun hakimiyyətə qayıdışından sonra Azərbaycan ziyalıları ilə, Azərbaycan ictimaiyyəti ilə ilk görüşü məhz 1993-cü ildə Milli Elmlər Akademiyasında olmuşdur. Beləliklə, o, bir daha müstəqil Azərbaycanın, yəni, yeniləşən Azərbaycanın prioritetlərini açıq şəkildə bəyan etmişdir".

Azərbaycan Prezidentinin bu fikirləri AMEA tribunasından səsləndirməsinin üç vacib özəlliyi vardır. Onlar dövlət başçısının yubiley tədbirindəki nitqində "yeniləşən dünya" və "yeniləşən Azərbaycan" proseslərinin fonunda "yeniləşən elm" tezisini irəli sürməsi ilə bağlıdır. Prezidentin nitqindən gətirdiyimiz yuxarıdakı fraqment göstərir ki, bu məqamlar da ciddi surətdə elm siyasətində varisliyə əsaslanır. Ulu öndər 1993-cü ildə yeniləşən Azərbaycanın prioritetlərindən biri kimi elmi yaradıcılığı və onun institutlaşmasında yeniləşmələri müəyyən etmişdir. Bu faktın işığında AMEA-nın 80 illik yubileyi xüsusi tarixi və strateji anlam kəsb edir.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# AMEA-nın yubiley sessiyası



**Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaq öz işini noyabrın 4-də AMEA-nın Rəyasət Heyətində sessiya ilə davam etdirib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA-nın Rəyasət Heyətinin üzvləri, eləcə də Türkiyə, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Çin, Vyetnam, İtaliya, Bolqarıstan, Monteneqro Elmlər akademiyalarının və beynəlxalq elmi qurumların rəhbərləri və nümayəndələri iştirak ediblər.

Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda dərin məzmunlu, konseptual nitqlə çıxış etdiyini deyən akademik İsa Həbibbəyli dövlət başçısının Akademiyanın fəaliyyətinə yüksək qiymət verdiyini, gələcək vəzifələrini müəyyənləşdirdiyini söyləyib. Akademik İsa Həbibbəyli bildirib ki, dövlət başçısının tapşırıqları Akademiyanın bundan sonrakı yol xəritəsidir və gələcək fəaliyyətimizi bunun əsasında qurmalıyıq.

Akademik İsa Həbibbəyli Azərbaycan alimləri və ziyalıları, AMEA-nın kollektivi və beynəlxalq iştirakçılar adından yığıncaqda iştirakına və dərin məzmunlu nitqinə görə Prezident İlham Əliyevə, Qalib ölkənin Liderinə minnətdarlığını bildirib. "Dövlətimizin başçısını əmin etmək istəyirik ki, AMEA-nın kollektivi cənab Prezidentin qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində var gücləri ilə çalışacaqlar", – deyə AMEA rəhbəri vurğulayıb.

Akademik İsa Həbibbəyli qeyd edib ki, 21 ölkədən 42 alimin iştirak etdiyi yığıncaq AMEA-nın beynəlxalq əlaqələrinin inkişafına, yeni əlaqələrin qurulmasına və möhkəmlənməsinə öz töhfəsini verəcək.

Tədbirdə, həmçinin Türkiyənin Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumunun prezidenti professor Dərya Örs, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Parlament Assambleyasının baş katibi akademik Asəf Hacıyev, TÜRKSOY-un baş katibi Sultan Raev, Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev, Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti akademik Roin Metreveli, Türkiyənin Ankara Universitetinin rektoru professor Necdat Ünüvar, Bolqarıstan Elmlər Akademiyasının prezidenti professor Evelina Slavçeva, Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyasının (ASSA) prezidenti professor Ahmet Nuri Yurdusev, Türkmənistan Elmlər Akademiyasının prezidenti akademik Allaberdi Aşirov, Qırğız Respublikası Milli Elmlər Akademiyasının prezidenti müxbir üzv Kanatbek Abdraxmatov, İtaliya Milli Elmlər Akademiyasının üzvü professor Roberto Zelli, Dünya Azərbaycanlı Alimlər Birliyinin İdarə Heyətinin sədri professor Məsud Əfəndiyev və Antarktida Elmi Tədqiqatlar Şurasının Humanitar və Sosial Elmlər üzrə Daimi Komitəsinin üzvü Ebru Caymaz çıxış edərək Azərbaycan Milli Elmlər Akademiyasının kollektivini, eləcə də Azərbaycan alimlərini təbrik edib, əməkdaşlıq perspektivlərindən danışıb, xatirə hədiyyələri təqdim ediblər.

Bundan əlavə, tədbirdə Avstraliya Sosial Elmlər Akademiyasının prezidenti professor Kate Darian-Smith və Pakistan Ədəbiyyat Akademiyasının prezidenti professor Najeeba Arifin təbrik videoları təqdim olunub.

Daha sonra akademik İsa Həbibbəyli AMEA-nın 80 illik yubileyi münasibətilə ünvanlanmış təbrik məktublarını səsləndirib.

***Q.YUSİFOĞLU***
***XQ***

# AMEA dünya elminə layiqli töhfələr verib

**Dünya elmində ən yüksək təltiflərdən ("kiçik Nobel mükafatı") sayılan Humboldt mükafatının ilk azərbaycanlı laureatı, Almaniyanın Münxen şəhərindəki "Helmholtz" Elmi-Tədqiqat Mərkəzinin dinamik sistemlər şöbəsinin müdiri, Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Məsud Əfəndiyev AMEA-nın 80 illik yubiley mərasimi ilə əlaqədar açıqlamasında bildirdi:**



– Bu yubileyin dövlət səviyyəsində keçirilməsi və yekun təntənəli mərasimdə Prezident İlham Əliyevin iştirakı milli akademiyanın xalqımız üçün necə böyük əhəmiyyət daşıdığının yüksək göstəricisidir.

AMEA-ya verilən ən yüksək qiymət, dəyər ulu öndər Heydər Əliyevin bu elm məbədinə hər zaman atalıq qayğısı ilə yanaşması olmuşdur. Ümummilli liderin "Biz yaradılmış elmi potensialı qoruyub saxlamalı, ondan bugünkü və gələcək müstəqil Azərbaycanın inkişafı naminə daha səmərəli istifadə etməliyik" tələbi sonrakı dövrdə uğurla gerçəkləşdirilib. Məhz Ümummilli liderin diqqət və qayğısı nəticəsində, ictimai-siyasi sistemdə baş verən kəskin dəyişikliklərə baxmayaraq, AMEA bütün dövrlərdə öz prinsiplərinə sadiq qalmışdır. Bu gün Azərbaycan dövlətinin suverenliyinin tam bərpa olunması AMEA-nın hər bir üzvünü yeni fundamental elmi nailiyyətlər əldə etməyə, dövlətimizin elmi potensialını daha da gücləndirməyə səsləyir.

**Professor Məsud Əfəndiyev AMEA-nın Azərbaycanı dünyaya tanıdan görkəmli alimlər və dahilər yetişdirdiyini söylədi:**

–Akademiyanın həyatında gəzərkən və ya iclas zallarında olarkən, sanki, o böyük şəxsiyyətlərin ruhlarının orada pərvaz etdiyini hiss edirsən. Bu hiss hər nə qədər metafizik təsir bağışlasa da, elmə və elm adamlarına duyulan dərin hörmətin, mənəvi bağın təzahürüdür. Həm humanitar, həm də fundamental elm sahələrində dünyada sözünü demiş AMEA korifeyləri, görkəmli alimlərimizin əksəriyyəti ilə şəxsi tanışlığımız mənim üçün böyük bir məktəb olub. Bu elm xadimləri ilə ünsiyyət dünyagörüşümün formalaşmasında, elmə olan marağımın artmasında mühüm rol oynayıb. 2003-cü ildə ABŞ-da American Institute of Mathematical Sciences (AIMS) nəşriyyatında çap olunmuş "Fredholm Structures, Topological Invariants and Applications" adlı kitabımın giriş hissəsində Azərbaycan riyaziyyat məktəbinin yetirməsi olduğumu göstərmiş, Zahid Xəlilov, Əşrəf Hüseynov və İbrahim İbrahimov kimi görkəmli alimlərimizi qürurla yad etmişəm.

**Dünyaşöhrətli soydaşımız sonda dedi:**

–Belə bir fikir var ki, elmin Vətəni olmur. Lakin mən bu fikrə bir cümlə də əlavə edərdim: Elm ilə məşğul olan hər bir insanın Vətəni olur. Artıq 35 ildən çoxdur Almaniyada yaşayıb-yaratmağıma baxmayaraq, Azərbaycan vətəndaşı olaraq qalmaqdan böyük şərəf və qürur duyuram. "İnanıram ki, məhz milli ruhda formalaşmış alimlərimizin səyləri nəticəsində AMEA-da fəaliyyət göstərən ziyalılarımız gələcəkdə də mühüm elmi nailiyyətləri ilə həm ölkəmizdə, həm də respublikanın hüdudlarından kənarda yaşayıb fəaliyyət göstərən elm adamlarını sevindirməkdə, qürurlandırmaqda davam edəcəklər.

Sonda elm məbədimiz AMEA-ya gələcək fəaliyyətində, elmi axtarışlarda uğurlar arzulayıram.

***Hazırladı:***
***Ə.QABİL***
***XQ***

# Çin heyəti AMEA-da

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Pekin Xarici Dillər Universitetinin (PXDU) prorektoru, professor Gao Qanqın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Son illərdə ölkələrimiz arasında elmi əlaqələrin daha da inkişaf etdiyini deyən AMEA prezidenti rəhbərlik etdiyi qurumun Çin Sosial Elmlər Akademiyası, Hebey Sosial Elmlər Akademiyası, Honkonq Kore Akademiyası, Pekin Xarici Dillər Universiteti və Hebey Pedaqoji Universiteti ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb. O, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Çin Tədqiqatları Mərkəzinin fəaliyyət göstərdiyini, bir sıra əməkdaşların Çində dil üzrə ixtisasartırma kurslarında iştirak etdiklərini də söyləyib.

Azərbaycan Milli Elmlər Akademiyasının Pekin Xarici Dillər Universiteti ilə əməkdaşlığa xüsusi önəm verdiyini deyən akademik İsa Həbibbəyli universitetdə Azərbaycan dili kafedrasının fəaliyyət göstərməsinin Çinin Azərbaycana verdiyi dəyərin ifadəsi olduğunu söyləyib. Çinə səfəri zamanı "Azərbaycan dili" ixtisası üzrə təhsil alan çinli tələbələrə ustad dərsi keçdiyini xatırladan akademik kafedranın kitabxanasına Heydər Əliyev Fondu və AMEA tərəfindən bir çox dəyərli nəşrlərin bağışlandığını bildirib.

Pekin Xarici Dillər Universitetinin prorektoru professor Gao Qanq ölkəmizə ilk dəfə səfər etdiyini və səmimi qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, Azərbaycanda Çinə olan maraqdan heyrətləndiyini vurğulayıb. 2017-ci ildən universitetdə Azərbaycan dilinin tədris olunduğunu deyən alim ilk məzunlardan ikisinin PXDU-nun Azərbaycan dili kafedrasında müəllim kimi çalışdıqlarını diqqətə çatdırıb. Qeyd edilib ki, onlar ölkələrimiz arasında gələcəkdə elmi əlaqələrin genişlənməsində körpü rolunu oynayacaqlar.

Sonda Azərbaycan Milli Elmlər Akademiyası ilə Pekin Xarici Dillər Universiteti arasında anlaşma memorandumu imzalanıb.

Qonaqlar AMEA Rəyasət Heyətinin binası və Ədəbiyyat İnstitutunun Çin Mərkəzi ilə də tanış olublar.

***Q.ƏLİYEV***
***XQ***

# Elmi nailiyyətlər sərgisi



**Dünən AMEA-nın Rəyasət Heyətində Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş elmi nailiyyətlər sərgisi təşkil olunub.**

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri və Akademiyanın 80 illik yubiley tədbiri çərçivəsində ölkəmizdə səfərdə olan dünyanın bir sıra Elmlər akademiyalarının və nüfuzlu beynəlxalq elmi qurumlarının rəhbər heyəti və nümayəndələri sərgiyə baxış keçirib, zəruri məlumatlar əldə ediblər.

***XQ***

# İqtisadi tərəqqinin Azərbaycan modeli

(əvvəli 1-ci səhifədə)



Təsadüfi deyil ki, Prezident İlham Əliyev noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışı zamanı ölkəmizin iqtisadi göstəricilərinin müsbət olduğunu vurğulayaraq deyib: “Bu gün dünyanın iki aparıcı beynəlxalq reytinq agentliyi bizim kredit reytinqimizi qaldırıb və bunu investisiya reytinqinə uyğun səviyyədə artırıb. Bu, əlbəttə ki, ölkəmizdə gedən iqtisadi islahatların təzahürüdür. Çünki bu gün bizim iqtisadiyyat sağlam iqtisadiyyatdır. Biz heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq siyasi müstəqilliyi də gücləndirir”.

Son 5 ildə Azərbaycanda ümumi daxil məhsul (ÜDM) nominal ifadədə 36,7 milyard manat (39,3 faiz), real ifadədə isə 19 faiz artıb. Bununla belə, ölkəmizdə neft hasilatının azalması fonunda ÜDM istehsalında əvvəlki dövrlərdə qeydə alınmış yüksək artım səngisə də, qeyri-neft sektoru əsaslı yüksəliş dövrünü yaşayır. Təkcə onu qeyd etmək kifayətdir ki, son 5 ildə qeyri-neft-qaz sektoru real olaraq 25 faiz, qeyri-neft-qaz sənayesi isə 1,6 dəfə artıb. Bütövlükdə isə, qeyri-neft-qaz sektorunun ÜDM-də xüsusi çəkisi 60 faizdən çox olub. Prezident İlham Əliyev çıxışında bu məqama toxunaraq bildirib ki, son illər ölkədə ÜDM-in çox artmamasının əsas səbəbi neft hasilatının obyektiv səbəblərə görə aşağı düşməsi ilə bağlıdır. Dövlət başçısının qeyd etdiyi kimi, bu gün iqtisadiyyatımızın aparıcı təkanverici qüvvəsi qeyri-neft sektordur. Bu, bizim ümumi iqtisadiyyatımızın əksəriyyətini təşkil edir.

Bununla belə, 2026-cı il üçün proqnozlaşdırılan əsas makroiqtisadi göstəricilər ümumi daxili məhsulda yenidən artıma nail olunacağımıza ümidləri artırır. Maliyyə naziri Sahil Babayev Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin noyabrın 4-də keçirilmiş iclasında çıxışı zamanı deyib ki, gələn il Azərbaycanda ÜDM 134,1 milyard manat səviyyəsində proqnozlaşdırılır ki, bu da 2025-ci illə müqayisədə 2,9 faiz real artımı ifadə edir. Onun sözlərinə görə, gələn il ölkəmizdə qeyri-neft ÜDM-i 101,7 milyard manat proqnozlaşdırılır. Bu isə 2025-ci illə müqayisədə 5 faiz real artım deməkdir.

Azərbaycanın iqtisadi yüksəlişi strateji valyuta ehtiyatlarının artmasında da özünü büruzə verir. Sevindirici haldır ki, son illər valyuta ehtiyatlarımız mütəmadi olaraq artır. 2025-ci il oktyabrın 1-nə strateji valyuta ehtiyatlarımız 81,5 milyard ABŞ dollarına çatıb ki, bunun da 70 milyard dollarından çoxunu Dövlət Neft Fondunda toplanmış vəsait təşkil edir. Yeri gəlmişkən, maliyyə nazirinin sözlərinə görə, 2026-cı ildə Neft Fondunun gəlir və xərcləri balanslaşdırılıb (7,7 milyard dollar = 7,7 milyard dollar). Bu il noyabrın 1-nə Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları isə 11 milyard 368 milyon ABŞ dolları təşkil edib. Bankın məlumatına görə, bu, oktyabrın 1-i ilə müqayisədə 57,8 milyon dollar və ya 0,5 faiz çoxdur. Eyni zamanda, AMB-nin valyuta ehtiyatları ilin əvvəlinə nisbətən 408,8 milyon dollar və ya 3,7 faiz artıb.

2025-ci il oktyabrın 1-nə Azərbaycanın dövlət borcu 25,4 milyard manat təşkil edib. Göründüyü kimi, strateji valyuta ehtiyatlarımız xarici dövlət borcumuzu, təqribən, 17 dəfə üstələyib. Bu da dünya üzrə olduqca yüksək göstərici sayılır. Yeri gəlmişkən, maliyyə naziri Sahil Babayevin dediyinə görə, hazırda Azərbaycan ümumi dövlət borcunun ÜDM-ə nisbət göstəricisinin ən aşağı olduğu 20 ölkədən biridir. Təsadüfi deyil ki, dövlət başçısı akademiyadakı çıxışı zamanı bu mühüm məqama toxunaraq deyib: “Bizim xarici borcumuz çox aşağı səviyyədədir. Sirr deyil ki, bir çox inkişaf etmiş ölkələrdə xarici borc o ölkələrin ümumi daxili məhsulunun 100 faizini, bəlkə də daha çox təşkil edir. Bizdə isə bu, cəmi 6 faizdən bir qədər çoxdur. Yəni, bu göstəriciyə görə Azərbaycan bu gün dünya miqyasında aparıcı yerlərdədir. Əgər biz istəsək, xarici borcumuzu bir neçə ay ərzində sıfırlaya bilərik”.

Prezident İlham Əliyev çıxışında onu da bildirib ki, ölkəmizin iqtisadi və maliyyə dayanıqlılığı böyük investisiya layihələrini icra etməyə imkan verir. Dövlət başçısının qeyd etdiyi kimi, bu gün icra olunan əsas investisiya layihələrinin ünvanı Qarabağ və Şərqi Zəngəzurdur. Hazırda azad edilmiş torpaqlarımızda dünyada misli görülməmiş işlər görülür, güclü iqtisadiyyatımız bizə həm əminlik verir, həm də azad edilmiş torpaqların tezliklə bərpa edilməsinə imkan yaradır.

Bu il Azərbaycanda əsas kapitala investisiya qoyuluşunun 22,6 milyard manat, 2026-cı il üzrə isə 24,6 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır. Bu rəqəmlər isə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünənki iclasında müzakirə olunan Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsinin layihəsinə Hesablama Palatasının rəyində öz əksini tapıb. Sənədə əsasən, bu göstəricilər üzrə real artım tempinin müvafiq olaraq 0,5 faiz və 6,9 faiz olacağı gözlənilir.

Bir məqamı da qeyd edək ki, hazırda ölkəmizdə genişmiqyaslı bərpaolunan enerji layihələri icra olunur. Elə Prezident İlham Əliyev də yubiley toplantısındakı çıxışı zamanı bərpaolunan enerji layihələri haqqında danışarkən ölkəmizin burada da ön sıralarda qərarlaşdığını diqqətə çatdırıb. Dövlət başçısı deyib ki, son 5 ildə təkcə Qarabağda və Şərqi Zəngəzurda toplam generasiya gücü 300 meqavatdan çox olan 30-dan artıq su elektrik stansiyası inşa edilib. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə günəş və külək elektrik stansiyalarının inşası həyata keçirilir: “Bu yaxınlarda Cəbrayıl rayonunda 100 meqavatlıq iki stansiyanın təməli qoyuldu. O stansiyaların yanında 240 meqavat gücündə üçüncü günəş elektrik stansiyası inşa edilir. Bütövlükdə, 2030-cu ilə qədər günəş, külək və su elektrik stansiyalarının generasiya gücü 6 min meqavata çatmalıdır. Bu, böyük bir sənaye sahəsidir, sənayenin inkişafının növbəti istiqamətidir” deyən Prezident İlham Əliyev Azərbaycan alimlərini də bu sahədə fəal olmağa dəvət edib.

# “Vergi güzəşti” “mərhələli güzəşt”lə əvəz olunur

**2026-cı il yanvarın 1-dən etibarən ölkə üzrə nəzərdə tutulmuş vergi güzəştinin müddəti bitir. Hazırda bəzi media orqanları 7 illik vergi güzəştinin davam etməyəcəyi ilə bağlı məlumatlar yayırlar. Əslində isə, ölkədə vergi güzəştlərinin növbəti illərdə mərhələli şəkildə tətbiqi ilə davam edirilməsi nəzərdə tutulur.**

Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında “2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, güzəştin sosial-iqtisadi məqsədlərinə əsasən nail olunduğunu, habelə əmək bazarının rəsmiləşdirilməsi sahəsində əldə edilmiş nailiyyətləri qorumaq və daha da artırmaq üçün vergi inzibatçılığının kifayət qədər gücləndirilməsini nəzərə alaraq, eyni zamanda, leqallaşma prosesinin davam etməsinə münbit şərait yaradıb qorunması üçün, o cümlədən daha aşağı gəlirlilərə aşağı vergi yükünü müəyyən etməklə qeyri-neft qaz və özəl sektorda da əməkhaqlarının tədricən mərhələli şəkildə vergiyə cəlb edilməsi barədə təkliflər təqdim edilib.

Nazirin sözlərinə görə, bu ilin sonuna qədər Azərbaycanın özəl qeyri-neft-qaz sektorunda əməkhaqqı fondunun 2019-cu illə müqayisədə 3 dəfə artaraq 10,6 milyard manata, məcburi sosial sığorta yığımlarının isə 3 dəfə artaraq 2,5 milyard manata çatması proqnozlaşdırılır. M.Cabbarov əlavə edib ki, qeyri-neft-qaz özəl sektorda 8 min manata qədər olan əməkhaqlarının gəlir vergisindən azad olunması nəticəsində 2019-cu il yanvarın 1-dən 2025-ci il oktyabrın 1-dək bu sektorda əmək müqavilələrinin sayı 471 min artaraq 1 milyonu ötüb.

Yeri gəlmişkən, iqtisadiyyat naziri ölkədə fəaliyyət göstərən əsas gəmi istehsal müəssisəsi olan Bakı Gəmiqayırma Zavodu tərəfindən vergi güzəştinin uzadılması ilə bağlı müraciətinin konsensusla dəstəkləndiyini diqqətə çatdırıb. O, zavodun fəaliyyətinin Azərbaycan dövlətinin iqtisadi və strateji hədəflərinə cavab verdiyini vurğulayaraq deyib ki, ölkədə qeyri-kommersiya təyinatlı gəmi istehsal müəssisələrinin olmaması ilə yanaşı, Bakı Gəmiqayırma Zavodu uzun illər mənfəətli olmayıb, amma son 1-2 ildə istehsal həcmi xeyli artıb. “Hazırda orada eyni vaxtda, təxminən, 10 gəmi inşa olunur. Son 12 ildə cəmi 14-15 gəmi inşa edilib ki, bu da istehsal dinamikasını göstərir. Biz bu dinamikanı dəstəkləyirik və müdafiə etməyə hazırıq”, – deyə M.Cabbarov əlavə edib.

Parlamentin komitə iclasında maliyyə naziri Sahil Babayev də gələn il tətbiq olunacaq vergi güzəştləri barədə danışıb. Nazir deyib ki, işğaldan azad edilmiş ərazilərə verilən vergi güzəştlərinin Naxçıvana da tətbiqi muxtar respublikanın inkişafında əhəmiyyətli rol oynayacaq. Nazir onu da qeyd edib ki, media subyektlərinin vergi güzəştlərinin müddətinin daha 3 il uzadılması, sadələşmiş vergi limitlərin artırılması, fiziki şəxslərə məxsus yaşayış sahələrinin (mehmanxanalar və mehmanxana tipli obyektlərdə yerləşən yerləşmə vasitələri istisna olmaqla) fiziki şəxslərə kirayəyə verilməsindən əldə olunan gəlirlərdən ödəmə mənbəyində 14 faiz deyil, 10 faiz dərəcə ilə vergi tutulması çox ciddi məsələlərdir.

### Ekspert rəyi



**Xalid KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

**2026-cı il yanvarın 1-dən gəlir vergisi ilə əlaqədar qeyri-dövlət sektorunda çalışanlar üçün vergi güzəştinin müddəti bitir. Lakin hökumət burada dərhal bütün vergiləri vətəndaşın, yəni işləyən şəxslərin üzərinə qoymur. Bunu hissə-hissə və mərhələli şəkildə həyata keçirir. Belə ki, gələn il yanvarın 1-dən vətəndaşın iş yerində gəliri 2500 manatadək təşkil edirsə, ondan yalnız 3 faizi vergiyə cəlb olunacaq. Yəni 2500 manatadək olan məbləğdən cəmi 75 manat vergi tutulacaq. 2500 manatdan 8 min manatadək olan məbləğin 10 faizi vergiyə cəlb olunacaq. 8 min manatdan yuxarı əməkhaqqı alan şəxslərdə isə bu, artıq 14 faiz təşkil edəcək.**

Nəticə etibarı ilə 8 min manatdan yuxarı əməkhaqqı alan şəxslər 625 manat üstəgəl 8 min manatdan yuxarı məbləğin 14 faizi qədər vergi ödəmək məcburiyyətində qalacaqlar. 2500 manatdan 8 min manatadək əməkhaqqı alanlar isə 75 manat üstəgəl 2500 manat və 8 min manat məbləğin 10 faizi vergi ödəyəcəklər. Bu, 2026-cı ildən 2027-ci ilədək olan 1 illik dövrü əhatə edir. 2027-ci ildən etibarən isə aşağı gəlir həddində olan şəxslər üçün vergi 2 faiz artılaraq 5 faiz təşkil edəcək. Bu o deməkdir ki, 2500 manatadək əməkhaqqı alanlar 5 faiz, 8 min manatadək alan şəxslərdə isə 10 faiz olacaq. 8 min manatdan yuxarı əməkhaqqı alan şəxslər isə 2027-ci ildən başlayaraq 675 manat üstəgəl 8 min manatdan yuxarı olan məbləğə görə vergi ödəməli olacaqlar. 2028-ci ildə proses yekunlaşacaq və həmin ildən başlayaraq özəl sektorda çalışan şəxslər 2500 manatadək olan gəlirin 7 faizi səviyyəsində vergi ödəyəcəklər. Digər intervallar isə eyni səviyyədə qalacaq.

Hökumət üçpilləli rejimlə vergi tətbiq edəcək. Gəlirlərin yuxarı hissəsində isə fərqli vergi dərəcələri tətbiq olunur ki, bu da proqressiv vergi sisteminin xüsusiyyətlərinə uyğundur. Burada məsələ ondan ibarətdir ki, əgər vətəndaş əvvəllər 2500 manatadək olan məbləğin 14 faizi qədər vergi verirdisə, faktiki olaraq 2026-2027-ci illərdə 3 faiz ödəyəcək. Amma onun pensiya fonduna olan ödənişi əvvəlki kimi 10 faiz qalacaq. Burada da hökumətin əsas məqsədi gələcəkdə vətəndaş pensiyaya çıxdıqda pensiya kapitalının formalaşdırılması üçün ödəmələrinin saxlanmasıdır. Yəni birbaşa 14 faizin cəmi 7 faizini ilk pillədə vətəndaşın gəlirlərindən tutulması planlaşdırılır. Ümumi şəkildə 2500 manatadək əməkhaqqı alan şəxslərin vergi yükü cəmi 3 faiz artmış olacaq. Belə ki, əvvəl əgər 2500 manatadək əməkhaqqı alan şəxslərdə ümumi maaşdan tutulmalar təqribən 12,5 faiz idisə (10 faiz pensiya fondu, 2 faiz icbari tibbi sığrta fondu və 0,5 faiz məşğulluq fondu), artıq bu rəqəm 15,5 faizədək artmış olacaq. Yəni növbəti illərdə artım prosesinə uyğun olaraq vətəndaşın 2500 manadək olan əməkhaqqından tutulmalar 19,5 faizə yüksələcək və bununla da proses yekunlaşacaq.



# Türkiyə şirkəti ilə “yaşıl” enerji əməkdaşlığı



**Energetika nazirinin müavini Samir Vəliyev və Türkiyənin külək enerji sənayesində fəaliyyət göstərən “Ataseven Group” şirkətinin sədri Mustafa Atasevenin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. Bu barədə XQ-yə Energetika Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, görüşdə şirkətin Türkiyədə külək elektrik stansiyalarının qurulması ilə yanaşı, turbin avadanlıqlarının istehsalı və onların, eləcə də istehsal olunan enerjinin ixracı sahəsində fəaliyyəti barədə məlumat verilib. Azərbaycanla bu istiqamətdə əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Azərbaycanda həyata keçirilən “yaşıl” enerji, o cümlədən külək enerjisi layihələrindən bəhs edilib. Qeyd edilib ki, bərpaolunan enerji avadanlıqlarının yerli istehsalı və “yaşıl” enerjinin ixracı Azərbaycanın yaxın gələcək üçün gündəliyində yer alan məsələlərdəndir. Söhbət zamanı sözügedən istiqamətlər üzrə əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə müzakirələrin davam etdirilməsi və şirkətlə Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi arasında əməkdaşlıq əlaqələrinin qurulması barədə razılıq əldə olunub.

# Ələtdə günəş panelləri buraxılacaq



**Ələtdə günəş panelləri istehsal edən yeni müəssisələr fəaliyyətə başlayacaq. Bu barədə Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov İstanbul Sənaye Palatasının məclis üzvləri ilə Bakıda keçirilmiş biznes görüşü zamanı məlumat verib.**

Hazırda Ələt Azad İqtisadi Zonasının 200 hektara yaxın ərazisinin olduğunu diqqətə çatdıran sədr bildirib ki, artıq burada 138 hektar sahə investorlara təqdim edilib. Onun sözlərinə görə, yerdə qalan ərazilər üzrə də inşaat işləri bir-iki həftəyə bitəcək və investorların ixtiyarına veriləcək.

V.Ələsgərov qeyd edib ki, indiyədək günəş panelləri istehsal edən 3 fabrik üçün 23 hektar ərazi ayrılıb. Həmin fabriklərdən 1-də günəş panelləri buraxılacaq. Digər 2 fabrikdə isə panellərin istehsalında istifadə olunan silikon kristalları və digər məhsullar hazırlanacaq.

Diqqətə çatdırılıb ki, ötən müddətdə Ələt Azad İqtisadi Zonasında Çin, Hindistan, Rusiya, İsrail və Türkiyə şirkətləri qeydiyyatda keçiblər: “Onlardan 4-ü inşaat işləri aparır. Şirkətlərdən 2-si bu ilin sonunadək razılaşdırılmış məhsullarının istehsalına başlayacaq. Digər 2-si isə müvafiq işlərə başlayıb və növbəti illərdə məhsullarının təqdim ediləcəyi planlaşdırılır”.

*Səhifəni hazırladı:*
*Mirbağır YAQUBZADƏ*
*XQ*



# “Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyur”

## *Prezident İlham Əliyev Zəfər yürüşünün 40-cı günündə İspaniyanın EFE agentliyinə bu həqiqəti bildirmişdi*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il noyabrın 4-də İspaniyanın EFE informasiya agentliyinə verdiyi müsahibədə ölkə rəhbəri həm Vətən müharibəsinin gedişində diqqət çəkən hərbi-siyasi vəziyyəti təhlil edir, həm də işğalçıdan azad olunan ərazilərin miqyası və gələcək hədəflərini, humanitar atəşkəslərin uğursuzluğu səbəblərini və beynəlxalq aktorların roluna dair gözləntiləri bölüşmüşdü.**

Dövlətimizin başçısı müsahibənin əvvəlində artıq hərbi əməliyyatların altıncı həftəsinə başlanıldığını, ötən müddətdə Azərbaycan Ordusunun döyüş meydanında üstünlük nümayiş etdirdiyini, bir-birinin ardınca yaşayış məntəqələrini işğalçıdan geri aldığını bildirirdi. Ölkə rəhbəri, eyni zamanda, ordumuzun genişmiqyaslı döyüş əməliyyatlarını sürətlə aparmasının Silahlı Qüvvələrimizin güc-qüdrətindən xəbər verdiyini xatırladırdı.

Onu da deyək ki, bu müsahibə Azərbaycan Ordusunun Şuşaya doğru irəlilədiyi və müharibənin nəticəsini müəyyənləşdirən son günlərə təsadüf edirdi. Bu səbəbdən dövlətimizin başçısının EFE informasiya agentliyinə bildirdikləri həm beynəlxalq ictimaiyyətə ünvanlanmış strateji mesaj, həm də Azərbaycan cəmiyyətinə ünvanlanan mənəvi-siyasi bəyanat idi.

Prezident İlham Əliyev müsahibədə beynəlxalq hüququn üstünlüyünü, Azərbaycanın ərazi bütövlüyünün bərpasının legitim xarakter daşıdığını qətiyyətlə vurğulayırdı. Ölkə rəhbərinin “Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edir” fikri isə bu mövqenin mahiyyətini dəqiqliklə ifadə edirdi: “Cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanında ötən müddət ərzində Azərbaycan Ordusu, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Silahlı Qüvvələrimizin hücum əməliyyatı uğurla davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın tarixi ərazi bütövlüyünü bərpa edirik…”.

Müsahibədə diqqəti çəkən digər vacib istiqamət isə danışıqlar prosesinə münasibət idi. Prezident İlham Əliyev baş nazir Paşinyanla birbaşa görüşün “məntiqsiz” olmasını vurğulayaraq bildirirdi ki, Ermənistan rəhbərliyi sülh danışıqlarını imitasiya edir, vaxtı uzadır və işğal faktını legitimləşdirməyə çalışır. Bu bəyanat həm Ermənistanın qeyri-konstruktiv siyasətinə cavab idi, həm də Azərbaycanın diplomatik çevikliyini nümayiş etdirirdi.

Azərbaycan liderinin çıxışında vurğulanan mühüm məsələlərdən biri də regionda güc balansına dair mesaj idi. Belə ki, Prezident İlham Əliyev respublikamızın heç bir xarici qüvvənin diktəsi ilə deyil, öz milli maraqları və beynəlxalq hüququn prinsipləri çərçivəsində hərəkət etdiyini bildirirdi. Bu bəyanat həm ölkəmizin müstəqil siyasət yürütdüyünün təsdiqi, həm də yeni reallıqların siyasi əsaslandırılması idi. Bununla yanaşı, müsahibədə Azərbaycan Ordusunun yüksək peşəkarlığı, mülki əhaliyə qarşı əməliyyatların məqsədli şəkildə yönəldilməməsi və döyüşlərin beynəlxalq humanitar hüquqa uyğun aparılması vurğulanırdı. Bu mesajlar Qərb auditoriyasında obyektiv qavrayış formalaşdırmaq məqsədi daşıyırdı.

Müsahibə, eyni zamanda, informasiya diplomatiyasının parlaq nümunəsi idi. Prezident İlham Əliyev suallara qısa, dəqiq və faktlara əsaslanmış cavablar verməklə Azərbaycan mövqeyini emosiyasız, lakin prinsipiallıqla ifadə edirdi. Bu, beynəlxalq mediada yayılan təhriflərə qarşı ən səmərəli cavab üsulu idi. Azərbaycan liderinin EFE kimi Qərbin nüfuzlu xəbər agentliyinə müsahibə verməsi də təsadüfi deyildi, burada Avropa ictimaiyyətinə, xüsusilə də ispandilli media məkanına ölkəmizin ədalətli mübarizəsini birbaşa qaynaqlardan çatdırmaq əsas məqsəd idi.

Prezidentin müsahibəsi həm daxili, həm də beynəlxalq səviyyədə psixoloji və siyasi əks-səda doğurdu. Daxildə bu çıxış xalqın mübarizə əzmini möhkəmləndirdi, orduya və rəhbərliyə inamı artırdı. Xaricdə isə Azərbaycan liderinin diplomatik peşəkarlığı, arqumentlərinin hüquqa əsaslandığı xüsusi diqqət çəkdi. Bu baxımdan ölkə rəhbərinin EFE agentliyinə verdiyi müsahibə beynəlxalq aləmdə 44 günlük müharibə zamanı Azərbaycan diplomatiyasının ən uğurlu kommunikasiya aktlarından biri kimi dəyərləndirildi.

İlham Əliyevin 4 noyabr 2020-ci il EFE müsahibəsi Azərbaycanın haqq səsini dünyaya çatdırmaqla yanaşı, postmüharibə dövrü üçün siyasi və ideoloji çərçivənin formalaşmasında mühüm rol oynadı. Müsahibə, əslində, Azərbaycanın qələbə diplomatiyasının konseptual başlanğıcı idi. Bu çıxışla Prezident İlham Əliyev həm beynəlxalq hüquqa söykənən mövqeyi təsdiqlədi, həm də Azərbaycan xalqının milli birliyini gücləndirdi.

Müsahibədə dövlət başçısının “Hər iki tərəf artıq 3 humanitar atəşkəslə bağlı razılığa gəlib. Lakin razılaşmanın müddəti heç bir neçə dəqiqə belə çəkməyib. Nəyə görə müharibəni 3 dəfə dayandırmaq və danışıqlara başlamaq mümkün olmayıb?” sualına cavabı da diqqət çəkib. Prezident bunu – atəşkəslərin işləməməsini doğru olaraq Ermənistanın artıq Azərbaycanın azad edilmiş ərazilərini geri almaq cəhdi ilə əlaqələndirib: “İşğalçı əlindən geri alınan torpaqları yenidən işğal etmək istəyirdi. Ona görə də humanitar məqsədlərlə elan olunan bu atəşkəsdən resursları səfərbər etmək və yeni hücuma keçmək üçün istifadə etmək məqsədi güdürdü. Bunu gerçəkləşdirə bilməyəndə isə Ermənistan ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə ballistik raketlə hücum edirdi, dinc sakinləri qətlə yetirir, mülki infrastrukturu dağıdırdı”.

Azərbaycan lideri müsahibədə müharibənin gedişində respublikamızın mövqeyini dəfələrlə diqqətə çatdırdığını, əsas vəzifənin ölkənin ərazi bütövlüyünü bərpa etmək, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünü öz doğma torpaqlarına, onların əsrlərboyu yaşadıqları ərazilərə geri qaytarmaq və bundan sonra həmin yaşayış sahələrində soydaşlarımızla erməni icması arasında sülh şəraitində birgəyaşayışı reallaşdırmaq olduğunu bildirib. Ölkə rəhbəri Azərbaycanın mövqeyinin sağlam düşüncəyə, humanitar zəminə əsaslandığını və beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyini də diqqətə çatdırıb. Prezident İlham Əliyev daha sonra deyib: “Ermənistan kompromisdən danışanda konkret heç nə demir. İşğalçı yalnız öz müqəddəratını təyinetmədən danışır, amma öz müqəddəratını təyinetmə onlar tərəfdən kompromis deyil. Onlar öz mövqelərində daha dəqiq olmalıdırlar, çünki hazırda o, çox qeyri-müəyyəndir. Ona görə də biz Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxması üçün vaxt cədvəli tələb etdik və biz bunu toqquşmaların ilk günündən tələb etdik. Beləliklə, əgər Ermənistan bizə qulaq assaydı və məntiqlə davransaydı, bu gün biz hazırda qarşılaşdığımız vəziyyətdə olmazdıq. Müharibə bəlkə də bir ay əvvəl bitərdi…”.

Prezident İlham Əliyevin jurnalistin “Əgər belə olmasa, Sizin üçün yalnız hərbi variant mövcuddur?” sualına cavabı da Azərbaycanın haqq yolundakı qətiyyətli mübarizəsindən xəbər verirdi: “Başqa yol qalmır, bilirsiniz, başqa variant yoxdur. Biz hərbi əməliyyatları davam etdirmək istəmirik və mən dəfələrlə demişəm və bu gün də təkrar edə bilərəm, əgər Ermənistanın baş naziri şəxsən özü, bu qan tökülməsinə görə məsuliyyət daşıyan şəxs belə bir bəyanat versə, biz dərhal dayanmağa hazırıq, dərhal. Mən sözünə əməl edən insanam və biz bunu edərik. Lakin o, bunu demir. O, vaxt qazanmaq istəyir, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir, Azərbaycana qarşı yeni hücumlar etmək və bizim azad etdiyimiz əraziləri geri almaq üçün bu atəşkəsdən istifadə etmək istəyir. Onun niyyəti bundan ibarətdir”.

Azərbaycan lideri Ermənistanın işğalçılıq siyasətindən əl çəkmədiyini yaxşı bildiyi üçün Paşinyanla bir masa arxasında oturmağın heç bir əhəmiyyətli məna kəsb etmədiyini düşünürdü. Müharibə başlanmazdan əvvəlki son iki il ərzində dövlətimizin başçısı Paşinyanla çoxsaylı görüşlər keçirmişdi, lakin bu təmaslar tamamilə səmərəsiz və mənasız olmuşdu. Düzdür, baş nazir Paşinyan ilk görüşlərdə dövlətimizin başçısına “Ermənistan “inqilabdan” sonra siyasi cəhətdən öz mövqeyini gücləndirəcək və əsas prinsipləri yerinə yetirmək üçün konstruktiv şəkildə işləməyə hazır olacaq” kimi müsbət vəd vermişdi. Lakin bir ildən sonra o, tamamilə fərqli sözlər dedi. “Azərbaycana qaytarılası bir santimetr belə torpaq yoxdur, Qarabağ Ermənistandır”, – bildirdi. Eyni zamanda, Azərbaycanın Dağlıq Qarabağdakı qondarma qurumun dırnaqarası “rəhbərliyi” ilə danışıqlar aparmasının zəruriliyini vurğuladı. Prezident İlham Əliyev sözügedən müsahibədə Paşinyanın bu fikirlərini xatırladaraq dedi: “O, danışıqlar prosesini pozmaq üçün hər şeyi etdi. Ona görə də hazırda mən onunla görüşməkdə bir məna görmürəm. Bu yaxınlarda bizim xarici işlər nazirlərimiz Cenevrədə görüşüblər və mən düşünürəm ki, hazırda bu, təmaslar üçün doğru formatdır”.

Yeri gəlmişkən, xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan hələ 2019-cu ilin avqustunda işğal altındakı Xankəndi şəhərinə qanunsuz səfəri zamanı “Qarabağ Ermənistandır və nöqtə” sözlərini işlətmişdi. Ardından həmin ilin sentyabrında Vanadzor (Qarakilsə) şəhərində keçirdiyi mətbuat konfransında da eyni sözləri təkrarlamışdı.

Prezident İlham Əliyev müsahibənin sonunda 30 il ərzində Minsk qrupunun işğal edilmiş ərazilərin qaytarılması üçün heç nə etmədiyini və ya bu istiqamətdə heç bir irəliləyişə nail olmadığını da diqqətə çatdırdı. Başqa sözlə, Minsk qrupu əraziləri boşaltması ilə bağlı Ermənistana təzyiq göstərmək üçün mövcud alətlərdən istifadə etmədi. Halbuki bu qrupa üzv dövlətlərdən hər birinin birtərəfli qaydada Ermənistana təsir etmək üçün kifayət qədər vasitələri – hərbi, siyasi, iqtisadi, eləcə də diaspor dəstəyi var idi. Ən başlıcası isə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə laqeyd münasibət bəslənildi. Ona görə də nəticənin olmaması faktı, əlbəttə ki, onların bacarmadığından çox istəmədiyini nümayiş etdirdi.

***Vaqif BAYRAMOV***
***XQ***

# Vətən müharibəsinin xronikası

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.***



## 5 noyabr

• Müdafiə Nazırliyinin məlumatın görə, döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə və Xocavənd istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

• Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib.



• Müdafiə Nazirliyi Füzuli və Xocavənd rayonlarının işğaldan azad edilən kəndlərinin videogörüntülərini yayıb.

• Cəbhənin Tərtər istiqamətində Azərbaycan Ordusu bölmələrinin həyata keçirdiyi əməliyyat nəticəsində düşmənin hərbi infrastrukturuna ciddi ziyan vurulub. Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dəqiq artilleriya zərbələri ilə dağıdılıb.



• Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin döyüş meydanında atıb qaçdığı və qənimət olaraq bölmələrimizin ələ keçirdiyi hərbi texnikaların görüntülərini paylaşıb.

• Ermənistan ordusu Goranboyun kəndinə “Smerç” raketi atıb.

• Ermənistan silahlı qüvvələrinin 41-ci artilleriya alayının batareyası və hərbi kolonu pusquya salınaraq məhv edilib.

• Baş Prokurorluğun məlumatına əsasən, düşmənin təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 5-dək 92 mülki şəxs həlak olub, 404 nəfər xəsarət alıb, 2971 ev, 100 çoxmənzilli yaşayış binası və 502 mülki obyekt yararsız vəziyyətə düşüb.

***Mustafa KAMAL***
***XQ***



*Vətən müharibəsi qəhrəmanları*

# 44 günlük savaşın 40 günlük döyüşçüsü



**Bu sətirlərin müəllifi Vətən Müharibəsi Qəhrəmanı Adil İbrahimli ilə eyni təhsil ocağının - Sumqayıtdakı 14 nömrəli məktəbin məzunu olması ilə fəxr edir. Ayrı-ayrı vaxtlarda olsa da, məhz həmin məktəbin siniflərində oturmuş, həyətində gəzmiş, idman meydançasında top qovmuşuq. Məktəbimiz indi onun adını daşıyır.**

Baş leytenant Adil İbrahimli əsl peşəkar hərbçi olub. Əvvəlcə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, ardınca isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirmişdi. Son vəzifəsi qrup komandiri və baş kəşfiyyatçı idi. Silahdaşları onun cəsarətindən, müharibənin ən qızğın döyüşlərindəki şücaətindən, son damla qanınadək vuruşmasından iftixarla danışırlar.

Adil 2015–2017-ci illərdə Milli Ordunun "N" saylı hərbi hissəsində qulluqda olub. Sonra isə Xüsusi Təyinatlı Qüvvələrin sıralarında baş kəşfiyyatçı, qrup komandirinin müavini, qrup komandiri vəzifələrində xidmət edib. Türkiyədə 1 illik "Komando" kursunu fərqlənmə ilə bitirib. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində hünərini parlaq şəkildə göstərə bilib.

O, Murovdağ uğrunda gedən ölüm-dirim savaşında, Cəbrayıl, Suqovuşan, Füzuli, Hadrut, Şuşa döyüşlərində iştirak edib, 40 gün vuruşub. Son əməliyyat tapşırığı Xocavənddə olub. Orada da böyük rəşadət göstərib, yaralı olsa da, yerə çökməyib, geri durmayıb. Noyabrın 7-də Böyük Qələbəyə saatlar qalanda şəhidlik zirvəsinə yüksəlib.

Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası ilə bağlı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Adil İbrahimli ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Həmçinin "Vətən uğrunda", Kəlbəcərin, Xocavəndin, Şuşanın və Cəbrayılın azad olunmasına görə medalları ilə təltif olunub.

Adil İbrahimlinin dəfn mərasimi zamanı həyat yoldaşı Nargül xanım da çiynini onun tabutunun altına verib. Nargül İbrahimli həm də "Azərbaycan bayrağı" ordenli şəhid leytenant Elton Qənbərlinin bacısıdır. Onun dedikləri:

- 20 gün ərzində qardaşımı və ömür-gün dostumu itirmişəm. Adillə Eltonu Zəfər adlı bir ağacın iki budağı timsalında görürəm. "Vətən sağ olsun!" deyərək, itkilərin ağrısına sinə gərmiş, anama və qayınanama dayaq olmuşam. Adil Eltondan 5 yaş böyük idi. Hər ikisi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirmişdilər. Şəhid olanda Adil baş leytenant, Elton isə leytenant rütbəsində idi. Belə oğulları olan Vətən basılmaz.

Adilin atası - Birinci Qarabağ müharibəsinin qazisi Asəm kişi də əsl vətənpərvərdir. 1992-ci ildə müharibəyə könüllü gedib. Elə həmin ildə dünyaya gəlmiş Adildə hərb sahəsinə marağı da o və əmisi – HHQ-də xidmət etmiş polkovnik Elman İbrahimov oyadıb.

Asəm kişinin dedikləri:

- Adil hərbi təhsil aldıqdan sonra zabit kimi Vətən qulluğunda layiqincə dayanıb. 2017-ci ildə XTQ-yə qəbul edilib və orada fəaliyyət göstərdiyi zaman daşıdığı ada layiq olduğunu dəfələrlə sübut edib... Son dəfə Adillə oktyabrın 30-da danışdım. Dedi ki, ata, işlərimiz yaxşıdır. Təlimlərimiz yaxşı gedir. Heç vaxt "döyüş" deməzdi. Tezliklə qayıdacağını söylədi. Amma ömründə ilk və son dəfə yalan danışdı balam...

Qürur duyuram ki, belə bir igidin atasıyam. Bir dəfə general Hikmət Mirzəyevlə görüşəndə mənə dedi: "Sağ ol ki, belə igid böyütmüsən". 2021-ci il sentyabrın 27-də Anım Günü münasibətilə Bakının mərkəzində keçirilən yürüşdə Prezident, Ali Baş Komandan İlham Əliyev oğlumun şəklini əlində tutmuşdu. Biz Adilin şəklinin ön sıralarda olacağını bilirdik, amma Prezidentimizin onu tutacağını bilmirdik. Bununla hədsiz dərəcədə fəxr edirəm.

Qəhrəmanın atası özü müharibə iştirakçısı olsa da, veteran vəsiqəsi almayıb. Deyib ki, Birinci Qarabağ savaşında torpaqları qoruya bilməmişik, şəhidlərin ruhundan ayıbdır. Amma Zəfər yürüşünün öncüllərindən olan oğlunun dövlət təltiflərini tutiya kimi qoruyub saxlayır, kiməsə göstərəndə də sevincdən gözləri yaşarır.

***Ə.ƏLİYEV***
***XQ***

# Kamilin kamillik yolu

**30 illik vətən həsrətinə son qoymaq uğrunda aparılan əks-hücum əməliyyatlarında canını fəda edən Şixmuradov Kamil Şixəmməd oğlu 1997-ci ilin iyul ayında Xaçmazdan həqiqi hərbi xidmətə çağırılıb.**

1997–1999-cu illərdə Naxçıvan MR-da "N" saylı hərbi hissədə sürücü-elektrik, 1999-cu ilin fevral-iyul aylarında "N" saylı hərbi hissədə atıcı vəzifəsində müddətli həqiqi hərbi xidmətini başa vuraraq ehtiyata buraxılıb. 2004-2008-ci illərdə Azərbaycan Dövlət Dəmir Yollarının Təhlükəsizlik Xidmətinin Yalama Yüklərin və Obyektlərin Təhlükəsizliyi komandasında atıcı vəzifəsində çalışıb. 2014-cü ildən Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə daxil olaraq "mühəndis-istehkamçı" ixtisası üzrə manqa komandiri və taqım komandirinin müavini – manqa komandiri kimi xidmət edib. Xidməti vəzifələrini layiqincə yerinə yetirdiyinə görə komandalıq tərəfindən baş çavuş hərbi rütbəsi verilib. Şəhidimiz, həmçinin 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısı olub, Lələtəpə uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb. 2018-ci ildə Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə "Azərbaycan Ordusu 1918-2018" yubiley medalı ilə təltif edilib.

Anası Sürəyya xanım söyləyir ki, Kamil çox istiqanlı olub. Bir dəfə də olsun heç kimə acıqlanmadı, səsini qaldırmadı, xətrinə dəymədi. Gülərüz, xoşxasiyyət idi. Uzaqda olmağına baxmayaraq, ailəsinə, uşaqlarına çox bağlı idi. Sonuncu dəfə məzuniyyətə gələndə dedim ki, ay oğul, uşaqların atası yanlarında gərək. Çıx gəl daha. Böyüyürlər, səni istəyirlər, burada ol, yanlarında ol. Gözlərimə baxdı, dedi ki, məni sən belə tərbiyə edibsən. Oğlumu da mənim kimi vətənpərvər böyüdərsən. Uşaqlarım sənə əmanətdir. Dedi və getdi.

Son görüşə gedəndə oğlunu da aparmışdıq. Uşaq baxdı-baxdı ona, dedi ki, ata, mən də hərbi forma istəyirəm. Atam kimi olmaq istəyirəm. O da elə Beyləqanda onun üçün hərbi geyim sifariş etdi. Özünə qismət olmadı, təəssüf ki. Gətirib geyindirə bilmədi, görə bilmədi balasını həmin o formada. Dostları sağ olsun, götürüb gətirdilər, uşağa geyindirdilər. Əminəm ki, o gördü, o hiss etdi bunu, ruhu şaddır. Müharibə başlayanda Bakıda gözümdən əməliyyat olunmuşdum. Çox da tez-tez zəng vurmurdum. Gecə vaxtı telefonda o biri oğlum Mehmanla danışanda eşitdim ki, deyir anam bilməsin.

Qardaşı–ehtiyatda olan polkovnik-leytenant Mehman bildirir ki, 2014-cü ildə Beyləqanda xidmət edirdim. Həmin il MAXE-lərin orduya kütləvi qəbulu başladı. Ordunu professional səviyyəyə çatdırmaq üçün belə bir işə başlanıldı və elan olundu. Həmin dövrdə də mən nizami hissədə çalışırdım. Kamil və iki dayım oğlu səfərbərlik xidmətinə müraciət etdilər və hərbi xidmətə başladılar. Elə oldu ki, apreldə onlar gəldi, may ayının 19-da mən təyinatla Bakıda–Silahlı Qüvvələrin Baş Qərargahında xidmətimi davam etdirməli oldum. Amma orada mənimlə çiyin-çiyinə xidmət göstərən zabitlərlə əlaqə saxlayır, Kamili soruşurdum. O, mənə həmişə başucalığı gətirdi. Mən onunla fəxr edirdim. Hər dəfə xoş xəbərini, xoş sədasını eşidəndə ürəyim dağa dönürdü. Çox məsuliyyətli olduğundan, ən ağır, ən çətin işlərə təyin olunurdu. Özü də elə buna can atırdı.

2020-ci ilin sentyabrın 26-da, axşamüstü mənə şəkillər göndərdi, yazdı ki, qardaş, biz getdik... Mən başa düşdüm ki, bunlar döyüşə gedir. Gündüzlər zəng vurmurdum, gərgin işləyirdilər. İmkan olanda danışırdıq. Füzuli rayonunun Alxanlı kəndində idi ermənilərlə təmas xətti. Elə oradan başlamışdılar. Mühəndis-istehkam qoşun növü elə bir qoşun növüdür ki, onlar olmadan nə xüsusi təyinatlılar, nə kəşfiyyatçılar hücuma keçə bilər. Birinci bunlar ərazini minalardan təmizləyib keçid açmalıdırlar ki, qabağa getmək mümkün olsun.

Kamil xidmət etibarı ilə ən ağır xidmət keçib, ən ağır döyüşlərdə iştirak edib. Çünki Aprel döyüşlərindən sonra ermənilər istehkamlarını daha da möhkəmləndirmişdilər. Beton sədlərdən öncə torpaq sədlər qaldırılmışdı. Bunu bizim tankların, texnikaların önə keçə bilməməsindən ötrü etmişdilər. Kamilgilin dəstəsi həmin ərazini minalardan zərərsizləşdirəndən sonra ilk keçid açılıb. Füzuli alınandan sonra Cəbrayıla gediblər. Hərdən danışırdıq, hər şeyin yaxşı olacağını deyirdi, qələbəyə inanırdı. Noyabrın 1-də Qubadlıda Həkəri çayının sahilində, Sarıyataq kəndində idi. Laçına doğru qoşunlarımızın içəriyə keçə bilməsi üçün alternativ yol açırdılar.

Noyabrın 6-da Qubadlı-Laçın istiqamətində gedən şiddətli döyüşlər zamanı, düşmən arxasına sızmağa çalışan kəşfiyyat qruplarına keçid açdıqdan sonra ara bir az sakitləşib. Kamil olduğu yerdən su götürmək üçün bir az aralanıb. Və həmin vaxt məruz qaldıqları düşmənin artilleriya atəşi nəticəsində aldığı ağır xəsarətlərdən döyüş meydanında qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Mən Bakıda idim, zəng vurdular. Sanki xəbəri bilib-bilmədiyimi yoxlamaq istəyiblər. Amma deməyə ürək etməyiblər. Zabitlərdən biri, axır ki, özündə cəsarət tapıb zəng vurdu, amma onun da deməyə dili gəlmədi. Səsindən, danışığından başa düşdüm ki, Kamili itirmişik. Özüm də hərbçiyəm, bilirdim ki, hər şey ola bilər. Kamil noyabrın 7-də Xaçmaz rayonunun Fərzəlioba kənd qəbiristanlığında dəfn etdik. Mən fəxr edirəm ki, qardaşım hərbi xidmətini layiqincə başa vurub. Vətənə borcunu Şərəflə, vicdanla yerinə yetirib".



Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Kamil Şixmuradov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

***M.MİRZƏ***
***XQ***

# Ədalətin ədalət savaşı

**Vətən müharibəsi başlayanda 19 yaşında cəbhəyə yollanan qorxubilməz oğullarımızdan biri də Ədalət Dəmirovdur.**

2001-ci ilin 9 noyabrında anadan olan Ədalət orta məktəbi Göyçay rayonunun Aşağı Qaraməryəm kəndində bitirib. Ali təhsil almaq, həyatda özünə sənət qazanmaq arzularından öncə hərbi xidmətini başa vurmaq istəyib. 2020-ci il yanvarın 3-də Vətən qarşısında borcunu yerinə yetirmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Göyçay rayon şöbəsindən hərbi xidmətə yola düşüb. 10 ay Ağcabədi ərazisində yerləşən hərbi hissədə nümunəvi əsgər kimi xidmət edib. Müharibəyə də həmin hərbi hissədən yollanıb. Ədalət Vətən müharibəsi başlayandan bir neçə gün sonra – oktyabrın 5-də hərbçi yoldaşları ilə birlikdə Füzuli rayonu uğrunda döyüşlərə göndərilib.

Ədalət Cəbrayılda şəhid olması ilə bağlı xəbəri alanda atası Nüsrət kişi Füzuli rayonuna yollanıb, oğlunun cəsədini axtarıb. "Həlak olanların cəsədini gətirib Füzulidəki xəstəxananın həyətinə yerləşdirirdilər. Övladımı müəyyənləşdirmək üçün qan analizi verdim. 10 gün analizin cavablarını gözlədim. "Sen get, cavab olunca sənə zəng edəcəyik", – deyə bildirdilər. Zəng gəlmədikcə "yəqin oğlum sağdır" deyə ürəyimdə düşünürdüm. Amma vaxt uzandıqca gözləyə bilmədim, yenidən Füzuliyə yollandım. Ədaləti həlak olan hərbçilərin arasından tapdım. Oğlum şəhid olmuşdu..."

Anası Ruhiyyə xanım oğlunun vətən yolunda şəhid olmasından qürurla söz açaraq deyir ki, Ədalət torpaqlarımızın azadlığı uğrunda döyüşüb və şəhid olub. Yeganə təsellim budur. Bir ana kimi oğlumun yoxluğu mənim üçün ağırdır. O evin yeganə oğlu idi. Evin hər yerində onun xatirələri var.

Bibisi Nurə Əsədova üçün də qardaşı oğlunun Vətən uğrunda şəhid olması yeganə təsellidir: "Ədalət çox tərbiyəli və saf uşaq idi. Əsgərlikdə olanda da mənə tez-tez zəng edir, hal-əhval tuturdu. Dəfnində bütün kənd camaatı göz yaşı tökürdü. Elə təmizliyinə görə də Tanrı onu şəhidlik zirvəsinə qaldırdı. Ədalət noyabrın 9-da doğulmuşdu. Telefon danışığımızda "Əgər icazə versələr, ad günümü gəlib evdə qeyd edəcəyəm", – dedi. Amma noyabrın 2-də şəhid olması xəbəri gəldi. Ədalət 19 yaşını məzarda qeyd etdi. O, qəhrəmancasına həlak oldu. Vətən qarşısında borcunu canı ilə ödədi. Bircə təsellimiz odur ki, şəhidlər Tanrının yanında cənnət müjdəçisidirlər. Onlar ölmürlər, zirvəyə yüksəlirlər", – deyə bibisi söyləyir.

Ədalət Aşağı Qaramərycəm kəndinin yeganə şəhididir. Onun adına kəndin girişində bulaq tikilib. Qəhrəman şəhidimiz döyüşə yollananda sonuncu dəfə dostu Davud Babayevlə telefonla danışıb: "Ədalət mənim həm dostum, həm də ən yaxşı sinif yoldaşım idi. Demək olar ki, mənə qardaş əvəzi idi. Nə sıxıntım olsa, onunla bölüşəndə rahatlıq tapırdım" deyə Davud dostundan qürurla söhbət açır: "Ədalətlə uşaqlıqdan bir yerdə böyümüşdük, bir oynayıb, bir gülmüşdük. Qəmimiz də, sevincimiz də bir idi. Məktəb illərində çox sakit, tərbiyəli şagird kimi bütün kollektivin rəğbətini qazanmışdı. Ədalət tərbiyəsi, əxlaqı ilə seçilirdi. O, həmişə sakitliyi sevirdi. Sülhsevər biri idi. Ən çox futbola marağı vardı. Hər futbol oynayanda "Məni də gözləyin, başlamayın ha..." dediyi daim qulağımda səslənir. İdmandan başqa 2-ci hobbisi balıq tutmaq idi. Hamıdan çox balıq tutmaq istəyirdi. Həmişə deyərdi ki, mənsiz balığa getməyin. İstədiyi hər şeyə can atırdı. Mərd idi, düzgünlüyü sevirdi, heç vaxt yalan danışmazdı. Həm də zarafatcıl idi, qəribə gülüşü vardı. Heç vaxt o sima yadımdan çıxmaz".

Dostu danışır ki, Ədalət məktəbdə oxuyanda hərbi hazırlıq dərsini daha çox sevərmiş. Məhz bu marağı onun vətənpərvər yetişməsində böyük rol oynadı. Ədalət döyüşə gedən gün mənə zəng vurdu. Həmişəkindən fərqli danışırdı, sanki şəhadətə yüksələcəyini bilirdi. "Görüşmək ümidi ilə" deyib telefonu söndürdü. Təəssüf ki, görüşə bilmədik. Bu, axırıncı danışığımız oldu, ondan sonra onun səsinə həsrət qaldıq. Ədalətin şəhid olması tək ailəsini deyil, bizi də sarsıtdı. Hərdən elə bilirəm ki, nə vaxtsa gələcək, sanki şəhid olmayıb, bir gün zəng edib "mən sağam" deyəcək, bizlə həmişəki kimi danışacaq". D.Babayev dostunun itkisinə nə qədər çox üzülsə də, onun Vətən uğrunda şəhid olmasından qürur duyur: "Nə qədər sarsıdıcı olsa da, bir o qədər də fəxr edirəm ki, mənim dost dediyim şəxs bu gün ən uca zirvədədir - şəhidlik məqamına sahibdir.



O, nəinki ailəsinin, hər birimizin, bütün Azərbaycan xalqının qəlbində xüsusi yer tutur. Məhz belə qəhrəmanlarımız sayəsində illərlə həsrətində qaldığımız doğma yurdumuza - Qarabağımıza qovuşduq.

Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş Ədalət Dəmirov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

***M.MÜŞFİQ***
***XQ***

# Tural Bəklənin adını ucaldıb






**Vətən müharibəsində qazanılan şanlı qələbə Azərbaycan xalqının birliyini, mübarizliyini, qəhrəmanlığını bir daha dünyaya nümayiş etdirdi. Bu qələbə, ilk növbədə, qəhrəman əsgər və zabitlərimizin böyük rəşadətinin təntənəsidir. 44 gün davam edən döyüşlər və qazanılan möhtəşəm qələbə Prezident, Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyətinin, ordumuzun qüdrətinin və xalqımızın milli birliyinin təntənəsi oldu.**

Şanlı qələbəni bizə yaşadanlardan biri də Azərbaycan Ordusunun kəşfiyyatçısı olan Qarayev Tural Şahin oğludur. O, 1991-ci il aprelin 29-da Qobustan rayonunun Bəklə kəndində anadan olub. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı böyük rəşadət göstərərək oktyabrın 1-dən 2-nə keçən gecə Füzuli rayonu uğrunda gedən döyüşlərdə düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. Bir oğlu Onur vətənə yadigar qalıb.

Bu günlərdə Turalın ata ocağında olduq. Bizi şəhidin atası Şahin kişi qarşıladı. Baxışlarında həm ağrı vardı, həm qürur, həm də bir işıq – övladını itirmiş, amma Vətəni qazanmış bir atanın baxışı.

Şahin Qarayevin dediklərindən: "Quranda belə bir ayə var "Mən sizə göz bəbəyindən daha əziz olan övladlar verdim"... Biz də bu Vətən üçün gözümüzdən daha əziz olanı verdik... Tural hələ uşaqlıqdan çox vətənpərvər oğul idi. Birinci Qarabağ müharibəsində əmisi oğlu Qarayev Kənan da şəhid olmuşdur. Qeyd edim ki, Kənan Qobustan rayonunun Bəklə kəndində anadan olub. O, 1993-cü ilin əvvəllərində hərbi xidmətə çağırılıb, çevik və bacarıqlı olduğu üçün Birinci Qarabağ müharibəsində xüsusi təyinatlı əsgər kimi döyüşlərə qatılıb. 1993-cü il iyulun 8-də Kənan Ağdam uğrunda gedən döyüşlərdə ömrünün gənc çağında şəhadətə qovuşub. Kənanın və bütün nakam gedən şəhidlərin qanını yerdə qoymayacağına and içmişdi Turalım.

Oğlum müddətdən artıq hərbi xidmətdə kəşfiyyat qrupunda xidmət edirdi. Sentyabrın 27-də briqada olaraq onları Füzuli rayonuna apardılar. Biz bunları sonradan bilmişik. Döyüş bölgəsində olarkən tez-tez zəng vurub deyirdi ki, narahat olmayın, hər şey əladır, Qələbəmizə az qalıb. Mən qürur hissi ilə deyirəm ki, Tural və Kənan kimi oğulların sayəsində Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımıza Zəfər sevincini yaşatdı. Ölkəmizdə şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığımı bildirirəm".

Turalın anası Səmayə xanımın səsi elə yanğılı idi ki… elə bil, hər kəlməsi bir atəş parçası kimi düşürdü insanın ürəyinə. "Oğlumun qoxusu hələ də evdən getməyib, Vətən sağ olsun" – deyəndə, boğazında düyün, gözlərində yaş dondu. Bu söz insanın qəlbini param-parça edir. Ana ürəyi, şəhid anası ürəyi – həm yanır, həm də "Vətən sağ olsun" deyə bilir… Bu necə böyük ürəkdi, Allahım? Öz canından can verdiyi balasını şəhid verən ananın belə dözümlü, qürurlu olması ancaq müqəddəs analara xas olan bir gücdür. Ananın baxışında həm dərd vardı, həm qürur, həm də dərin sükutun içində qışqıran bir fəryad. Bu məqamda mənim də sanki dilim-ağzın qurudu. Ona görə də Səmayə xanıma artıq heç bir sual vermədim. Çünki o baxış min sözün yerini tutur, bütün sualları cavablandırırdı.

Turalın qardaşı Ceyhun Qarayev deyir: Tural torpaqlarımızın işğal altında qalması ilə heç vaxt barışmırdı. Həmişə deyirdi ki, bu torpaqları biz azad etməliyik, düşmənin üzərində mütləq qələbəmiz olmalıdır. Qardaşımın adı tarixə yazıldı. Necə mənə arxa-dayaq idisə bir qardaş kimi, eləcə də bütün Azərbaycana qardaş oldu. Cismən yanımda olmasa da, ruhu hər zaman yanımdadır, dayağımdır. O, şəhadəti ilə ölməzliyə qovuşdu. Fəxr edirəm ki, mən Turalın qardaşıyam.

Turalın oğlu Onur sakitcə bir kənarda oturub bizi dinləyir. Ona yaxınlaşıb gəl, səninlə də bir az atan haqqında söhbət edək deyəndə əlimdən tutub məni atasının şəkilləri ilə bəzədilmiş otağa aparır. Xala, gəl bax, atamın şəkilləri hər şeyi danışacaq. Balaca Onurun sözləri məni çox təsirləndirmişdi. Divarlarda asılmış şəkillər sanki Turalın nəfəsini, həyat yolunu, igidliyini danışır. Hər baxışda Vətənə sədaqətin, mərdliyin, cəsarətin izi duyulur. Həqiqətən də Onur düz deyirdi. Mən uşağın bu ağıllı, düşündürücü sözlərindən sonra özümü ələ ala bilmədim. Onurdan göz yaşımı nə qədər gizlətmək istəsəm də, qeyri-ixtiyari gözümdə gilələnmiş yaş süzüldü. Onur mənə dedi: "Xala niyə ağlayırsan? Mənim atam ölməyib sağdır, şəhiddir. Axı deyirlər şəhidlər ölmür. Hər gün bu otaqda onunla söhbət edirəm, o məni eşidir. Mən atamla fəxr edirəm!". Sonra hərbi paltarlarını geyinib atasının şəkilləri önündə dayanıb "mən də atam kimi hərbçi olub Vətənimi qoruyacağam", – dedi.

Bəli, Tural Qarayevin otağı indi sadəcə şəkillərlə bəzədilmiş bir yer deyil – o otaq Vətən sevgisinin, şəhidlik zirvəsinin, ailə sədaqətinin rəmzidir. Otağın hər küncündə bir xatirə, bir nəfəs, bir dua var. Onurun uşaq səsi ilə "ata" kəlməsi səslənəndə, sanki şəhidin ruhu o evdə yenidən gülümsəyir. Turalın həyat yoldaşı Dürdanə Qarayeva indi bu otağın ailənin ən müqəddəs yeri, səssiz təsəlli məbədi olduğunu deyir: "Biz Turalla fəxr edirik. O, bir ata kimi ata, oğul kimi oğul, yoldaş kimi yoldaş idi. İstərdi oğlu hərbçi olsun. İnanıram ki, Onur böyüyüb hərbçi olanda onun ruhu mütləq görüb sevinəcək".

Turalın döyüş yoldaşı qazi Xanlar Məmmədəliyev də onunla bağlı xatirələrini bizimlə bölüşərək dedi: "Turalla mən "N" saylı hərbi hissədə bir yerdə xidmət etmişik. Döyüşlərin başladığı ilk günlərdən biz torpaqlarımız uğrunda mübarizədə birlikdə döyüşmüşük. Füzuli səddi deyilən, tank belə yara bilməyən ərazini biz 93 nəfərdən ibarət kəşfiyyatçılar ermənilərin qurduqları postları alaraq irəliləyirdik. Beləliklə, öz bölməmizdən 10 kilometrədək irəliyə getmişdik. Onu deyim ki, Tural böyük qəhrəmanlıq göstərərək bir neçə postun alınmasında qəhrəmanlıq göstərdi. Postlardan götürülən qənimətlər indi "Qənimətlər parkı"nda nümayiş olunur. Müharibənin 4-cü günü düşmənin açılan tank mərmisindən Tural şəhid, mən isə qazi oldum".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Prezident İlham Əliyevin sərəncamları ilə Tural Qarayev ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Tural Qobustanın İkinci Vətən müharibəsində qəhrəmanlıq göstərən onlarla şəhidindən biridir. Azərbaycan xalqı hər zaman torpaqlarımızın azadlığı uğrunda canını qurban vermiş şəhidlərimizin xatirəsini uca tutur və onlarla fəxr edir. Şəhidlərimiz bizim azadlıq, müstəqillik, qəhrəmanlıq simvolumuzdur.

Ömrünü Vətən yolunda qurban verən Tural qısa bir ömür yaşadı. Lakin elə bir şanlı ömür ki, unudulmaz qəhrəmanlığı, şücaəti ilə əbədiyyətə qovuşdu, əsl Vətən oğlunun çətin məqamlarda edə biləcəyi son borcunu şərəflə yerinə yetirdi. O, igidliyi, qəhrəmanlığı ilə el-obasının, doğmalarının başını uca etdi. Tural qələbəni görməsə də, adını heç zaman unudulmayacaq qəhrəmanlıq salnaməsinə yazdırdı. Nə qədər ki, canını Vətən uğrunda əsirgəməyən igidlərimiz var, Azərbaycan daim yaşayacaq, ucalacaq və qalib gələcək.

***Nurəngiz ADİLQIZI***
***XQ***

**Qlobal istiləşmə nəticəsində iqlim dəyişiklikləri baş verir, su mənbələri quruyur, yağıntı rejimi pozulur. Beynəlxalq təşkilatların araşdırmalarına görə, yaxın onilliklərdə dünya əhalisinin böyük bir hissəsi içməli su qıtlığı ilə üzləşəcək. Su qıtlığı, həmçinin sosial gərginliklərə, hətta regionlararası münaqişələrə səbəb olacaq. Yay aylarında – suya tələbatın kəskin artdığı dövrlərdə – bu problemlər daha qabarıq şəkildə özünü göstərir. İstər içməli, istərsə də suvarma məqsədilə istifadə olunan suların qıtlığı fonunda alternativ su mənbələrinin tapılması və onlardan səmərəli istifadə olunması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan arid iqlim zonasına daxil olduğundan, qlobal su problemlərinin təsiri ölkəmizdə də hiss olunur.**

# “Yeraltı çaylar”ın “sahibi” kimdir?

## *Min illər etibarlı su mənbəyi olmuş kəhrizlər diqqətsizlik hədəfində*





Ölkəmizin yeraltı və yerüstü su ehtiyatları zəngin deyil. Çay sularının ehtiyatlarının, təxminən, 70 faizi qonşu dövlətlərin ərazisində formalaşır, qalan hissə isə daxili çaylardan yaranır. Quraqlıq illərində transsərhəd su ehtiyatlarının həcmi kəskin şəkildə azalır.

**Bu mövzu ilə bağlı Elm və Təhsil Nazirliyinin Torpaqşünaslıq və Aqrokimya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, professor Əlövsət Quliyev ölkəmizdəki vəziyyətə aydınlıq gətirdi:**

– Azərbaycanın su ehtiyatlarının əhəmiyyətli hissəsi transsərhəd çaylar vasitəsilə formalaşır. Son illərdə bu çayların su ehtiyatları qonşu ölkələrin ərazilərində qurulan sugötürücü qurğular vasitəsilə daha çox mənimsənilir. Nəticədə, həmin çaylar vasitəsilə Azərbaycana daxil olan su həcmi əhəmiyyətli dərəcədə azalır. Bu isə ölkə daxilində suya olan tələbatın ödənilməsində ciddi çətinliklər yaratsa da, burada daha vacib bir məsələdən yan keçmək istəmirəm.

Mən bu proseslərin tənzimlənməsində əsas istiqaməti elmi yanaşmada və onun əsasında torpaq-su problemlərinin həllində görürəm. Təbii ki, bu sözlər bir qədər təvazökarlıqdan uzaq səslənsə də, ömrünü elmə və təhsilə həsr etmiş bir alim kimi danışıram.

Bilirsiniz, hər bir dövlətin qüdrətinin əsas dayaqları üç amilə söykənir – güclü elmi potensial, güclü ordu və müdrik rəhbərlik. Şükürlər olsun ki, bu gün Azərbaycanın müdrik rəhbəri, Ali Baş Komandan İlham Əliyev ölkəmizin torpaq bütövlüyünü bərpa etməklə yanaşı, Qarabağda da genişmiqyaslı quruculuq və bərpa işləri aparırıq. Biz də Torpaqşünaslıq və Aqrokimya İnstitutu 30 ilə yaxın fasilədən sonra Qarabağ torpaqlarında torpaq və su tədqiqatları aparırıq. Hazırda alimlərimiz Cəbrayıl, Füzuli, Ağdam, Zəngilan, Laçın, Qubadlı, Kəlbəcər rayonlarında torpaq, su və ekoloji monitorinqlə məşğuldurlar. Yaxın illərdə Qarabağda Torpaq-Su Tədqiqatları üzrə Dayaq Məntəqəsinin yaradılması məsələsi də həllini tapacaq. Bu, həm tədqiqatların davamlılığı, həm də Bakıdan Qarabağa səfərlərlə bağlı xərclərin azaldılması baxımından son dərəcə vacibdir.

Azərbaycan aqrar ölkədir. Bu ölkə torpaq və su ehtiyatlarına görə, əhalinin ərzaq təminatını tam şəkildə qarşılayacaq potensiala malikdir. Lakin müəyyən dövrlərdə – xüsusilə sovetlər sistemi və sonrakı ictimai-siyasi hadisələrin təsiri nəticəsində – baş verən proseslər bizi ciddi şəkildə düşünməyə vadar edir. Nədən başlamaq, nədən nəticə çıxarmaq sualları bu gün də aktuallığını qoruyur. Bu barədə çox danışmaq olar, lakin mən konkret olaraq son səfərlərimiz və aparılan müşahidələr əsasında irəli sürdüyüm bəzi təklif və iradları diqqətə çatdırmaq istərdim. Hazırda Azərbaycanda suvarmanın hələ də primitiv selləmə üsulu ilə aparılması, gecə suvarmalarının təşkil edilməməsi və təsərrüfatlarda hidrometrik işlərin zəifliyi nəticəsində xeyli su itkisi baş verir. Cənab Prezidentin də qeyd etdiyi kimi, ölkədə 50 faizdən çox su itkisi müşahidə olunur. Belə şəraitdə su itkilərinin qarşısını almaq üçün suvarma sistemləri müasir tələblərə uyğun şəkildə modernləşdirilməli, səmərəli idarəetmə mexanizmləri tətbiq edilməlidir.

Azərbaycanda bu prosesin həyata keçirilməsi müəyyən vaxt tələb edir, təxminən, 8–10 il ərzində genişmiqyaslı yenilənmə mümkün olacaq. Lakin bu dövr ərzində suvarma suyuna xüsusi diqqət yetirilməli, hər bir damlanın dəyəri qorunmalıdır. Təəssüflə qeyd etməliyəm ki, hazırda Baş Mil-Muğan və Baş Şirvan kollektorlarında minerallaşmış suların, yəni suvarma üçün yararlı suların kollektorlar vasitəsilə birbaşa Xəzər dənizinə axıdılması müşahidə olunur. Bu isə birinci növbədə, ölkədə suvarmanın müasir formalarının tətbiqini vacib edir. Digər tərəfdən, suyun hər damlasının qədrini bilmək, onun düzgün idarə olunması məsələsi strateji əhəmiyyət daşıyır. Artıq suların səmərəsiz istifadəsi nəticəsində qrunt sularının səviyyəsi yer səthinə yaxınlaşır, bu da bataqlaşma və arid iqlim zonalarında təkrar şorlaşma proseslərinin baş verməsinə gətirib çıxarır. Aparılan çöl müşahidələri göstərir ki, mövcud şəraitdə su ehtiyatlarından düzgün istifadə edilməməsi minlərlə hektar torpağın yaxın illərdə şorlaşmasına səbəb olacaq. Bu, artıq elmi və praktiki cəhətdən təsdiqlənmiş faktdır.

Digər bir mühüm məsələyə diqqət yetirmək istəyirəm. Vaxtilə Azərbaycanda kəhriz sistemlərindən geniş şəkildə istifadə olunurdu. Həmin kəhrizlər vasitəsilə il ərzində 400 milyon kubmetrədək kəhriz suyu təsərrüfatlarda və içməli məqsədlər üçün istifadə edilirdi. Təkcə Gəncə ətrafındakı kəhrizlərdən saniyədə 2,5 kubmetr su əldə olunurdu. Eynilə, Samux, Ağcabədi, Bərdə, Ağdam, Füzuli və Cəbrayıl rayonlarında da kəhriz suları çox səmərəli şəkildə istifadə edilirdi.

Sovet dövründə pambıqçılığın genişləndirilməsi bu rayonlarda kəhrizlərin ikinci plana keçməsinə səbəb oldu. Halbuki kəhrizlər region üçün ən əlverişli təbii drenaj sistemləri idi. Lakin sonradan onlardan götürülən suyun günün tələblərinə cavab verməməsi bu sistemlərin tədricən sıradan çıxmasına gətirib çıxardı. Nəticədə, Samuxda 12, Bərdədə 26, Yevlaxda 3, Ağcabədidə isə bir çox kəhrizlər baxımsızlıq və biganəlik üzündən tamamilə unuduldu. Bu proseslərin nəticəsində həmin rayonlarda qrunt sularının səviyyəsi 8 metrdən 4 metrədək yüksəlib.

Azərbaycanın qədim suvarma sistemi olan kəhrizlərin qorunması və bərpası sahəsində yeni mərhələ 2002-ci ildə, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə başlanıb. Həmin ilin avqust ayında Naxçıvan şəhərində Vayxır su anbarının tikintisi ilə bağlı keçirilən müşavirədə çıxış edərək, mən kəhrizlərlə bağlı yaranmış vəziyyət haqqında geniş məlumat vermişdim. Ulu öndər Heydər Əliyev həmin çıxışı diqqətlə dinləyərək, kəhrizlərin qorunmasının və bərpasının vacibliyini xüsusi vurğulamışdı. Onun tövsiyələri əsasında bu mühüm irsin yaşadılması məqsədilə 2004-cü ildə Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin nəzdində “Kəhrizlər İdarəsi” yaradıldı.

Həmin görüş mənim üçün dönüş nöqtəsi oldu. Naxçıvanın torpaq və su ehtiyatlarını daha dərindən öyrənməyimə səbəb oldu və nəticədə bu istiqamətdə doktorluq dissertasiyamı müdafiə etdim. İşlədiyim illər ərzində Naxçıvan Muxtar Respublikasının rəhbərliyi kəhriz məsələsinə xüsusi diqqət yetirdi. Görülən işlər nəticəsində 200-dən çox kəhriz bərpa edildi və bununla da ildə 60 milyon kubmetr su ehtiyatı yenidən təsərrüfat dövriyyəsinə qaytarıldı.

Naxçıvanda əldə olunan bu uğurlar sonrakı illərdə ölkənin digər bölgələrində də kəhrizlərə marağı artırdı.

Ənənəvi suvarma sistemlərinin əhəmiyyəti yenidən gündəmə gəldi, onların bərpası və elmi tədqiqi prioritet istiqamətlərdən birinə çevrildi. 2016-cı ildən başlayaraq, Azərbaycanın müxtəlif regionlarında kəhrizlərin araşdırılması və qiymətləndirilməsi işlərinə start verildi. 2016–2017-ci illərdə mənim rəhbərliyim altında Gəncə, Qazax və Qarabağ kəhrizlərində, eləcə də 2024–2025-ci illərdə işğaldan azad edilmiş Şərqi Zəngəzur (Cəbrayıl) və Qarabağ iqtisadi rayonlarında (Füzuli, Ağdam) elmi–tədqiqatlar aparılır.Aparılan araşdırmalar göstərdi ki, torpaq islahatı dövründə kəhrizlər nəzərə alınmadığı üçün onların bir çoxu fəaliyyətini dayandırıb.

Lakin bütün çətinliklərə baxmayaraq, xalqın vətənpərvər övladlarının səyləri sayəsində bir çox kəhrizlər bu günədək qorunub saxlanılıb. Bu fakt həm də xalqın qədim irsə və suya olan dərin hörmətinin, ekoloji məsuliyyət hissinin bariz göstəricisidir. Bütün bu faktlar bir daha sübut edir ki, kəhrizlər təkcə su mənbəyi deyil, həm də xalqın tarixi, mədəni irsi və təbiətə münasibət fəlsəfəsinin göstəricisidir. Onların qorunması və gələcək nəsillərə ötürülməsi ölkənin ekoloji, sosial və iqtisadi təhlükəsizliyi baxımından böyük strateji əhəmiyyət kəsb edir.

**– İstər dünyada, istərsə də Azərbaycanda kəhrizlərdən istifadə barədə nə deyə bilərsiniz?**

– Kəhrizlər dünyanın ən qədim hidrotexniki abidələrdən biridir. Onlardan hələ eramızdan əvvəlki dövrlərdə istifadə olunub. Hazırkı arxeoloji tədqiqatlar da göstərir ki, Azərbaycanda aşkarlanan kəhriz qalıqları çox qədim dövrlərə aiddir və bu torpaqlarda suyun dəyərinin minillər boyu necə yüksək qiymətləndirildiyini sübut edir. Azərbaycanın içməli və suvarma suyu baxımından ən etibarlı mənbələrindən biri sayılan kəhrizlər həm ölkənin tarixində, həm də kənd təsərrüfatı ənənəsində mühüm yer tutur. Məlumatlara görə, ölkə ərazisində 1500-dən çox kəhriz mövcud olub. Bu, çox ciddi rəqəmdir və istifadədən kənarda qalmış böyük bir su potensialına malik olduğumuzu göstərir.

1938-ci ildə aparılan rəsmi araşdırmalar nəticəsində 885 kəhriz dövlət qeydiyyatına alınıb və onlardan əsasən suvarma məqsədilə istifadə edilib. Həmin dövrdə bu kəhrizlərin ümumi su sərfi saniyədə 13,5 kubmetr, illik su həcmi isə təxminən 420 milyon kubmetr olaraq qiymətləndirilib. Ən çox su sərfi olan kəhriz Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Xok kəndində yerləşən “Çay kəhrizi”dir – onun saniyəlik su sərfi 120 litrdir. Ən sulu bulaq isə yenə həmin rayonun Qarabağlar kəndi yaxınlığında, 1400 metr yüksəklikdə yerləşən “Asnı bulağı”dır, burada suyun saniyəlik sərfi 85–100 litr arasında dəyişir.

Təəssüf ki, bu gün kəhrizlər vasitəsilə istifadə olunan suyun həcmi, 1950-ci illərdəki göstəricinin cəmi 20–25 faizini təşkil edir. Bu, zaman-zaman baş verən müharibələrin, təbii fəlakətlərin və insanların biganəliyinin nəticəsidir. 1970-ci illərdə Azərbaycan SSR-də fəaliyyət göstərən Meliorasiya və Su Təsərrüfatı Nazirliyində “Kəhrizlər üzrə xüsusi şöbə” mövcud idi. Bu fakt həmin dövrdə kəhrizlərin dövlət səviyyəsində nə qədər önəmli hesab edildiyini göstərir. Lakin 1990-cı illərin əvvəllərində ölkədə baş verən siyasi və iqtisadi çətinliklər, eləcə də Qarabağ müharibəsi bu sahəyə diqqətin azalmasına gətirib çıxardı. Nəticədə, bir çox kəhrizlər baxımsız vəziyyətə düşdü və fəaliyyətdən qaldı.

**– İqlim dəyişikliyi və infrastrukturun köhnəlməsi su itkilərini artırır. Azərbaycanda su ehtiyatlarının azalması fonunda hansı alternativ və davamlı su mənbələrindən istifadə mümkündür?**

– Azərbaycanda iqlim dəyişiklikləri, suvarma infrastrukturunun köhnəlməsi və ənənəvi suvarma üsullarının səmərəsizliyi nəticəsində bu gün 50 faizdən çox su itkisi müşahidə olunur. Bu şəraitdə kənd təsərrüfatının davamlı inkişafı üçün alternativ və ekoloji baxımdan səmərəli su mənbələrinin axtarışı vacib məsələyə çevrilib. Belə alternativlərdən biri, qədim mühəndislik zəkasının şah əsəri sayılan və bu gün də aktuallığını qoruyan kəhriz sistemləridir. Kəhrizlər — torpağın dərin qatlarında toplanan yeraltı suları enerji sərfi olmadan, təbii axınla səthə çıxaran unikal su sistemləridir. Bu sular dağ süxurlarından keçərək təbii şəkildə süzülür, duzsuz və təmiz formaya çevrilir.

Elə buna görə də kəhrizlər həm ekoloji, həm də iqtisadi baxımdan ən səmərəli su mənbələrindən biridir. Xüsusilə şoranlaşma problemi ilə üzləşən ərazilərdə kəhriz suları torpağın bərpasında mühüm rol oynayır. Kür–Araz ovalığında uzun illər ərzində düzgün idarə olunmayan suvarma nəticəsində hidrogeoloji balans pozulmuş, torpaqlar təkrar şorlaşmaya məruz qalmışdır. Bu cür şəraitdə kəhriz suları ekosistemin sabitləşməsində və torpaqların canlandırılmasında mühüm əhəmiyyət daşıyır. Kəhrizlər yalnız ekoloji və aqrar baxımdan deyil, həm də sosial və mədəni mənada böyük önəmə malikdir.

Xalq arasında bu su mənbələri “canlı su” kimi tanınır. Naxçıvan, Qarabağ və Gəncə–Qazax dağətəyi bölgələrində yerləşən qədim kəhrizlər hələ də yerli əhali tərəfindən əkin və məişət ehtiyacları üçün istifadə olunur. Lakin son onilliklərdə bir çox kəhrizlər baxımsızlıq, unudulma və qeyri-peşəkar bərpa işləri səbəbindən sıradan çıxıb. Bu sistemlərin yenidən bərpası və müasir kənd təsərrüfatı siyasətinə inteqrasiyası, həm su ehtiyatlarının səmərəli idarə olunması, həm də iqlim dəyişikliklərinə adaptasiya baxımından son dərəcə vacibdir.

**– Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları tarixi olaraq kəhrizlərlə zəngin ərazilər hesab olunur. Lakin bu bölgələr uzun illər işğal altında qaldığı dövrdə oradakı kəhriz sistemlərinin böyük hissəsi ya tamamilə dağıdılıb, ya da ciddi şəkildə çirklənib. Bununla belə, bu kəhrizlərin bir çoxu texniki baxımdan bərpa oluna bilər.**

– Bəli, Qarabağ və Şərqi Zəngəzur regionları qədim və zəngin kəhriz sistemi ilə tanınır. Bu sistemlər yüzillər boyu həm içməli su, həm də kənd təsərrüfatı üçün suvarma suyu kimi geniş şəkildə istifadə olunub. Kəhrizlər bölgənin kənd təsərrüfatının inkişafında, ekoloji tarazlığın qorunmasında və yerli əhalinin sosial rifahında mühüm rol oynayıb. Təəssüf ki, işğal illəri ərzində erməni işğalçı qüvvələri tərəfindən təkcə yaşayış məntəqələri deyil, həm də suvarma infrastrukturu və kəhriz sistemləri məqsədyönlü şəkildə dağıdılıb və çirkləndirilib. Bu dağıntılar nəticəsində bölgədə ekoloji tarazlıq pozulmuş, qrunt sularının səviyyəsi dəyişmiş, yerli flora və fauna məhv olmuş və ya miqrasiya etməyə məcbur qalmışdır. Bununla yanaşı, torpaqların su rejimi pozulduğundan, kənd təsərrüfatı üçün yararlı ərazilər də zərər görmüşdür. Aparılan elmi-tədqiqat işlərimiz göstərir ki, Qarabağ və Şərqi Zəngəzurda yerləşən bir çox kəhrizlər texniki baxımdan bərpa olunaraq yenidən istifadəyə verilə bilər.

Hazırda işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq və bərpa işləri aparılır, bu prosesdə su təsərrüfatı infrastrukturunun yenilənməsi prioritet istiqamətlərdən biridir. Bu baxımdan, kəhrizlərin bərpası təkcə suvarma məqsədi daşımır, eyni zamanda, dayanıqlı kənd təsərrüfatı inkişafı, ekoloji tarazlığın bərpası və əhalinin məskunlaşmasının davamlılığı üçün strateji əhəmiyyətə malikdir. Statistik məlumatlara görə, Azərbaycanda (Naxçıvan MR istisna olmaqla) rəsmi dövlət qeydiyyatında olan 623 kəhrizdən 332-si Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yerləşib. İşğaldan əvvəl bu bölgələrdəki kəhrizlərdən əldə edilən su həcmləri aşağıdakı kimi idi:

Ağdam rayonu: 98 kəhriz – il ərzində 64,33 milyon kubmetr su; Füzuli rayonu: 71 kəhriz – il ərzində 19,016 milyon kubmetr su; Cəbrayıl rayonu: 111 kəhriz – il ərzində 34,658 milyon kubmetr su; Qarabağın dağlıq hissəsi: 52 kəhriz – illik 4,225 milyon kubmetr su.

Bu rəqəmlər göstərir ki, Qarabağ regionunda kəhrizlərin bərpası ilə ildə təxminən 120–125 milyon kubmetr təmiz, ekoloji cəhətdən sağlam suyun təmin olunması mümkündür. Cəbrayıl rayonunu nümunə götürsək, burada çay şəbəkəsi olmadığından, əhalinin içməli və təsərrüfat suyu əsasən kəhriz və bulaqlardan, XX əsrin sonlarından etibarən isə subartezian quyularından təmin olunub. Bu fakt onu göstərir ki, gələcəkdə Cəbrayılda su infrastrukturunun layihələndirilməsi zamanı kəhrizlərin yerləşmə və məcralatı xüsusiyyətləri mütləq nəzərə alınmalıdır.

Ənənəvi pilləvari (kaskad tipli) Cəbrayıl kəhriz sistemləri dağ ətəklərindən Araz çayına qədər uzanır. Bu sistemlərdə yeraltı suların axını təbii şəkildə tənzimlənib. Lakin sonradan aparılan qeyri-peşəkar müdaxilələr bu balansı pozub, nəticədə bir çox kəhrizlər quruma və sıradan çıxma mərhələsinə çatıb. Qarabağ və Şərqi Zəngəzurda kəhrizlərin bərpası yalnız kənd təsərrüfatı üçün deyil, həm də iqlim dəyişikliklərinə adaptasiya, ekosistemin bərpası və sosial-iqtisadi dayanıqlığın təmin edilməsi baxımından strateji zərurətdir. Bu sahədə işlərin elmi əsaslarla və sistemli şəkildə aparılması ölkənin dayanıqlı inkişaf strategiyasının vacib tərkib hissəsi olmalıdır.

**– Su çatışmazlığı olan müasir dövrdə kəhrizlərdən səmərəli istifadə edilməsinə ciddi ehtiyac yaranıb. Amma bir problem var. Bu, kəhrizlərin naşı adamlar tərəfindən “bərpa” adı altında kosmetik təmiridir ki, bu da onların tarixiliyinin silinməsinə və məhvinə səbəb olur.**

– Tamamilə doğrudur. Bu gün çox az vəsaitlə belə bir kəhrizi bərpa etmək mümkündür, lakin bu iş mütəxəssislər və peşəkar mühəndislər tərəfindən həyata keçirilməlidir. Təəssüf ki, bəzi hallarda naşı şəxslər “bərpa” adı altında kəhrizlərdə yalnız kosmetik təmir işləri aparır, nəticədə bu qədim su sistemlərinin tarixi və konstruktiv dəyərləri məhv edilir. Bu məsələ həm vətəndaş, həm də kəhriz tədqiqatçısı alim kimi məni ciddi şəkildə narahat edir. Belə halların qarşısı mütləq şəkildə aidiyyəti dövlət qurumları tərəfindən alınmalıdır. Kəhrizlərimiz konkret bir dövlət orqanının balansına verilməli, onların bərpası, qorunması və monitorinqi vahid idarəetmə sistemi çərçivəsində həyata keçirilməlidir.

Faktlar da bu narahatlığın əsaslı olduğunu göstərir. Son illərdə bəzi beynəlxalq təşkilatların maliyyə dəstəyi ilə Qazax, Tovuz, Şəmkir, Goranboy, Tərtər və digər rayonlarda icra olunan “kəhriz bərpası” layihələri ətrafında ciddi problemlər yaranıb. Qeyd edim ki, tarixi və milli irsimiz olan kəhrizlər sadəcə texniki qurğu deyil, eyni zamanda min illərlə formalaşmış bir mədəniyyətin, yerli biliklərin və ekologiya ilə tarazlaşmış həyat tərzinin simvoludur. Lakin bu abidələrə yanaşmada tarixilik prinsipləri pozulur, yerli alimlərin və mütəxəssislərin təcrübəsi nəzərə alınmayıb. Bərpa işləri çərçivəsində yerli şəraitə uyğun olmayan texnologiyaların tətbiqi, əsaslı mühəndis layihələndirmənin aparılmaması və elmi ekspertizanın kənarda qalması nəticəsində bir çox kəhrizlər ya yararsız hala düşüb, ya da tam sıradan çıxıb.

**– Real vəziyyəti araşdırmaq üçün mütəxəssis komissiyası yaradılmışdı. Bu komissiya nə kimi neqativ halları aşkar etmişdi?**

– Əvvəlki illərdə bizim tərəfimizdən yaradılmış mütəxəssis komissiyası Ağdam rayonunun Əhmədağalı, Miraşelli və Xındıstan kəndləri ərazisində vaxtilə bərpa edilmiş “Çinarlı”, “Şəmsi”, “Xanəhməd”, “Qurddu”, “Qozlu” və “Heyvalı” kəhrizlərinə baxış keçirmişdir. Aparılan monitorinq nəticəsində müəyyən olundu ki, bu kəhrizlərdə görülən bərpa işləri keyfiyyətsiz və yanlış üsullarla həyata keçirildiyi üçün onların fəaliyyəti tamamilə yararsız hala düşüb. Komissiyanın yekun rəyinə əsasən, burada görülən işlər tamamilə yanlış şəkildə aparılıb, kəhrizlərin gələcəkdə tamamilə sıradan çıxması real təhlükə olaraq qalmaqdadır.

Nəticədə, həmin kəhrizlərin tamamilə sıradan çıxma prosesi davam etməkdədir. Xüsusilə “Çinarlı” kəhrizində “yeni texnologiya” adı altında aparılan bərpa zamanı heç bir mühəndis ölçmə və layihə-sxem tərtib edilmədən, kəhrizin kürə (tunel) hissəsinə plastik borular yerləşdirilib, nəticədə qədim irs abidəsi texniki və tarixi baxımdan yararsız vəziyyətə salınıb. Bu barədə 21 iyun 2022-ci il tarixində “Xalq qəzeti”ndə çıxış edərək mövcud vəziyyət barədə müsahibə verdim. Bu müsahibədə bir çox faktları irəli sürdüm və onlardan çıxış yolları haqqında da təkliflərimi verdim. Təəssüf ki, bu günə qədər həmin məsələlərin bir çoxu praktik həllini tapmayıb.

**– Kəhrizlərin bərpası zamanı yerli mütəxəssis və alimlərin təkliflərindən istifadə edirlərmi?**

– Bərpa işləri aparılarkən yerli mütəxəssislərin rəyi nəzərə alınmayıb. Nəticədə qədim irs abidələri kəhrizlərin qorunması sahəsində fikir və təkliflərin dinlənilməsi və onların həyata keçirilməsi əvəzinə bəzən biganəlayi də rast gəlirik. Bunlar keçicidir. Hazırda minillik tarixə malik bir çox kəhrizlər “bərpa” adı altında mişardaşı və sement kimi müasir tikinti materialları ilə doldurulur. Bu yanaşma nə mühəndislik baxımından, nə də mədəni-tarixi baxımdan qəbuledilən dir. Çünki bu şəkildə təmir olunan kəhrizlərin gələcəkdə inşa tarixi XX əsrə aid ediləcək, nəticədə isə əsl kəhriz mədəniyyəti tariximiz saxtalaşdırılacaqdır. Kəhrizlərin bərpası adı altında həyata keçirilən bu cür özfəaliyyət işləri, əslində, erməni işğalı dövründə dağıdılmış abidələrin dirçəldilməsinə deyil, onların birdəfəlik məhv edilməsinə xidmət edir. Bu, nə beynəlxalq hüquqa, nə də mədəni irsə hörmət prinsiplərinə uyğundur.

Bu məsələ sadəcə texniki xarakter daşımır. Bu, milli irsimizin, tarixi yaddaşımızın və ekoloji təhlükəsizliyimizin qorunması ilə bağlı strateji çağırışdır. Mən aidiyyəti dövlət qurumlarını və ictimaiyyəti bu məsuliyyətin paylaşılmasına çağırıram. Tariximizin, mədəniyyətimizin və su resurslarımızın gələcəyi qeyri-peşəkar yanaşmaların qurbanı olmamalıdır.

**– Siz hazırda apardığınız tədqiqatlarınızda rast gəldiyiniz kəhrizlər barədə nə deyə bilərsiniz?**

– 30 il işğal altında olan kəhrizlərin fəaliyyəti tamamilə dayanmış, hərbi texnikanın, partlayışların nəticəsində kəhriz və quyular bərbad vəziyyətə düşmüşdür. Hazırkı dövrdə yeni kənd və şəhərlərin salınması zamanı kəhrizlər və quyuların əvvəlki vəziyyəti nəzərə alınmır. Ona görə də kəhriz quyularında torpaq çökməsi baş verməkdədir. Kəhrizlər təbii drenaj rolunu oynayan hidrotexniki qurğudur. Babalarımız kəhrizlərdən həm içməli su kimi, həm də suvarma üçün istifadə etmişdirlər. Ötən əsrdə Cəbrayıl rayonunda 111 kəhrizdən 34 milyon kubmetr su istifadə olunub.

**– Hazırda siz bu sahədə tədqiqatlar aparırsınızmı?**

– Bəli, mövcud vəziyyətdə işğaldan azad olunmuş ərazilərinin kəhrizlərində tədqiqat işləri aparılmaqdadır. Belə ki, biz hər bir rayonun 4 kəhrizin planını, profilini, quyuların vəziyyətini, hidrogeoloji şəraiti öyrənərək kəhrizin bərpa layihəsini tərtib etmişik.

Məsələn, Ağdam rayonu Baş Qərvənd kəndi ərazisində yerləşən “Qoca” (orta illik suvermə miqdarı 2.522.880 kubmetr), “Molla Məmmədli” (1.892.160 kubmetr), “Molla Heydər” (2.459.732 kubmetr) və “Mahmud bəy” (473.040 kubmetr) kəhrizlərinin böyük potensial suvermə qabiliyyəti cəmi 7.347.888 kubmetr təşkil etmişdir. Bu göstəricilər göstərir ki, qədim kəhriz sistemi regionun içməli və suvarma suyu təminatında əhəmiyyətli rol oynayır və müasir layihələr üçün etibarlı su mənbəyi kimi qiymətləndirilə bilər.

Əgər 10-15 milyon kubmetr sututumu olan su anbarlarının layihəsi və inşası üçün on milyonlarla manat xərc edilirsə (gələcəkdə anbarın necə doldurulacağı sual altında olduğu halda), bu xərclərin yalnız 10-15%-i qədər etibarlı içməli və suvarma suyu əldə etmək mümkündür. Bu isə qədim kəhriz sistemlərinin səmərəli və iqtisadi baxımdan əlverişli su təminat mənbəyi olduğunu bir daha təsdiqləyir və onların qorunması və bərpası prioritet olmalıdır.

***Söhbəti hazırladı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Bülbül adına Orta İxtisas Musiqi Məktəbində görüş

**Noyabrın 4-də Bülbül adına Orta İxtisas Musiqi Məktəbində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə görüş keçirilib.**

Görüş çərçivəsində Leyla Əliyeva məktəbin fəaliyyəti, tədris prosesi, musiqi otaqları və istedadlı şagirdlərin yaradıcı uğurları ilə tanış olub.

Sonra məktəbin şagirdlərinin iştirakı ilə bədii konsert proqramı təqdim edilib.

Konsert proqramında Azərbaycan və dünya bəstəkarlarının əsərləri səsləndirilib.

Sonda Leyla Əliyeva məktəb kollektivi ilə xatirə şəkli çəkdirib.

*XQ*









*Bəşəri töhfə*

# Böyük Misir Muzeyi yeni ünvanda

## *Qədim sivilizasiyanın əbədi ruhunun təcəssümü*



**Sivilizasiyaların beşiyi olan Misir bəşəriyyətin yaddaşında silinməz iz qoyub. Nilin əzəli həyat verdiyi bu torpaq, minilliklərdir ki, sirli fironları, göylərə ucalan piramidaları və misilsiz mədəniyyəti ilə bütün dünyanı heyrətə salır. Böyük fironların əbədiyyəti təmin etmək üçün inşa etdikləri ehramların əzəmətli kölgəsində Misir bu gün keçmişini müasir sənət və elm platformasına çevirərək yeni bir mədəni dirçəliş elan edir.**

Qədim Giza yaylasının ətəyində, dünyanın yeganə salamat qalmış yeddi möcüzəsindən biri – Böyük Piramidaların və Böyük Sfinksin yaxınlığında ucalan Giza Böyük Misir Muzeyinin (GEM) bu günlərdə rəsmi açılışı mədəni təqvimdə misilsiz bir hadisə kimi yazıldı. Bəşəriyyətin ən qədim sivilizasiyalarından birinin xəzinələrini özündə birləşdirən bu kompleks, sadəcə bir mədəniyyət ocağı deyil, tarixin yükünü gələcəyə daşıyan monumental nailiyyətdir.

Misirin qlobal səhnədəki mövqeyini bir daha təsdiqləyən möhtəşəm muzeyin açılışına dünyanın 70-dən çox ölkəsindən rəsmi nümayəndə heyətləri qatıldı. Onların arasında krallar, şahzadələr, dövlət və hökumət başçıları da daxil olmaqla onlarla yüksək səviyyəli lider var idi. Misir Ərəb Respublikasına işgüzar səfəri çərçivəsində Milli Məclisin sədri Sahibə Qafarova da Böyük Misir Muzeyinin açılış mərasimində iştirak edib.

Təntənəli mərasimdə Misir prezidenti Əbdülfəttah əs-Sisi çıxışında muzeyin divarları arasında sadəcə əşyaların deyil, Misir xalqının minilliklər boyu yaratdığı zəka və ruhun yaşadığını vurğuladı. Prezident nəhəng piramidaları ucaldan və məbədlərin daşlarına əbədiyyət dastanını həkk edən Misir oğullarının dahiliyinə GEM-in ən böyük canlı şahid olduğunu bəyan etdi: "Bu, bir sivilizasiyaya həsr olunmuş dünyanın ən böyük muzeyidir: Misir sivilizasiyası, onun parıltısı əbədidir və onun əzəməti heç vaxt sönməyəcəkdir".

Dünyanın səkkizinci möcüzəsi adlandırılan nəhəng arxeoloji mərkəz 7000 illik Misir tarixinin canlandığı mədəniyyət platformasıdır. 50 hektarlıq geniş ərazisi və milyard dollarlıq dəyəri ilə GEM, Misir incəsənətini qorumaqla yanaşı, ölkəni qlobal turizm xəritəsində tamamilə yeni bir səviyyəyə qaldıracaq iddialı layihədir.



İrlandiyalı Heneghan Peng Architects firması tərəfindən dizayn edilən bu bənzərsiz binanın trapesiya formalı, yarışəffaf divarları Misir səhrasının relyefini və üçbucaq, piramidal motivləri əks etdirir, bununla da qədim və müasir memarlıq arasında vizual bir dialoq yaradır. Ekspozisiyada Misir gücünün monumental rəmzi – II Ramsesin nəhəng heykəli yer alır. Əsas Atriumda yerləşdirilən və hündürlüyü 11 metr ağırlığı isə 83 ton olan 3200 illik abidə, muzeyin nə qədər nəhəg olduğunu sübut edir.

Muzeyin şübhəsiz ki, ən cəlbedici kolleksiyası, gənc firon Tutanhamonun tam arxeoloji kolleksiyasıdır. İlk dəfə olaraq, 1922-ci ildə Kəşflər Vadisində (Valley of the Kings) tapılmış 5398 ədəd artefakt, o cümlədən məşhur Qızıl Ölüm Maskası, taxtları, libasları və cəvahiratları vahid bir məkanda birləşdirilmişdir. Bu, ziyarətçilərə fironun həyatını və axirətə hazırlığını tam kontekstdə görməyə imkan verən bənzərsiz bir təqdimatdır.

Tutanhamon kolleksiyasından başqa, GEM-in mərkəzi elementi hesab edilən Böyük Pilləkən (Grand Staircase) hissəsi xüsusilə diqqətəlayiqdir. Bu pilləkən boyunca Misirin qədim sivilizasiyasının müxtəlif dövrlərinə aid 70-dən çox monumental heykəl nümayiş olunur. Yuxarı qalxdıqca isə burada heykəllər qalereyası açılır və ziyarətçilərə pəncərələrdən Giza piramidalarına möhtəşəm bir mənzərə təqdim edilir. Ekspozisiya, həmçinin GEM-in əsas qalereyaları Misir tarixini Predinastik dövrdən Qreko-Roma dövrünə qədər xronoloji və tematik ardıcıllıqla nümayiş etdirir.

Ən nadir və tarixi cəhətdən əhəmiyyətli eksponatlardan biri də Böyük Piramidanın sahibi, Firon Xufunun 4600 illik Günəş Qayığıdır. Livan sidrindən hazırlanmış möhtəşəm qayığın uzunluğu təxminən 43 metrdir. Fironun ruhunun axirət dünyasında Günəş Tanrısı Ra ilə səma səyahətini təmin etmək məqsədi daşıyan qədim Misir inancının simvolu olan bu qayıq 2021-ci ildə ehtiyatla və xüsusi texniki vasitələrlə köçürüldükdən sonra GEM-in daxilindəki xüsusi pavilyona yerləşdirilib.

Müasir muzey standartlarına cavab verən ekspozisiyada sadəcə artefaktlar sərgilənmir. Burada təhsil mərkəzləri, uşaq muzeyi və ən müasir Bərpa və Qoruma Mərkəzi ilə yanaşı, güclü interaktiv imkanlar təklif olunur. Ziyarətçilər fironların məzarlarını virtual reallıq (VR) vasitəsilə kəşf edə, qədim Misir həyatının interaktiv rekonstruksiyalarında iştirak edə bilərlər.

Bu cür texnoloji yanaşma, qədim tarixi yeni nəsil üçün daha əlçatan və cəlbedici edir. Böyük Misir Muzeyi sadəcə Misir üçün deyil, bütün dünya üçün bir mədəniyyət nailiyyətidir. Minilliklərin xəzinəsini müasir texnologiya ilə birləşdirən bu mərkəz Misir sivilizasiyasına yeni nəzərlə baxmaq və bu qədim tarixə toxunmaq üçün ən ideal məkandır.

***Arzu ƏLİYEVA***
***XQ***

# Media və ailə problemləri

## *Bu mövzu peşəkarlıq, həssaslıq və məsuliyyət tələb edir*




**Dünən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" və Azərbaycan milli mətbuatının yaranmasının 150 illik yubileyi münasibətilə "Ailə, qadın və uşaq məsələləri media müstəvisində: çağırışlar və perspektivlər" mövzusunda konfrans keçirildi. Toplantıda medianın sosial institut kimi rolu, onun etik sərhədləri və yeni kommunikasiya texnologiyalarının doğurduğu çağırışlar müzakirə edildi.**



Məclisdə qeyd edildi ki, müasir medianın ictimai təsir gücü artdıqca, ailə, qadın və uşaq məsələlərinin təqdimatı da daha incə peşəkarlıq və məsuliyyət tələb edir. Cəmiyyətin dəyərlər sisteminə yön verən informasiya siyasətində bu mövzuların işlənmə tərzi yalnız sosial deyil, həm də mənəvi məsuliyyət daşıyır.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova** qeyd etdi ki, Azərbaycanda məişət zorakılığına qarşı mübarizə istiqamətində mühüm addımlar atılıb, gender bərabərliyi üzrə 2025-2027-ci illər üçün Milli Fəaliyyət Planı" da hazırlanıb və müvafiq qurumlarla razılaşdırıldıqdan sonra hökumətə təqdim edilib. Hazırda həmin planın qəbulunu gözləyirik. Bu gün İslam ölkələri yaxın qohum nikahlarının qarşısının alınması istiqamətində Azərbaycan təcrübəsi ilə maraqlanırlar. Qanunvericilikdə yaxın qohumlar arasında nikahların qarşısının alınmasına yönəlmiş dəyişikliklər minilliklərə söykənən bir mənfi adətin aradan qaldırılması idi. Bu nailiyyətlə qürur duyuruq.



Komitə sədri söylədi ki, şəhid ailələrinin sosial dəstək sisteminin gücləndirilməsi çərçivəsində hazırda 34 şəhid xanımı ali təhsil almaq imkanı əldə edib və bu, Komitənin dəstəyi ilə reallaşıb. Ali təhsil üçün yaradılan bu imkanlar çərçivəsində şəhid ailələrinin üzvlərinin gələcəkdə ölkənin inkişafına töhfə vermələri məqsədilə həm maliyyə, həm də inzibati dəstək mexanizmləri təmin edilir. Yeni hüquqi bazanın formalaşması nəticəsində ailə, qadın və uşaqlara yönəlmiş islahatlar sürətlə davam edir.

**Milli Məclisin deputatı Hikmət Babaoğlu** vurğuladı ki, gənclər arasında ailə dəyərlərinin, milli ənənələrin, mənəvi məsuliyyət hissinin təşviqinə yönəlmiş informasiya məhsullarının hazırlanması vacibdir. Azərbaycan cəmiyyətində ailə institutunun möhkəmləndirilməsi, qadınların sosial fəallığının artırılması və uşaqların sağlam mənəvi mühitdə böyüməsi üçün aparılan işlər dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu istiqamətdə medianın düzgün və obyektiv fəaliyyət göstərməsi, həm maarifləndirici, həm də təbliğat xarakterli materialların hazırlanması mühüm əhəmiyyət daşıyır. Biz bu sahədə yeni yanaşmalara, innovativ media layihələrinə ehtiyac duyuruq. Müasir dövrdə medianın üzərinə düşən əsas vəzifələrdən biri də bu ictimai və siyasi şüurun yönünü düzgün müəyyənləşdirməkdir. Mediamız milli gündəm yaratmağı bacarmalıdır.

**Azərbaycan Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid** qeyd etdi ki, informasiya bolluğu içində dərinlik itir, peşəkar analizə ehtiyac isə artır. Dünya dəyişir, media yenilənir, daha çox rəqəmsallaşma və konkretləşməyə doğru gedir. Artıq jurnalistikanın klassik janrları reportaj, müsahibə, şərh və araşdırma yazıları əvvəlki qədər ön planda deyil. Onların yerini daha qısa, sürətli və bəzən səthi xəbərlər tutur. Peşəkar jurnalistikanın qarşısında duran əsas vəzifə bu xaotik prosesi arxada qoymaq və yenidən etibarlı, düşünülmüş sözün dəyərini bərpa etməkdir.

**Azərbaycan Televiziya və Radio Verilişləri QSC nəzdində fəaliyyət göstərən Teleradio Akademiyasının rektoru Almaz Mahmud** söylədi ki, xüsusilə ailə və uşaq mövzuları kimi həssas məsələlərdə jurnalistlərin etik standartlara əməl etməsi son dərəcə vacibdir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu istiqamətdə kifayət qədər dərin və peşəkar tədqiqatlar aparır. Onların hesabatları heç də Avropa standartlarından geri qalmır, hətta bəzi məqamlarda daha praktik yanaşma nümayiş etdirir. Problem budur ki, araşdırmalar mediada kifayət qədər istifadə olunmur. Bu sahədə ixtisaslaşma vacib şərtdir. Jurnalist kiber təhlükələr, onlayn zorakılıq və sosial medianın etik tərəfləri haqqında kifayət qədər bilik sahibi olmalıdır.

**Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu** vurğuladı ki, etik qaydaları pozan xəbər nə qədər diqqət cəlb etsə də, o, cəmiyyətin etibarını itirir. Jurnalistin əsas istinad nöqtəsi peşə etikası normaları olmalıdır. Xüsusilə ailə institutu və uşaqlarla bağlı mövzulara toxunarkən bu normalara əməl etmək zəruridir. Bu, sadəcə, peşə tələbi deyil, jurnalistikanın "qırmızı xətti"dir. Buna görə də jurnalistin səhv etməyə haqqı yoxdur. Hər söz, hər fakt, hər dəyərləndirmə ictimai rəyin formalaşmasında rol oynayır.

***Fidan ƏLİYEVA***
***XQ***

*Seyid Əzim Şirvani–190*

# Gəncədə maarifçi şairə ehtiram



**AMEA-nın Gəncə Bölməsində Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2025-ci il tarixli "Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında" Sərəncamına əsasən hazırlanmış tədbirlər planına uyğun olaraq "Seyid Əzim Şirvaninin şair, maarifçi və publisistik fəaliyyəti" mövzusunda dəyirmi masa keçirilib.**

Tədbir AMEA-nın Gəncə Bölməsi və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə baş tutub. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətən torpaqlarının bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev açıb. O, XIX əsr Azərbaycan ədəbiyyatının və maarifçilik hərəkatının görkəmli nümayəndəsi Seyid Əzim Şirvaninin yubileyinin dövlət səviyyəsində qeyd olunmasının milli-mənəvi dəyərlərimizə, ziyalı irsimizə və maarifçilik ənənələrimizə verilən yüksək qiymətin bariz nümunəsi olduğunu vurğulayıb.

Daha sonra dəyirmi masa iştirakçılarının məruzələri dinlənilib.

AMEA-nın Gəncə Bölməsinin elmi işlər üzrə sədr müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Əlimuxtar Muxtarov çıxış edərək, Prezidentin imzaladığı yubiley Sərəncamının klassik ədəbi irsimizə göstərilən dövlət qayğısının təzahürü olduğunu qeyd edib. O, bu Sərəncamın həm Seyid Əzim Şirvani irsinin daha dərindən öyrənilməsinə, həm də yeni nəsil tədqiqatçıların bu istiqamətə cəlb olunmasına mühüm stimul verdiyini vurğulayıb.




AMEA-nın Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Nuriyyə Əliyeva isə Seyid Əzim Şirvaninin həyat və yaradıcılığından danışaraq, onun şeirlərində dövrün ictimai-siyasi problemlərinə, elm və maarifə, eləcə də insan azadlığı ideyalarına verdiyi dərin mənəvi qiyməti önə çəkib.

Humanitar Tədqiqatlar İnstitutunun Ədəbiyyat şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ruziyə Quliyeva çıxışında şairin qəzəllərinin poetik məziyyətlərindən, klassik Şərq poeziyasının ənənələrini milli zəmində yenidən canlandırmaq bacarığından bəhs edib.

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Aləmzər Tağıyeva "Seyid Əzim Şirvaninin yaradıcılığının akademik oxu bacarıqlarının formalaşmasında rolu" mövzusunda çıxış edərək, şairin əsərlərinin müasir təhsil prosesində istifadə imkanlarına diqqət çəkib.

Nizami Gəncəvi Mərkəzinin elmi-fəlsəfi görüşlər şöbəsinin müdiri Xəyalə Hüseynova Seyid Əzim Şirvani yaradıcılığında ilahi eşq və mənəvi kamillik anlayışlarını təhlil edib. O bildirib ki, şairin poeziyasında ilahi sevgi insanı mənəvi saflığa və bəşəri dəyərlərə səsləyən ali bir duyğudur.

Daha sonra Nizamişünaslığın tədqiqi şöbəsinin kiçik elmi işçisi Türkan Verdiyeva şairin mənzum hekayə və təmsillərindəki ədəbi ustalığı, xalq hikmətinə söykənən dərin mənaları diqqətə çatdırıb.

Nizami Gəncəvi Mərkəzinin böyük elmi işçisi Sevinc Mirzəyeva öz çıxışında Şamaxı ədəbi mühitinin formalaşmasında Seyid Əzim Şirvaninin rolunu və bu mühitin Nizami irsi ilə ideya əlaqələrini işıqlandırıb.

Sonda Diyarşünaslıq İnstitutunun Etnoqrafiya şöbəsinin əməkdaşı Aytən Əliskəndərova "Seyid Əzim Şirvani yaradıcılığında maarifçilik görüşləri və multikultural ideyalar" mövzusunda çıxış edərək, şairin əsərlərində insan hüquqları, bərabərlik və dözümlülük kimi müasir cəmiyyət üçün aktual ideyaların əks olunduğunu vurğulayıb.

Çıxışlardan sonra tədbir iştirakçıları Seyid Əzim Şirvaninin zəngin irsinin bu gün də aktuallığını qoruduğunu, onun ideyalarının müasir dövrdə gənclərin mənəvi tərbiyəsində mühüm rol oynadığını qeyd ediblər. Dəyirmi masa geniş elmi müzakirələrlə yekunlaşıb.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Qırğızıstan heyəti AHİK-də



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında ölkəmizin əmək hüquqları sahəsində təcrübəsini öyrənmək məqsədilə Bakıda səfərdə olan Qırğızıstan Həmkarlar İttifaqları Federasiyasının nümayəndələri ilə görüş keçirilib.**



Söhbət zamanı dinamik inkişaf edən Azərbaycan-Qırğızıstan əlaqələrindən danışılıb, yüksək səviyyəli səfərlərin və imzalanan sənədlərin əhəmiyyəti qeyd edilib.

Görüşdə həmçinin Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyəti barədə məlumat verilib, üzvlərin əmək, sosial və iqtisadi hüquqlarının müdafiəsi, layiqli iş şəraitinin təmin olunması istiqamətində görülən işlərdən, tətbiq olunan yeniliklərdən və həyata keçirilən layihələrdən bəhs olunub. Qeyd edilib ki, Əmək və Sosial Münasibətlər Akademiyasının İxtisasartırma və Kadrların İnkişafı Mərkəzində təlimlər və ixtisasartırma kursları, əmək hüquqları, əməyin mühafizəsi və digər mövzularda maarifləndirmə tədbirləri keçirilir. Qırğızıstan həmkarlar ittifaqlarının nümayəndələri də Mərkəzdə təşkil edilən informasiya təhlükəsizliyi, süni intellekt və əmək hüquqlarına dair təlimlərdə iştirak edəcəklər.

Qırğızıstan Həmkarlar İttifaqları Federasiyasının sədri Muradil Cumadilde AHİK-lə əlaqələrin inkişafı istiqamətləri ilə bağlı fikirlərini bölüşüb.

Görüş çərçivəsində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Qırğızıstan Həmkarlar İttifaqları Federasiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Sonra qonaqlar AHİK-də "Çağrı", "Kurort" Turizm İnformasiya və Əməyin Mühafizəsi və Hüquqi Yardım mərkəzləri ilə tanış olublar.

***XQ***

*Zoobaytar nəzarəti*

# Maldarlar ciddi sınaqla üz-üzə

## *Dabağın qabağı niyə vaxtında alınmayıb?*

**Son vaxtlar Azərbaycanın müxtəlif regionlarında saxlanılan ev heyvanları arasında dabaq xəstəliyinə yoluxma halları geniş yayılıb. Mütəxəssislər bildirirlər ki, bu, əsasən xəstə heyvanla birbaşa təmas, virusla çirklənən yem-su, invertar, personalın geyimləri və hava-damcı yolu ilə kütləvi miqyas alıb. İti yoluxucu virusun təsiri ilə bütün cütdırnaqlı, daha çox isə iri və xırdabuynuzlu heyvanların xəstələnməsinə səbəb olub. Virus ağız boşluğunda, məmə uclarında və dırnaqlar arasında ağrılı yaralar yaratmaqla yüksək hərarətlə və məhsuldarlığın kəskin azalması, hətta heyvanların ölümü ilə müşayiət edilib.**

Qida ekspertlərinin sözlərinə görə, dabaq xəstəliyi Azərbaycan üçün endemik xarakter daşıyır. Yəni dabaq viruslarının xəstəliyə həssas heyvanlar arasında və ətraf mühitdə dövr etməsi riskləri hər zaman var. Dabaq həm də transsərhəd xəstəlikdir, başqa sözlə, virus külək vasitəsilə quruda, hətta dəniz üzərindən belə kilometrlərlə məsafədən ətrafa yayıla bilir və qonşu dövlətlərin ərazisindən ölkə sərhədinə keçir. Eyni zamanda, tranzit və digər avtomobillərin üzərində keçməsi də mümkündür. Xəstəliyin peyvəndlənmədən yayındırılan, müxtəlif səbəblərdən peyvəndlənməyən və bu istiqamətdə tədbirlər reallaşdırılmayan digər ölkələrdən idxal olunan heyvanlardan yayılma riski də var.

**Bu məqamda bir sual da diqqət çəkir: Dabağa yoluxmuş heyvan əti insan üçün nə dərəcədə təhlükəlidir?**

**Pediatr-infeksionist Aybəniz Səlimovanın** bildirdiyinə görə, insanın dabaq xəstəliyindən qorunmasının ən vacib üsulu çiy heyvan məhsullarından imtina etməsi, südün və ətin yaxşı bişirilməsi, baytar-gigiyena qaydalarını diqqətdə saxlamasıdır. Dabaq xəstəliyi insana yoluxa bilər, amma bu, çox nadir hallarda olur və yüngül keçir.

Ciddi ictimai sağlamlıq problemi isə əsasən heyvandarlıqda müşahidə edilir, xəstəlik təsərrüfatlara ciddi ziyan vursa da, insanlar üçün risk çox aşağı olur. Baytarlar, ət kəsimi məntəqələrində çalışanlar mütləq əlcək, qoruyucu geyim və maska istifadə etməlidirlər. Yoluxmuş heyvanların müalicəsi ilə məşğul şəxslər gigiyenik qaydalara ciddi əməl etməli, işin sonunda əl-üzlərini yumalıdırlar. Süd yalnız qaynadıldıqdan və ya pasterizə olunduqdan sonra içilməlidir. Çiy süd məhsullarından (xüsusən kənd pendiri, qaymaq) istifadədən yayınılmalıdır. Ət yalnız tam bişirilmiş halda yeyilməlidir. Çiy və ya az bişmiş ətlər, kabab virusa yoluxma riskini artırır.

**Fermer Əbil Hüseynov** söhbətində bildirdi ki, dabaq hər il iki dəfə – yaz və payız aylarında heyvanlarda müşahidə olunur. Xəstəliyin ağır keçməməsi üçün dövlət tərəfindən vaksinasiya həyata keçirilir. Dabağın törədicisi vəhşi heyvanlarda, xüsusən də çöl donuzlarında daha çox nəzərəçarpan RNT tərkibli virusdur. Dabaq virusu ətraf mühitin mənfi təsirlərinə davamlı olmaqla yanaşı, aşağı temperaturlu, yüksəkrütubətli və neytral mühitdə uzun müddət qalır. Onun mənbəyi xəstə və ya yeni sağalmış heyvan hesab olunur. İnkubasiya dövrü isə dəyişkəndir, 2-7 gün, bəzən 14-21 gün çəkir. Xəstəliyə yoluxma nəticəsində ölüm halları heyvanın növündən və yaşından asılı olaraq 1-5 faiz, bəzən isə 20 faiz təşkil edir.



### Ekspert rəyi



**Akif NƏSİRLİ,**
**qida mütəxəssisi**

Son günlər ölkə regionlarında dabaq xəstəliyinin yayılması müşahidə olunur. Bu, fermerlər arasında ciddi narahatlıq yaradır. Hazırda aidiyyəti qurumlar tərəfindən xəstəliyin qarşısını almaq üçün müəyyən profilaktik tədbirlər həyata keçirilir.

Dabaq yoluxucu virus xəstəliyidir və əsasən iribuynuzlu heyvanlarda (inək, camış), xırdabuynuzlu heyvanlarda (qoyun, keçi) və donuzlarda rast gəlinir. Azərbaycanda da çox vaxt şimal bölgələrində yayılması müşahidə olunur.

Xəstəliyin fəsadlarından danışarkən, qeyd edə bilərik ki, bu, ilk növbədə, özünü məhsuldarlığın kəskin azalmasında göstərir. Belə ki, xəstəlik yayılan təsərrüfatlarda süd verimi 50–70 faiz aşağı düşür. Ağız boşluğunda, dırnaqlarda və bəzən cinsiyyət orqanlarında əmələ gələn yaralar heyvanın yem yeməsini, hərəkətini çətinləşdirir. Bala heyvanlar çox vaxt xəstəliyə tab gətirmir. Həm məhsuldarlıq itkisi, həm də ticarət məhdudiyyətləri (xəstəlik olan ərazidən canlı heyvan ixracına qadağa qoyulur) kənd təsərrüfatına ciddi ziyan vurur.

Xəstəlikdən qorunmanın ən səmərəli yolu vaksinasiyadır, davamlı peyvənd kampaniyalarının aparılmasıdır. Eyni zamanda, tövlələrin, alətlərin, nəqliyyat vasitələrinin dezinfeksiyasının həyata keçirilməsi, yoluxmuş və yoluxma şübhəsi olan təsərrüfatların dərhal təcrid olunması zəruridir.

Dabaq xəstəliyində xüsusi bir müalicə yoxdur, əsasən simptomatik yardım (ağız və dırnaqlardakı yaraların təmizlənməsi, antiseptiklər, vitaminlər) göstərilir. Xəstəlik xəstə heyvanların ifrazatları ilə çirklənmiş yem, su, qulluq əşyaları, çiy süd və ondan hazırlanmış məhsullar, xəstə heyvanın çiy əti, gəmiricilər, həşəratlarla yayılır.

Heyvan ətinin dabaq olub-olmadığını istifadə zamanı bilmək asandır. Belə ki, ət kəskin, turşumuş və ya çürük qoxu verirsə, boz, yaşıl, sarımtıl və ya tünd rəngə çalırsa, üzərində ləkələr, qan laxtaları və ya qəribə rəng dəyişiklikləri varsa, yapışqanlı və seliklidirsə, deməli, bu, dabaq heyvanın ətidir. Ona görə də veterinar möhürü olmayan və ya güvənilməyən qəssabdan ət alınmaması məsləhətdir.

Yoluxmanın birinci mərhələsində heyvanın müxtəlif nahiyələrində qabarcıqlar müşahidə edilir, daha sonra virus limfa və qan dövranı ilə bütün orqanizmə yayılır. İnfeksion prosesin gedişatı bədən hərarətinin yüksəlməsi ilə müşayiət olunur. Virus heyvanın ürək və skelet əzələlərinə qədər sirayət edir.

**Kənd təsərrüfatı elmləri namizədi Qənbər Hüseynov** söylədi ki, dabaq virusu zoonoz olduğundan, insan sağlamlığı üçün də təhlükəli sayılır. Nadir hallarda bu xəstəliyə yoluxan insanda titrəmə, temperaturun 39-40$^0$C-dək yüksəlməsi, baş və əzələ ağrıları özünü göstərir. Xəstəliyin başlanğıc dövründə ağız boşluğunda yanma hissi, ağız suyu ifrazının artması, sidik ifrazatı zamanı ağrı və bağırsaqların funksiyasının pozulması qeydə alınır. Bundan başqa, dabağa yoluxmuş insan əsəbi olur, danışmaqda və udqunmaqda çətinlik çəkir. Ağırlaşma halları olmasa, xəstə 5-7 gündən sonra sağalır.

Dabaq iqtisadi itkilərə, o cümlədən heyvandarlıqda ət və süd məhsuldarlığının azalmasına gətirib çıxarır. Xəstəliyə nəzarət və onun aradan qaldırılması tədbirlərinə sərf olunan vəsait, həmçinin heyvan mənşəli məhsulların ixrac və idxal prosesinə tətbiq olunan məhdudiyyətlər dabaq xəstəliyinin yayıldığı ölkənin iqtisadiyyatına böyük zərər vurur. Bu səbəbdən də heyvanların və insanların dabaq xəstəliyindən qorunması, əhalinin heyvan mənşəli təhlükəsiz qida məhsulları ilə təmin olunması üçün təsərrüfatlarda baytarlıq-sanitariya qaydalarına və qida təhlükəsizliyi tələblərinə əməl olunması mühüm önəm daşıyır.

Sonda qeyd edək ki, bölgələrimizdə heyvanlar arasında dabaq xəstəliyinin yayılmasının qarşısının alınması ilk günlərdən diqqətdə saxlanılıb. Qida Təhlükəsizliyi Agentliyi və Kənd Təsərrüfatı Nazirliyi ölkə üzrə profilaktik tədbirləri gücləndirib. Təsərrüfatlarda baytarlıq nəzarəti və monitorinqlərin keçirilməsi mütəmadi xarakter alıb. Kənd Təsərrüfatı Nazirliyi hazırda bu xəstəliyin təhlükə riskinin azaldığını bildirib. Xəstəliklə bağlı **Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin şöbə müdiri, respublikanın baş dövlət baytarlıq müfəttişi Qalib Əbdüləliyev** isə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının müvafiq qərarlarına əsasən, dünyada və regionda müşahidə olunan heyvan xəstəlikləri ilə bağlı dövri qiymətləndirmələr aparıldığını vurğulayıb. Eyni zamanda, Cənubi Qafqaz regionuna daxil olan bir sıra ölkələrdə xüsusi təhlükəli heyvan xəstəliklərinin yayılma riskinin mövcudluğunu da xatırladıb.

Qalib Əbdüləliyevin sözlərinə görə, respublikamızda da endemik xarakter daşıyan xüsusi təhlükəli heyvan xəstəlikləri mövcuddur. Buna görə həm ölkəmizi xaricdən keçə biləcək xəstəliklərdən qorumaq, həm də ölkə daxilində mövcud xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə müvafiq məhdudlaşdırıcı tədbirlərin həyata keçirilməsi diqqətdə saxlanılır.

Respublikanın baş dövlət baytarlıq müfəttişinin sözlərinə görə, ölkədə heyvan kəsiminin mövcud normativ tələblərə uyğunlaşdırılması, müasir tipli kəsim məntəqələrinin yaradılması və qanunsuz kəsim hallarının qarşısının alınması məqsədilə Qida Təhlükəsizliyi Agentliyi tərəfindən nəzarət tədbirləri həyata keçirilir. Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə mütəmadi şəkildə heyvan kəsimi və ət satışı məntəqələrində birgə reydlər təşkil olunur. Aşkarlanan pozuntularla bağlı qanunvericiliyə uyğun tədbirlər görülür, kəsim fəaliyyəti ilə məşğul olan şəxslərə mövcud qaydalar izah edilir və heyvanların yalnız mərkəzləşdirilmiş, müasir kəsim məntəqələrində kəsilməsi barədə icrası məcburi göstərişlər verilir.

Xatırladaq ki, ət məhsullarının baytarlıq ekspertizası aparılmadan satışa çıxarılması qanunla qadağandır. Ət və ət məhsullarının satışı yalnız baytarlıq arayışı və baytarlıq şəhadətnaməsi kimi müşayiətedici sənədlər əsasında həyata keçirilməlidir.

***Vaqif BİNYATOĞLU***
***XQ***

### *Ekspert rəyi*



**Asim VƏLİYEV,**
**qida mütəxəssisi**

Hazırda iri və xırdabuynuzlu heyvanlarda dabaq xəstəliyinin yayılması ilə bağlı ciddi narahatlıq yaşanır. Çünki bu, mal-qara, qoyun, keçi, donuz və digər dırnaqlı heyvanlarda rast gəlinən çox yoluxucu və təhlükəli bir xəstəlikdir. O, yüksək hərarət, ağız və dırnaq nahiyəsində yaralar, heyvanlarda tüpürcək axması kimi əsas əlamətlərlə diqqət çəkir. Ən təhlükəli məqam isə yoluxmuş heyvandan əldə olunan məhsullardır. Ət və süd insan sağlamlığı üçün risk yarada bilər. Çiy və ya yarıbişmiş ət yeyərkən, pasterizə olunmamış süd və süd məhsulları qəbul edilərkən, eləcə də xəstə heyvanla birbaşa təmasda olarkən dabaq xəstəliyinin keçmə etimalı çoxdur.

Bu xəstəlikdən qorunmaq üçün ət yalnız baytarlıq nəzarətindən keçən mənbələrdən alınmalıdır. Küçə kənarında satılan ətlər təhlükəlidir. Eləcə də ət bişirilərkən içərisi tam bişməlidir. Yarıbişmiş və ya çiy ət yeyilməməlidir. Yüksək temperatur dabaq virusunu məhv edir. Süd və süd məhsulları yalnız pasterizə olunan və ya yaxşı qaynadılan formada qəbul edilsə, riski minimuma enər. Çiy süd və ondan hazırlanan məhsullar ciddi risk yaradır. Daha sonra xəstə heyvanla təmasdan uzaq olmaq vacibdir. Zəruri hallarda əlcək və maskadan istifadə edilməsi diqqətdə saxlanılmalıdır. Ətin doğrandığı bıçaq və taxtaları da ayrı saxlamaq, başqa qidalar üçün istifadə etməmək vacibdir.

*Mahirə Hüseynova – 65*

# Zəkalı alim, nurlu pedaqoq, istedadlı şairə




**Dünən Azərbaycan Dövlət Pedaqoji Universitetində görkəmli dilçi alim və tanınmış şairə, bu ali məktəbin prorektoru, professor Mahirə Hüseynovanın anadan olmasının 65 illiyi münasibətilə təntənəli yubiley mərasimi keçirildi.**

Milli Məclis deputatlarının, Elm və Təhsil Nazirliyinin, AMEA-nın, Qərbi Azərbaycan İcmasının təmsilçilərinin, ali məktəbin professor-müəllim heyətinin və digər qonaqların iştirak etdiyi ədəbi-bədii məclisdə yubilyarın mənalı ömür yoluna və zəngin elmi-ədəbi yaradıcılığına, geniş ictimai fəaliyyətinə əhatəli nəzər salındı.



Mərasimi giriş sözü ilə açan ADPU-nun rektoru, professor Cəfər Cəfərov Mahirə Hüseynovanın pedaqoji, elmi və ictimai fəaliyyətindən danışdı, onun həyat və yaradıcılıq yolunun Pedaqoji Universitetlə sıx bağlı olduğunu söylədi. O, qeyd edib ki, yubilyar xanımın bioqrafiyası təhsil aldığı ali məktəbdə müəllimlikdən, kafedra müdirliyindən dekanlığa və elmi işlər üzrə prorektorluğa qədər davamlı yüksəlişlə, çoxsaylı elmi-bədii əsər müəllifliyi ilə zənginləşib. ADPU-nun zəkalı, istedadlı və təşəbbüskar yetirməsi doğma ali məktəbin sonrakı yüksəlişinə layiqli töhfələr verib.

Professor Mahirə Heseynovanın Azərbaycan ali təhsilinin inkişafına, milli elmin və mədəniyyətin təbliğinə, beynəlxalq elmi-pedaqoji əməkdaşlığa səmərəli xidmətini bu gün də yorulmadan davam etdirdiyini söyləyən rektor yubilyarı kollektiv adından səmimi təbrik edərək ona ADPU-nun fəxri fərmanını təqdim etdi.

Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov, Elm və Təhsil Nazirliyinin aparat rəhbəri Mətin Kərimli, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərli, ADPU ədəbiyyat kafedrasının professoru Təyyar Salamoğlu professor Mahirə Hüseynovanın elmi-pedaqoji fəaliyyətindən, bədii yaradıcılığından, tələbə və gənc tədqiqatçılara göstərdiyi qayğı və diqqətdən söz açdılar, təbrik və xoş arzularını çatdırdılar.

Sonda professor Mahirə Hüseynova göstərilən diqqətə, səmimi münasibətə görə iştirakçılara dərin razılığını bildirdi, bundan sonra da Vətənə ləyaqətlə xidmət edəcəyini söylədi.

Mərasim ədəbi-bədii hissə ilə davam etdirildi. Məclisdə yubilyarın yurd sevgili, həyat eşqli şeirləri səsləndi.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Bir ömrün salnaməsi

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor, tanınmış şair Mahirə Nağıqızının 65 illik yubileyi münasibətilə şair-publisist Zaur Ustacın “Mahirə Nağıqızı - 65” monoqrafiyası çap edilib.**

Kitabın məsləhətçisi tanınmış ədəbiyyatşünas Qurban Bayramov, redaktoru Hacıxanım Aida, naşiri isə Tuncay Şəhrilidir.

6 fəsildən ibarət kitabda müəllifin Mahirə Nağıqızının bayatı, şeir, hekayə və məqalələri haqqında yazdığı şərhləri və məqalələri toplanıb. Yubilyarın yaradıcılıq üslubunun, estetik görüşlərinin təhlili baxımından böyük əhəmiyyət kəsb edən monoqrafiya ölkənin əsas kitabxanalarının kitab fondlarına hədiyyə olunmaqla yanaşı, elektron kitab formatında da yayımlanıb.

***Ə.ƏLİYEV***
***XQ***




# Buxarestdə Zəfər Günü münasibətilə rəsmi ziyafət



**Azərbaycanın Rumıniyadakı səfirliyinin təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Günü münasibətilə Buxarestdə rəsmi qəbul keçirilib.**

Səfir Qüdsi Osmanov Zəfər Gününün Azərbaycan xalqının milli qürur və iftixar tarixi olduğunu vurğulayıb. O bildirib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci ilin 44 günlük Vətən müharibəsində tarixi ədaləti bərpa edib, ölkənin ərazi bütövlüyünü təmin edib.

Rumıniya Baş nazirinin müavini Marian Neakşu Azərbaycan xalqına Zəfər Günü münasibətilə təbriklərini çatdırıb. O bildirib ki, Rumıniya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətləri qarşılıqlı etimad və dostluq prinsiplərinə əsaslanır.

Daha sonra Türkiyənin Rumıniyadakı səfiri Özgür Kıvanç Altan çıxış edərək Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edib. O qeyd edib ki, Azərbaycanın 2020-ci ildə qazandığı tarixi Qələbə Türk dünyasının birliyini və qardaşlığını daha da möhkəmləndirib.



Azərbaycan xalqını bu tarixi gün münasibətilə təbrik edən Rumıniya müsəlman icmasının müftisi Yusuf Murat Zəfər Gününün təkcə ölkəmizin deyil, bütün müsəlman dünyasının qürur günü olduğunu bildirib.

Ziyafət bədii proqramla davam edib.

# Milli proqram mühəndisliyi və ölkənin kibersuverenliyi

**Müsahibimiz Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, dosent Tofiq Kazımovdur.**

**– Tofiq müəllim, informasiya texnologiyalarının əsas istiqamətlərindən biri kimi proqram mühəndisliyi nə zaman və hansı zərurətdən yaranmışdır?**

– Proqram mühəndisliyinin meydana gəlməsi obyektiv zərurətdən yaranmış bir prosesdir. 1960–cı illərdə kompüterlər artıq yalnız elmi-tədqiqat mərkəzlərində və hərbi sahədə deyil, sənaye müəssisələrində, dövlət idarələrində və biznesdə də istifadə olunmağa başlamışdı. Bu dövrdə proqramların həcmi böyüdükcə, sadəcə kod yazmaq kifayət etmirdi. Məsələ ondadır ki, o vaxta qədər proqramlaşdırma daha çox “peşəkarlıq, məharət” kimi qəbul edilirdi. Yəni proqramçılar fərdi qabiliyyətlərinə əsaslanır, istədikləri qaydada kod yazırdılar. Nəticədə böyük kollektivlərdə birgə işləmək, uzunmüddətli layihələri idarə etmək və səhvlərin qarşısını almaq çox çətinləşirdi. Bu isə həm iqtisadi, həm təhlükəsizlik, həm də sosial baxımdan ciddi risklər yaradırdı.

Ötən əsrin 60-cı illərində kompüter texnologiyalarının sürətlə inkişafı proqramlaşdırmada bir böhran yaratdı. Belə ki, proqram təminatı layihələri tez-tez planlaşdırılan müddətdən geri qalır, büdcə ilə nəzərdə tutulan xərcləri aşır və çoxsaylı səhvlərlə tamamlanırdı. Bu problemlərin həlli yollarını müəyyən etmək məqsədilə 1968-ci ildə NATO-nun “proqram böhranına” həsr edilmiş konfransı keçirildi və bu konfransda ilk dəfə olaraq “proqram mühəndisliyi” termini işlədildi. Bu termini işlətməkdə məqsəd proqram təminatının hazırlanmasına mühəndislik yanaşması gətirmək idi. Necə ki, körpü tikən mühəndis müəyyən standartlara, riyazi hesablamalara və keyfiyyət tələblərinə riayət edir – eyni prinsip proqram təminatına da şamil olunmalı idi. Yəni bu yanaşma göstərdi ki, proqram sadəcə kod deyil. O, planlaşdırma tələb edir, idarə edilməlidir, uzunömürlü olmalıdır və ən əsası – etibarlı işləməlidir.

**– Dünya təcrübəsində proqram mühəndisliyi hansı əsas inkişaf mərhələlərindən keçib?**

– Bu sahənin inkişaf mərhələləri bir neçə dövrü əhatə edir. Proqramlaşdırma müəyyən bir istiqamət kimi ilk elektron hesablama maşınlarının yaranması ilə meydana gəlmişdir. Bu illərdə proqramlar müəyyən bir aparat üçün fərdi olaraq hazırlanırdı. Proqramlaşdırma adətən riyaziyyatçılar və ya mühəndislər tərəfindən həyata keçirilirdi və sistemli bir yanaşma mövcud deyildi.

Ötən əsrin 60-cı illərində FORTRAN və COBOL kimi dillərin meydana gəlməsi prosesi bir qədər asanlaşdırdı. 80-ci illərdə, proqram təminatının planlaşdırılması, analizi, layihələndirilməsi və sınağı üçün metodologiyaların meydana gəlməsi proqram mühəndisliyinin inkişafına təkan verdi. 90-cı illərdə obyektyönümlü proqramlaşdırmaya keçildi və veb proqramlaşdırma inkişaf etməyə başladı. 2000-ci illərdə çevik metodologiyaların tətbiqi üstünlük qazandı. Son illərdə isə süni intellekt texnologiyalarının tətbiqi proqram mühəndisliyində yeni imkanlar yaratdı.

**– Azərbaycanda proqram mühəndisliyinin formalaşması barədə nə deyə bilərsiniz?**

– Azərbaycanda proqramlaşdırma ötən əsrin 60-cı illərindən inkişaf etməyə başlamış, SSRİ dövründə yüksəkixtisaslı kadrlar yetişdirilirdi. 90-cı illərin əvvəllərində dünyada proqram mühəndisliyi sürətlə inkişaf edirdi. Lakin o dövrə xas olan kompleks problemlər ölkəmizi qlobal texnoloji inkişafdan bir qədər geri saldı.

Müstəqilliyimiz bərpa edildikdən sonra isə vəziyyət dəyişdi. Uğurlu siyasət, sosial-iqtisadi islahatlar, beynəlxalq nüfuzun artması, ölkəmizin müdafiə qüdrətinin möhkəmlənməsi və əhalinin rifahının yüksəlməsi proqram mühəndisliyi üçün də yeni imkanlar açdı. Ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı “2023–2027-ci illər üzrə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik Strategiyası”nda proqram mühəndisliyinin milli prioritetlərdən biri kimi qeyd olunması da bunun bariz nümunəsidir. Burada əsas məqsəd ölkəmizin texnologiyalar sahəsində xaricdən asılılığını minimuma endirmək, milli rəqəmsal iqtisadiyyatın və proqram sənayesinin inkişafına elmi dəstək verməkdir.

Proqram mühəndisliyi üzrə real addımlara gəldikdə isə onu deyə bilərəm ki, ölkəmizdə ilk dəfə olaraq 2003-cü ildə İnformasiya Texnologiyaları İnstitutunda akademik Rasim Əliquliyevin rəhbərliyi ilə proqram mühəndisliyi üzrə elmi–tədqiqatlara başlanılmışdır. 2013-cü ildə İnformasiya Texnologiyaları İnstitutunun nəşriyyatında mənim və baş mütəxəssis Tamilla Bayramovanın müəllifliyi ilə “Proqram mühəndisliyi”, 2020-ci ildə isə Tamilla Bayramovanın müəllifliyi ilə “Proqram mühədisliyinin əsasları” adlı kitablar nəşr edilmişdir. Bu tədqiqatların nəticəsi olaraq, 2017-ci ildə əsas İnformasiya Texnologiyaları İnstitutunun təşkilatçılığı ilə ilk dəfə “Proqram mühəndisliyinin aktual elmi-praktiki problemləri” adlı respublika konfransı keçirilmişdir. Bu konfransın keçirilməsində əsas məqsəd Azərbaycanda proqram mühəndisliyinin müasir vəziyyətini hərtərəfli təhlil etmək, bu sahədə çalışan tədqiqatçıları bir araya gətirmək, elmdə, təhsildə olan problemləri, çətinlikləri, nöqsanları aşkarlamaq, məqsədləri və perspektivləri müəyyən etməkdən ibarət idi. Bütün bu ardıcıl fəaliyyətin nəticəsi olaraq, 2025-ci ildən ölkədə “proqram mühəndisliyi” ixtisası üzrə kadr hazırlığına başlanmışdır.



**– Proqram mühəndisliyi iqtisadi baxımdan hansı əhəmiyyətə malikdir?**

– Müasir dövrdə ölkə iqtisadiyyatının əsas hərəkətverici qüvvələrindən biri rəqəmsal texnologiyalar, xüsusən də, proqram məhsulları sənayesidir. Təsadüfi deyil ki, bir çox analitiklər proqram mühəndisliyini “yeni neft” adlandırırlar. Çünki ondan əldə olunan gəlirlərin həcmi və iqtisadiyyata verdiyi töhfə artıq təbii resurslarla müqayisə oluna biləcək səviyyəyə çatıb.

Proqnozlara görə, 2029-cu ilə qədər qlobal proqram məhsulları sənayesinin həcmi 896 milyard dolları keçəcək. Təkcə Hindistanın proqram məhsulları və İT xidmətləri ixracından əldə etdiyi gəlir 200 milyard dollardan artıqdır. Bu ölkə uzun illərdir insan kapitalına sərmayə yatıraraq “proqram məhsulları ixracatçısı”na çevrilib. Oxşar nümunələri Çində, ABŞ-da, Almaniyada da görürük. Məsələn, Çində təxminən 7 milyon, Hindistanda 5 milyona yaxın, ABŞ-da isə 4,4 milyon proqramçı mühəndis çalışır.

Amma məsələ yalnız rəqəmlərdə deyil. Proqram mühəndisliyi müasir iqtisadiyyat üçün “dayaq sütunu”na çevrilir. Bu həm də dövlətin kibersuverenliyinin əsas dayaqlarından biridir, belə ki, dövlətin kibertəhlükəsizliyi, onun informasiya məkanının qorunması birbaşa milli proqram mühəndisliyindən asılıdır. Yəni bu sahə artıq milli təhlükəsizlik məsələsinə çevrilib.

Digər tərəfdən, proqram mühəndisliyi yüksək əlavə dəyər yaradır. Neft və qaz hasilatında gəlir təbii resurslardan əldə edilir, amma proqram sənayesində gəlir insanın intellektual fəaliyyətinin məhsuludur. Bu isə tükənməyən sərvətdir.

Müasir dövrdə Microsoft, Google, Apple, Amazon və s. kimi texnologiya nəhənglərinin dəyəri milyardlarla dollarla ölçülür və onların sərvəti, əsasən, proqram təminatından əldə edilir. Bu şirkətlərin illik gəlirləri bəzi dövlətlərin Ümumi Daxili Məhsulundan çoxdur. Bu fakt sübut edir ki, proqram mühəndisliyi texniki bir sahə olmaqla yanaşı, qlobal iqtisadiyyatın inkişaf perspektivlərini müəyyən edən strateji bir vasitədir.

Bunu da xüsusi vurğulamaq istəyirəm: proqram mühəndisliyi sosial tərəqqiyə də təsir edir. Yəni burada söhbət yalnız iqtisadi göstəricilərdən getmir. İnsanların gündəlik həyatında rahatlıq, iş yerlərinin yaradılması, gənclərin yüksək maaşlı işlə təmin olunması, yeni peşələrin ortaya çıxması kimi nailiyyətlər proqram mühəndisliyi sahəsində fəaliyyətin birbaşa nəticəsidir.

Artıq proqram mühəndisliyi sadəcə bir peşə deyil, dövlətlərin XXI əsrdəki iqtisadi, sosial və strateji inkişafının əsas sütunudur. Bu gün bu sahəyə diqqət ayırmayan ölkələr gələcəkdə qlobal iqtisadi inkişafdan kənarda qala bilər.

**– Müasir dövrdə proqram mühəndisliyi hansı problemlərlə üzləşir?**

– Bu sahədə bir sıra problemlər mövcuddur. Birincisi, proqram sistemlərinin mürəkkəbləşməsi idarəetməni çətinləşdirir. Mikroservislər, bulud əsaslı arxitekturlar, paylanmış sistemlər daha çox resurs tələb edir. İkincisi, biznes tələbləri sürətlə dəyişir. Çevik metodlar bu problemi qismən həll etsə də, tam adaptasiya hər zaman mümkün olmur. Üçüncüsü, kibertəhlükəsizlik məsələsi gündəmdədir. Hər gün yeni hücumlar baş verir, məlumatların sızması təhlükəsi artır. Proqram mühəndisliyi artıq yalnız kod yazmaq deyil, həm də kibertəhlükəsizliyi düşünmək deməkdir.

Dördüncüsü, yüksəkixtisaslı mütəxəssis çatışmazlığı var. Xüsusən, süni intellekt, maşın təlimi və kibertəhlükəsizlik kimi sahələrdə bu çatışmazlıq daha kəskin hiss olunur. Nəhayət, köhnə sistemlərdən istifadə, universitet tədrisi ilə real sənaye tələbləri arasındakı uyğunsuzluq da böyük maneələr yaradır. Burada əsas problemlərdən biri də texnologiyaların sürətli inkişafı ilə əlaqədardır. Texnologiya o qədər sürətlə dəyişir ki, universitetlərin dərs proqramlarını yeniləməsi çətinləşir. Bəzən məzunlar əmək bazarına çıxanda artıq öyrəndikləri biliklər köhnəlmiş olur.

Ali təhsil müəssisələrində verilən biliklər ilə əmək bazarının gözləntiləri arasında əhəmiyyətli bir fərq var. Məzunlardan işə qəbul zamanı real layihələrlə iş təcrübəsi, komandada işləmək qabiliyyəti və müasir texnologiyalarla işləmək bacarığı tələb olunur. Ancaq universitetlərin proqramlarında çox vaxt nəzəri biliklərə üstünlük verilir, bu isə məzunların peşəkar mühitə inteqrasiyasını çətinləşdirir. Eyni zamanda, texnologiyanın sürətlə inkişaf etdiyi bir dövrdə müəllimlərin də öz biliklərini daim yeniləməsi zəruridir.

**– Süni intellekt və proqram mühəndisliyi bir-birilərinə necə qarşılıqlı təsir göstərir?**

– Süni intellekt və proqram mühəndisliyi, əslində, bir-birini tamamlayan iki sahədir. Çünki süni intellekt, bir tərəfdən proqram mühəndisliyinin məhsuludur, yəni işlənən və tətbiq edilən texnologiyaların nəticəsidir, digər tərəfdən isə, o, proqram mühəndisliyinin özünün inkişafına xidmət edən güclü bir alətdir.

Son dövrlərdə süni intellekt texnologiyaları mürəkkəb proqram sistemlərinin yaradılmasında əsas vasitədir. Maşın təlimi və dərin təlim texnologiyaları sayəsində proqram təminatı artıq yalnız insana deyil, həm də öz təcrübəsinə əsaslanaraq qərar verə bilən sistemə çevrilir. Bu gün istər səsli köməkçilər, istər avtomatik tərcümə proqramları, istərsə də üztanıma sistemləri proqram mühəndisliyinin prinsipləri ilə hazırlanmış süni intellekt məhsullarıdır.

Amma məsələ bununla bitmir. Süni intellekt, eyni zamanda, proqram mühəndisliyinin özündə də inqilabi dəyişikliklər etmişdir. Kodların avtomatik generasiyası, proqramların sınağı, səhvlərin erkən mərhələdə aşkar edilməsi və layihələrin idarə olunması süni intellekt vasitəsilə daha sürətli və daha dəqiq həyata keçirilir. Əgər əvvəllər böyük kollektivlər günlərlə, aylarla müəyyən texniki xətaları aradan qaldırmağa çalışırdısa, indi bu işi süni intellekt qısa bir müddət ərzində yerinə yetirə bilir. Bu, həm vaxt, həm də maliyyə baxımından proqram mühəndisliyinə böyük qənaət qazandırır.

Başqa bir tərəfdən, süni intellekt proqram mühəndisliyi üçün yeni üfüqlər açır. Təbii dilin emalı kompüterlərə insan dilini anlamaq imkanı verir ki, bu da proqram interfeyslərinin daha intuitiv və əlçatan olmasına gətirib çıxarır. Kompüter görməsi isə maşınlara şəkil və videonu insan kimi qavramaq bacarığı verir, bu da tibdən tutmuş təhlükəsizlik sistemlərinə qədər müxtəlif sahələrdə tətbiq olunur.

Burada qarşılıqlı təsirin başqa bir mühüm tərəfi də var: proqram mühəndisliyi süni intellektin inkişafı üçün möhkəm baza rolunu oynayır. Süni intellekt sistemlərini yaratmaq üçün əvvəlcə proqram mühəndisliyi qaydalarına uyğun dizayn, arxitektura və infrastruktur qurulmalıdır. Əgər bu baza zəif olsa, süni intellekt də uğurlu işləyə bilməz. Daha bir faktı vurğulamaq istərdim: süni intellektə əsaslanan ChatGPT-i insanlar tərəfindən çox geniş istifadə edilir. O, OpenAI şirkəti tərəfindən hazırlanmış güclü bir çatbotdur, yəni dialoq robotudur. Bu proqramın əsas funksiyası insan dilini anlamaq və ona uyğun, məntiqi, ətraflı və insan kimi mətn cavabları yaratmaqdır. Ondan, demək olar ki, insan fəaliyyətinin bütün sahələrində istifadə etmək olar.

Əminliklə deyə bilərəm ki, bu iki sahənin sintezi yaxın illərdə rəqəmsal texnologiyaların inkişafını daha da sürətləndirəcək. Süni intellekt olmasa, proqram mühəndisliyi bu qədər dinamik inkişaf edə bilməzdi. Eyni zamanda, proqram mühəndisliyi olmasa, süni intellekt bu qədər geniş tətbiq sahəsi tapa bilməzdi. Bu gün biz artıq onların bir-birindən asılılığını aydın şəkildə görürük və bu asılılıq gələcəkdə daha da güclənəcək.

**– Tofiq müəllim, sizcə, ölkəmizdə proqram mühəndisliyi sahəsinin inkişafı və proqram sənayesinin formalaşması üçün hansı addımlar atılmalıdır?**

– Əvvəla, qeyd etdiyim kimi, bu sahə artıq, sadəcə, texnoloji istiqamət deyil, ölkələrin iqtisadi müstəqilliyi və rəqəmsal təhlükəsizliyi ilə birbaşa bağlıdır. Ona görə də, ilk növbədə, bu sahənin inkişafı üçün dövlət səviyyəsində vahid və strateji proqram qəbul olunmalıdır. Yəni proqram mühəndisliyinin inkişafı pərakəndə şəkildə deyil, sistemli şəkildə idarə edilməlidir. İkincisi, mütləq beynəlxalq standartlara uyğun milli standartlar hazırlamalıyıq. Bu, həm milli proqram mühəndisliyinin formalaşmasına, həm də tədrisin keyfiyyətinə, hazırlanan mütəxəssislərin dünya bazarında rəqabət qabiliyyətinə təsir edəcək.

Həmçinin, dərslik məsələsi də çox vacibdir. Dünyanın aparıcı universitetlərində istifadə olunan dərsliklər müntəzəm olaraq Azərbaycan dilinə tərcümə edilməli, eyni zamanda, yerli müəlliflərimizin bu sahədə kitab yazmaları təşviq olunmalıdır. Bunlardan başqa, universitetlərlə sənaye müəssisələri arasında sıx əməkdaşlıq qurulmalıdır. Tələbə yalnız nəzəriyyə ilə kifayətlənməməli, real layihələrdə iştirak edib praktiki təcrübə qazanmalıdır.

Daha bir vacib məsələ odur ki, bu fənni tədris edən müəllimlərin bilikləri daim yenilənməlidir. Rəqəmsal dünya çox sürətlə dəyişir. Ona görə də ya müəllimlər mütəmadi olaraq təlimlərdə iştirak etməlidir və bu sahədə təcrübəsi olan mütəxəssislər dərs prosesinə cəlb olunmalıdır.

Nəhayət, hər 2-3 ildən bir, proqram mühəndisliyi üzrə xarici aparıcı alimləri dəvət etməklə, bu sahəyə həsr olunmuş respublika və beynəlxalq səviyyəli konfranslar keçirilməlidir. Bu, həm alimləri, həm mütəxəssisləri, həm də tələbələri bir araya gətirərək problemləri və perspektivləri müzakirə etməyə imkan verəcək, eyni zamanda, ölkəmizdə proqram mühəndisliyinin formalaşmasına və inkişafına təkan verəcəkdir.

***Müsahibəni hazırladı:***
***Səbuhi MƏMMƏDOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 236 (30930) 5 noyabr 2025-ci il, çərşənbə

# “Qarabağ”a məhəbbətlə, “Çelsi”yə hörmətlə...

## “Köhlən atlar” Liqa yolunun yarısına çatır

**UEFA Çempionlar Liqasında əsas mərhələnin birinci yarısı yekunlaşmaq üzrədir. Bu axşam “Qarabağ” Azərbaycan – “Çelsi” İngiltərə görüşü ilə 8 turdan ibarət turnirin hər iki rəqib üçün ilk 4 turu arxada qalacaq. Qarşıda Ağdam komandasının da, londonlu qonağımızın da pərəstişkarlarını böyük futbol bayramı gözləyir.**




Tərəflərin öz aralarındakı oyuna eyni nəticə–6 xalla gəlib, turnir cədvəlinin müvafiq surətdə 13-cü və 11-ci pillələrində qonşuluq etmələri onların əyani mübarizəsinə marağı daha da artırır. Bəli, qalib komanda yarışın ikinci yarısının başlanmasını 36 klubun göstəricilərini əks etdirən cədvəldə birinci onluqda gözləyəcək, məğlubiyyətlə üzləşəcək kollektiv isə indiki mövqeyindən xeyli geri çəkiləcək. Heç-heçə təqdirində rəqiblər bilməyəcəklər sevinsinlər, yoxsa məyus olsunlar–yəni, uda da bilərdik, uduza da.

Tarixində ikinci dəfə nəhənglər meydanının qapısını öz üzünə açmağı bacarmış “Qarabağ” bugünkü oyuna inamlı addımlarla, qürur doğuran göstərici ilə gəlib. Bu səmimi və mübariz kollektiv bir-birindən zəhmli rəqiblərə qarşı üç çətin sınağın ikisindən qalib ayrılaraq, futbol aləmini təəccübləndirib. Bu görüşlərdən ikisinin böyük futbol ölkələrində, müxtəlif illərdə öz milli komandalarının müvafiq surətdə Avropa və dünya birinciliyini bayram etdiyi Portuqaliya və İspaniyada keçirildiyini də nəzərə alsaq, həqiqətən, dəyişməz ölkə çempionumuz özünün baş məşqçisi Qurban Qurbanov, bütün məşqçilər heyəti, klubun rəhbərliyi və sadiq pərəstişkarları ilə birlikdə çox iş görüb.

“Qarabağ”ın altı-yeddi oyunçusu müntəzəm surətdə Azərbaycan milli komandası heyətində dünya çempionatının seçmə mərhələ görüşlərinə dəvət alır. Bugünkü matçdan 8 gün sonra onların İslandiya ilə qarşılaşmada da meydana çıxmaq ehtimalı böyükdür. Bundan başqa, komanda əsas mərhələdə qazandığı 6 xalla yanaşı, ayrı-ayrı oyunçuları ilə də diqqət mərkəzindədir.

UEFA-nın xatırlatdığı kimi, Leandro Andrade ötən mövsümdə Avroliqada “Hekken” (İsveç) və FCSB (Rumıniya) komandalarına, bu il oktyabrın 22-də isə Çempionlar Liqasında Bilbaoda “Atletik”ə vurduğu 1-ci dəqiqə qolları ilə rekord müəyyənləşdirib. Qitəmizin ali futbol təşkilatının bayrağı altında keçirilən 2 müxtəlif yarışın 3 oyununda 1-ci dəqiqədə fərqlənib, tarixə düşən sürətli qollar müəllifinin Azərbaycan klubunun oyunçusu olması Avropa futbolunda diqqətəlayiq hadisədir.



Üç turdan sonra turnir cədvəlinə diqqət yetirdikdə, görürük ki, bir vaxtlar “uçan hollandiyalı” ləqəbi almış məşhur Yohan Kroyfun da şərəfini qoruduğu, həmişə də adı sayılıb-seçilən rəqiblər sırasında çəkilən Amsterdamın “Ayaks” klubu Liqa mərhələsində hələ xallarının hesabını aça bilməyib və sonuncu, 36-cı yerdədir. Ona görə də Azərbaycan çempionunun indiki mövqeyi inamlı, əzmkar, başlıcası isə məhsuldar oyunun bəhrəsi deyilmi?

Söz düşmüşkən, dekabrın 10-da, 6-cı turda “Qarabağ” Bakıda hollandları qəbul edəcək. Ola bilsin, məhz bu oyun bizim üçün ilin matçına çevrilib, növbəti mərhələyə vəsiqə uğrunda mübarizədə xüsusilə mühüm əhəmiyyət kəsb etsin. Belə düşünərkən bu gün “Çelsi” və noyabrın 25-də İtaliyada “Napoli” ilə görüşlərdə xal ehtiyatımızın bir qədər də arta biləcəyi ehtimalına da güvənirik. Düşüncələrimiz əsassız deyil. Bu gün heç kim elə bir komanda göstərə bilməz ki, hər hansı yarışda meydana xal qazanmaq əzmi ilə çıxmasın.

Səkkiz il əvvəl Ağdam komandası ilk dəfə Çempionlar Liqasına “bilet” qazandığı 2017–2018-ci illər mövsümünün qrup mərhələsində “Çelsi”yə rəqib olmuş “Qarabağ” (hər iki oyunda ingilislər böyük hesabla qalib gəliblər) bu gün yenə onunla üz-üzə gələcək. Şübhəsiz, London klubu gələn ilin mülayim may ayında Budapeştin “Puşkaş Arena” stadionunda keçiriləcək və dünyanın bütün guşələrində azarkeşlər üçün möhtəşəm tamaşaya çevriləcək həlledici final oyununun iki iştirakçısından biri olmaq arzusu ilə yaşayır. Komanda istəyini həyata keçirməyi bacarsa, bu sensasiya kimi qarşılanmayacaq. Liqanın 4-cü raund döyüşünə ümidverici nəticə ilə çatmaqla hamımıza hədsiz sevinc bəxş etmiş “Qarabağ” da cədvəldə indiki mövqeyini itirmək fikrindən tamamilə uzaqdır, əksinə, xal ehtiyatını bir qədər də artırmaq barədə düşünür. Azarkeşlər də nəhəng rəqiblə ağır mübarizədə ona həmişəkindən də möhkəm dəstək göstərməyə tam hazırdırlar.

Deməli, hər şey ola bilər. “Qarabağ” Lissabonda, “Benfika”nın doğma şəhərində bu komandaya qalib gələ bilirsə, niyə də Bakıda “Çelsi” ilə də eyni səviyyədə oynamağa, xal qazanmağa ümid etməyək?!

Görüşün hakimliyinə gəldikdə, oyunu Avstriya Futbol Federasiyasının nümayəndələri idarə edəcəklər. Baş hakim rolunda Sebastyan Qishameri görəcəyik. Topa ilk zərbə isə saat 21:45-də endiriləcək. Bizə də bir daha “Uğurlar, “Qarabağ!” demək qalır.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# İDMAN

## Voleybol millimizin qələbəsi



**Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində VI İslam Həmrəyliyi Oyunlarına start verilib. Qadın voleybolçulardan ibarət Azərbaycan milli komandası Faiq Qarayevin rəhbərlik ilə ilk matçda İran millisi ilə üz-üzə gəlib.**

Oyun komandamızın qələbəsi ilə başa çatıb. İlk setdə 25:11 hesabı ilə qalib gələn millimiz sonrakı hissələrdə də rəqibindən üstün olub – 25:16, 26:24. Beləliklə, komandamız ilk görüşdən 3:0 hesablı qələbə ilə ayrılıb.

Qeyd edək ki, voleybolçularımız Tacikistan, Türkiyə və Əfqanıstan yığmaları ilə də qarşılaşacaq. Komandamızın növbəti oyunu noyabrın 6-da Tacikistan yığmasına qarşı olacaq.

Dünən futzal millimiz də A qrupunun I turunda Liviya komandası ilə qarşılaşıb. Görüş Azərbaycan komandasının qələbəsi ilə başa çatıb–5:4.

Xatırladaq ki, VI İslam Həmrəyliyi Oyunlarının rəsmi açılış mərasimi noyabrın 7-də baş tutacaq. İki həftə sonra–noyabrın 21-də isə yarışlara yekun vurulacaq.

## XXV Yay Deflimpiya Oyunları



**Azərbaycan Deflimpiya Komitəsinin baş katibi Namiq Novruzov bildirib ki, XXV Yay Deflimpiya Oyunlarında ölkəmizi 6 idman növündə 20 idmançı təmsil edəcək.**

Sevindirici məqam odur ki, komandada 5 xanım idmançı yer alacaq. Onlardan 3-ü taekvondo, 1-i karate, 1-i isə üzgüçülük üzrə yarışda çıxış edəcək. Baş katib əlavə edib ki, bu fakt qadın idmançılarımızın beynəlxalq arenada fəal iştirakının, onların peşəkarlığının göstəricisidir. Bu, ölkəmizdə qadınların idmanda rolunun güclənməsinin və gender bərabərliyinə verilən önəmin bariz nümunəsidir.

Qeyd edək ki, XXV Yay Deflimpiya Oyunları noyabrın 5–26-sı aralığında Yaponiyanın paytaxtı Tokioda keçirilir.

## DÇ–2027-də qadın rəqiblərimiz




**Azərbaycanın qadın futbolçulardan ibarət millisinin DÇ–2027-nin seçmə mərhələsindəki rəqibləri müəyyənləşib. İsveçrənin Nyon şəhərində təşkil edilən püşkatmanın nəticəsinə görə Siyasət Əsgərovun baş məşqçisi olduğu kollektiv C liqasında mübarizə aparacaq.**

Püşk zamanı ikinci səbətdə yer alan yığmamız III qrupda Macarıstan, Şimali Makedoniya və Andorra yığmalarına rəqib olub.

Qeyd edək ki, DÇ–2027-nin seçmə mərhələsinə 2026-cı ilin fevralında start veriləcək.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Sağlamlıq*

# İbn Sinanın yaşıl apteki

## *Hindiba – qaraciyərin və sümüyün dostu*



**Şərq təbabətinin atası İbn Sinanın təbii müalicə vasitələri arasında önəm verdiyi bitkilərdən biri də mavi hindiba bitkisidir. Orta əsr müdriki bu şəfalı otun qaraciyəri təmizləməkdə sümüyü möhkəmləndirməkdə möcüzəli təsirini öyrənib ondan faydalanmağı tövsiyə edib.**

Mavi çiçəkləri ilə yolların, tarlaların kənarlarını bəzəyən hindiba (ona cərahət otu da deyilir), sən demə, kökündən yarpaqlarına qədər şəfaverici vasitə imiş, sonrakı araşdırmalar göstərib ki, mavi hindibanın kökləri inulin adlı təbii prebiyotiklə zəngindir. Bu maddə bağırsaq florasını tənzimləyir, zərərli bakteriyaların çoxalmasının qarşısını alır və həzm prosesini asanlaşdırır. İnulin həm də qəbizliyi azaldır, immuniteti artırır. O, kalsiumun mənimsənilməsini artırır, bununla da sümük sıxlığını qoruyur.

Şərq təbabətində “qaraciyərin dostu” kimi tanınan mavi hindibanın tərkibindəki saponinlər və fenolik birləşmələr isə öd ifrazını artırır. Bu isə qaraciyərin zərərli yığıntılardan təbii yolla təmizlənməsinə kömək edir.

Mavi hindiba flavonoidlər və polifenollarla da zəngindir. Bu maddələr sərbəst radikalları zəifledir, hüceyrələrin qocalmasını ləngidir və dəri iltihabını azaldır. Bitkidən daimi istifadə oynaq ağrıları, qaraciyər yorğunluğu və dəri sərtləşməsi kimi fəsadların qarşısını alır.

Hindibanın tərkibindəki seskviterpen laktonlar isə sinir sistemini qidalandırır, yaddaşı gücləndirir, diqqəti artırır və yorğunluğu azaldır.

***Vüsalə ƏLİYEVA***
***XQ***

# *HAVA*

## Bakıda və bəzi şərq rayonlarında yağış yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında arabir leysan xarakterli yağış yağacağı, 4-dən 5-nə keçən gecə və səhər yarımadanın bəzi yerlərində intensivləşəcəyi gözlənilir. Gündüz tədricən kəsiləcək. Mülayim cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 9-12, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 769 millimetr civə sütunu, nisbi rütubət 80-90 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi şərq rayonlarında arabir yağış yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 6-11, gündüz 16-21, dağlarda gecə 0-5, gündüz 5-9 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***


## “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti

*“Azərbaycan Hava Yolları” QSC-yə məxsus bütün struktur bölmələri və region hava limanları üzrə dezinfeksiya, dezinseksiya və deratizasiya xidmətlərinin satın alınması məqsədilə*

### AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyən iddiaçılar **prosedurun şərtlər toplusunu (ŞT)** əldə etmək üçün **vaghababayeva@azal.az** elektron poçt ünvanına yazılı müraciət edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 21 noyabr 2025-ci il saat 15:00-dəkdir.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Prosedur üzrə əlaqələndirici şəxs: Vüsalə Ağababayeva.**

Satınalma üzrə aparıcı mütəxəssis, “Azərbaycan Hava Yolları” QSC-nin satınalma idarəsi.

**E-mail:** *vaghababayeva@azal.az*
**İş telefonu**: *(+99412) 497 26 00 (daxili 1451).*
**Mobil:** *+99450- 327- 20- 21.*



## “Bakı Tələbat Qabları” ASC səhmdarlarının nəzərinə!

19 dekabr 2025-ci il saat 11:00-da “Bakı Tələbat Qabları” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncaqda aşağıdakı məsələlər müzakirə ediləcəkdir:**

**1.** Yeni direktorun seçilməsi.
**2.** Digər məsələlər.

Ümumi yığıncaqda səhmdarların iştirakı vacibdir

**Ünvan:** *Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bəşir Bünyadov küçəsi, 2578-ci məhəllə, 903-cü döngə.*

**Əlaqə telefonu:** *012-425-10-11.*

***“Bakı Tələbat Qabları” ASC-nin direktoru - S.Kazımov***


## ALLAH RƏHMƏT ELƏSİN!

“Xalq qəzeti”nin kollektivi keçmiş iş yoldaşları Hacı Mehman Fərzullayevə qardaşı

**RƏCƏBƏLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Hacı Qüdrət və Hacı Firudin Hacı Mehman, Kərbəlayi Cəbrayıl və Füzuli Fərzullayevlərə qardaşları

**RƏCƏBƏLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3487
SİFARİŞ 2210
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00